RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 166 (9621) 7 avqust 2024-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Azərbaycan-Rusiya münasibətləri Cənubi Qafqazda və daha geniş məkanda mühüm təhlükəsizlik faktorudur

### Prezident İlham Əliyev Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 6-da Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqunu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Sergey Şoyqunun səfərinin ikitərəfli münasibətlərin gündəliyi və qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi.

Dövlətimizin başçısı Azərbaycan ilə Rusiya arasında regionda gedən proseslərlə bağlı mütəmadi təmasların əhəmiyyətini qeyd etdi.

İkitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini deyən Azərbaycan Prezidenti bunun ən yüksək və digər səviyyələrdə təmaslarda, eyni zamanda ölkələrimiz arasında imzalanmış sənədlərin və yol xəritələrinin həyata keçirilməsi, təhlükəsizlik, nəqliyyat, energetika, hərbi-texniki, humanitar sahələrdə əməkdaşlıqda özünü nümayiş etdirdiyini vurğuladı. Prezident İlham Əliyev bu məsələlərlə bağlı mütəmadi olaraq Prezident Vladimir Putin ilə müzakirələrin aparıldığını bildirdi.

Hökumətlərarası komissiyanın fəal işlədiyini deyən dövlətimizin başçısı bu yaxınlarda Bakıda bu komissiyanın iclasının keçiriləcəyini vurğuladı. Prezident İlham Əliyev ölkələrimizin digər qurumları arasında da fəal təmasların olduğunu qeyd etdi.

Dövlətimizin başçısı iki ölkənin siyasi rəhbərliyi arasında qəbul olunmuş qərarların, məhz "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Bəyannamənin müddəalarının uğurla həyata keçirilməsini məmnunluqla qeyd etdi.

Azərbaycan-Rusiya münasibətlərinin bəzi qonşu dövlətlər üçün də bir nümunə olduğunu deyən Prezident İlham Əliyev bunu Cənubi Qafqazda və daha geniş məkanda mühüm təhlükəsizlik faktoru kimi dəyərləndirdi.

Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqu nümayəndə heyətinə səmimi və isti münasibətin göstərilməsinə görə minnətdarlığını bildirərək, bunun əsasında iki ölkənin dövlət başçıları arasında olan şəxsi münasibətlərin durduğunu dedi.

Sergey Şoyqu ölkələrimiz arasında regional təhlükəsizlik, hərbi-texniki, nəqliyyat, iqtisadi sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini vurğuladı. O, ikitərəfli əməkdaşlığın gündəliyində çox mühüm məsələlərin durduğunu və onların uğurla həll edildiyini dedi. Bu xüsusda Şimal-Cənub dəhlizinin həyata keçirilməsini bunun nümunəsi kimi dəyərləndirdi və bununla bağlı üçtərəfli əsasda böyük işlərin görüldüyünü qeyd etdi.

Sergey Şoyqu ölkəsinin Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesini dəstəklədiyini bildirdi.

Görüşdə "3+3" formatında əməkdaşlığın perspektivləri müzakirə olundu.

Söhbət zamanı Ümummilli Lider Heydər Əliyevin xatirəsinə Rusiyada göstərilən ehtirama toxunularaq, Baykal-Amur Magistralının tikintisində Ulu Öndərin böyük rolu bir daha qeyd edildi, Prezident İlham Əliyevin bu ilin aprelində Moskvada Baykal-Amur Magistralının 50 illik yubileyi münasibətilə keçirilən tədbirdə iştirakının əhəmiyyəti vurğulandı.



## “Cənub qaz dəhlizi”nin ehtiyat mənbəyi

## "Şahdəniz" bu missiyanın öhdəsindən uğurla gəlir

"Şahdəniz" işlənməsinin hər iki mərhələsində tikinti və istismar əməliyyatlarında region əhalisinin məşğulluğuna sanballı dəstək verib. "Şahdəniz-1"in işə salınmasında 5000-dən çox insan iştirak edib. "Şahdəniz-2"nin işlənməsinin pik həddində isə Azərbaycan və Gürcüstanda 30 mindən çox iş yeri yaradılıb . Yerli işçi qüvvəsinin bacarıqlarını inkişaf etdirmək üçün hərtərəfli təlim və təhsil proqramları keçirilib. Eləcə də yüzlərlə Azərbaycan şirkətinə öz potensialından istifadə etməyə və neft-qaz sənayesi layihələri üçün təchizatçı olmağa imkan yaranıb.

Hazırda hədəf Azərbaycandan Avropa İttifaqına təchiz edilən qazın həcmini ikiqat artırmaqdır. Qaz ixracının artırılması isə bir sıra şərtlərlə bağlıdır ki, bunların sırasında hasilatın çoxalması önəmli yer tutur. Hələlik bu, "Şahdəniz"in üzərinə düşür və o, vəzifəsinin öhdəsindən uğurla gəlir. Belə ki, bu ilin birinci yarısında "Şahdəniz-2" layihəsi çərçivəsində iki mühüm nailiyyət əldə olunub - şərq-şimal cinahında iki quyudan hasilata başlanıb.

"Xankəndi" sualtı tikinti gəmisi quraşdırma işlərini və istismar sınaqlarını davam etdirməklə yanaşı, yatağın işlənməsi ilə bağlı ümumi işlərə də dəstək verir. Ümumiyyətlə, bundan sonra "Xankəndi" gəmisi dənizdəki bütün tikinti, quraşdırma, müayinə, təmir və texniki xidmət işləri və fövqəladə hallara cavab tədbirləri üçün əsas gəmi kimi istifadə olunacaq. Bu da əməliyyatları daha təhlükəsiz və daha səmərəli edəcək.

Ötən aylar ərzində "İstiqlal" və "Heydər Əliyev" qazma qurğuları "Şahdəniz-2" layihəsi çərçivəsində quyular üzrə işləri davam etdirib. Bu layihə üzrə indiyədək 21 quyu qazılıb. Bunlara yatağın şimal cinahında beş, qərb cinahında dörd, şərq-cənub cinahında dörd, qərb-cənub cinahında beş və şərq-şimal cinahında üç quyu daxildir.

Xatırladaq ki, "Şahdəniz"də iştirak payları belədir: BP (29,99 faiz), "Cənub qaz dəhlizi" (21,02 faiz), LUKOYL (19,99 faiz), TPAO (19 faiz), NİKO (10 faiz).

Hazırda "Şahdəniz"dən Azərbaycan ("Azərkontrakt" ASC-yə), Gürcüstan (GOGC şirkətinə), Türkiyə (BOTAŞ şirkətinə) bazarlarına, çoxsaylı obyektlər üçün BTC-yə və Avropadakı alıcılara qaz çatdırılması davam edir.

→ 7



## Azərbaycanın yaratdığı reallıqlarla hesablaşılmalıdır

Azərbaycan ərazilərinin işğaldan azad edilməsi, Ermənistanın işğalçılıq siyasətinə, erməni separatizminə son qoyulması beynəlxalq hüququn normalarının təmin olunması ilə yanaşı, həm də yeni reallıqların yaranması deməkdir. Amma görünən odur ki, bu reallıqları hələ də dərk etməyənlər, yaxud proseslərə erməni təəssübkeşliyi ilə yanaşanlar var. Bu xüsusda Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın bir neçə gün öncə mətbuata verdiyi müsahibəsində səsləndirdiyi fikirlər Qərbin bəlli siyasi dairələrində Azərbaycanın maraqlarına, Azərbaycan xalqının hüquqlarına qarşı olan qəbuledilməz münasibətin və erməni sevgisinin növbəti göstəricisidir.

→ 6

## Ermənistan Qərbin əlində alətə çevrilib

### Bu, onun dövlət müstəqilliyinin itirilməsinə səbəb ola bilər

Cənubi Qafqaz üzərində qurulan məkrli planlar, regiona kobud müdaxilə ssenariləri artıq tam gücü ilə işə düşüb. Avropa Sülh Fondunun Ermənistana 10 milyon avro yardım ayırması barədə qərarından sonra Aİ Ermənistanla viza rejiminin liberallaşdırılması ilə bağlı danışıqlara başlayıb. Heç şübhəsiz ki, burada əsas rolu Fransa oynayır. Nüfuzunu itirmiş bu beynəlxalq təşkilat rəsmi Parisin əlində başqa dövlətlərə təsir etmək üçün bir alətə çevrilib. Ermənistanı öz məkrli planlarına alət edənlər elə zənn edirlər ki, bu yolla Hayastanı Rusiyanın təsirindən çıxarmağa nail olacaqlar. Nəzərə alsaq ki, cəmi bir neçə gün öncə ABŞ Ermənistan ordusu ilə ortaq təlimlər keçirib, eyni zamanda Pentaqon yüksəkrütbəli hərbçilərini Ermənistan Müdafiə Nazirliyi ilə birgə fəaliyyət göstərmək üçün İrəvana göndərib, onda belə nəticəyə gəlmək olar ki, bütün bunlar Cənubi Qafqazda sülh prosesinə mane olmaq məqsədi daşıyır.

Yaxın keçmişin hadisələri göstərir ki, Ermənistan öz sonuna doğru sürətlə yaxınlaşmaqdadır. Böyük güclərin Cənubi Qafqaz maraqları, Ermənistanı özlərinə alət etmələri bu dövlətə yaxşı heç nə vəd etmir. Ortalıqda dərs götürmək üçün Rusiya-Ukrayna savaşı var. ABŞ və Qərb Ukraynanı Rusiya ilə qeyri-bərabər müharibəyə sövq etdi... Vəd edilən hərbi yardım Ukraynaya vaxtında çatdırılmadı. Bu azmış kimi, Qərb rəsmi Kiyevə Kreml ilə sülh danışıqlarına başlamağı, ərazilərini Rusiyaya güzəştə getməyi məsləhət görür...

→ 6



## Ermənistan hökumətinin, eləcə də onun havadarlarının ictimaiyyəti çaşdırmaq cəhdləri uğursuzluğa məhkumdur

Qərbi Azərbaycan ərazisinin əzəli və yerli sakinlərinin Azərbaycan türkləri olmasına baxmayaraq, ora köçürülən ermənilər XX əsrin əvvəllərindən başlayaraq azərbaycanlıları öz doğma yurdlarından didərgin salmaq üçün himayədarlarının əli ilə özlərinin məkrli niyyətlərini həyata keçiriblər. Ermənilərin maraqlarına uyğun olaraq Qərbi Azərbaycandan bütün soydaşlarımız öz doğma ata-baba yurdlarından zorla çıxarılmış və onlar qaçqın halında Azərbaycanın bölgələrində məskunlaşmışlar.

→ 6

## Uzun, yoxsa sağlam ömür?

### Yaşlanın, amma qocalmayın

Bəşər tarixi boyunca ömrü uzatmaq üçün minlərlə üsuldan istifadə edilib. Genetik olaraq insan 120 il yaşamalı olsa da, buna əksəriyyət nail ola bilmir.

Azərbaycanda 90 yaşına çatmış insan uzunömürlü hesab edilsə də, dünya üzrə bu yaş həddi 100-dür. Orta ömür uzunluğuna görə ilk yerdə Yaponiya qərarlaşıb. Ölkənin cənubunda yerləşən Okinava adaları "ölümsüzlər yurdu" adlandırılır. Ada sakinləri sağlamlıqlarına görə tofu pendirinə, şirin kartof və az miqdarda balıqdan ibarət yerli pəhrizə borclu olduqlarını bildirirlər.

Azərbaycan da əhalinin uzunömürlülüyünə görə fərqlənən ölkələrdəndir. Ölkəmizdə uzunömürlü insanlara, əsasən, dağlıq və dağətəyi rayonlarda rast gəlinir. Bunun səbəbi həmin bölgələrdə olan təmiz dağ havası və orqanik məhsullardır. Məlumatlara görə, Azərbaycanda uzunömürlü insanların üstünlük təşkil etdiyi cənub bölgəsi, İsmayıllı, Gədəbəy, Tovuz, Quba rayonlarıdır.

Son illərdə əhalinin siyahıyaalınmasında 90 yaşdan yuxarı insanların ötən əsrlə müqayisədə azaldığı, eyni zamanda 85 yaşdan yuxarı yaşlarda ölüm hallarının çoxaldığı müşahidə olunur. Dövlət Statistika Komitəsindən bildirilib ki, 2024-cü ilin əvvəlinə olan statistikaya əsasən, Azərbaycanda 429400 nəfər 65-69 yaş arasında, 258600 nəfər 70-74 yaş arasında, 115400 nəfər 75-79 yaş arasında, 126900 nəfər isə 80 və yuxarı yaş qrupunda olan şəxslərdir.

→ 12

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 374

QƏRAR

Bakı şəhəri, 3 avqust 2024-cü il

## "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 906-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 906-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 aprel tarixli 43 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Ali təhsil müəssisələrində və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25 iyun tarixli 120 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 564 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adından və preambuladan "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında" sözləri çıxarılsın;

1.2. 2-ci hissədən ", habelə Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsi üzrə" sözləri çıxarılsın;

1.3. 3-cü hissədən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında" və ", Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində" sözləri çıxarılsın;

1.4. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Ayrı-ayrı ixtisaslar üzrə dövlət sifarişi ilə ali təhsil müəssisələrinin magistratura və rezidentura səviyyələrində, habelə Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsi üzrə hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı"nın adından ", habelə Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsi üzrə" sözləri çıxarılsın;

1.5. həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - "Azərbaycan Respublikasında ali təhsil müəssisələrində və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında yeni maliyyələşmə mexanizminin tətbiqi ilə bağlı dövlət sifarişi ilə ali təhsil müəssisələrinin bakalavriat, magistratura, doktorantura (dissertantlıq istisna olmaqla), əsas (baza ali) tibb təhsili və rezidentura səviyyələrində, Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kadr hazırlığının maliyyələşdirilməsi Qaydaları" üzrə:

1.5.1. adından və 1.1-ci bənddən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında" və ", Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində" sözləri çıxarılsın;

1.5.2. 1.2-ci bənddən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasının" sözləri çıxarılsın;

1.5.3. 1.3-cü bənddən ", həm də Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsini" sözləri çıxarılsın;

1.5.4. 1.4-cü bənddən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyası" sözləri çıxarılsın;

1.5.5. 1.5-ci bənddən, 2-ci hissənin dördüncü abzasından, 4.4-cü bəndin birinci cümləsindən, 5.9-cu bənddən və 6-cı hissədən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında" sözləri çıxarılsın;

1.5.6. 4.1-ci bəndin birinci cümləsindən ", Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində" sözləri çıxarılsın;

1.5.7. 4.6-cı bənddən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasına" və "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasının" sözləri çıxarılsın;

1.5.8. 5.2-ci, 5.3-cü bəndlərdən, 5.6-cı bəndin altıncı abzasından və 5.8-ci bəndin üçüncü cümləsindən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyası" sözləri çıxarılsın;

1.5.9. 5.7-ci bəndin üçüncü abzasından "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasından" və "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasına" sözləri, beşinci abzasından isə "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında" sözləri çıxarılsın;

1.5.10. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə ali təhsil müəssisəsi və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyası arasında Nümunəvi Çərçivə Müqaviləsi" üzrə:

1.5.10.1 yuxarı sağ küncdən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında" və ", Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində" sözləri çıxarılsın;

1.5.10.2. adından, preambuladan, 2.2.2-ci və 2.3.3-cü yarımbəndlərdən və 2.3-cü bənddən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyası" sözləri çıxarılsın;

1.5.10.3. 1.1-ci bənddən (hər iki halda) "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında" sözləri çıxarılsın;

1.5.10.4. 2.1-ci və 3.2-ci bəndlərdən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasına" sözləri çıxarılsın;

1.5.10.5. 2.2.1-ci yarımbənddən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasından" sözləri çıxarılsın;

1.5.10.6. 2.4-cü və 3.3-cü bəndlərdən (hər iki halda) "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasının" sözləri çıxarılsın;

1.5.10.7. 5.4-cü bənddən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında" və "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasına"sözləri çıxarılsın;

1.5.10.8. 9.2-ci və 9.3-cü bəndlərdən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında" sözləri çıxarılsın;

1.5.10.9. 10-cu hissədən "və ya Azərbaycan Milli Elmlər Akademiyası" sözləri çıxarılsın.

1.5.11. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Ali təhsil müəssisəsi və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyası ilə dövlət sifarişi ilə təhsil alacaq təhsilalan arasında Nümunəvi Fərdi Müqavilə" üzrə:

1.5.11.1 yuxarı sağ küncdən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında" və ", Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində" sözləri çıxarılsın;

1.5.11.2. adından, preambuladan, 2.1-ci bənddən, 2.3.6-cı yarımbənddən, 3.2-ci, 5.5-ci bəndlərdən və 10-cu hissədən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyası" sözləri çıxarılsın;

1.5.11.3. 1.1-ci bənddən (hər iki halda), 9.2-ci və 9.3-cü bəndlərdən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında" sözləri çıxarılsın;

1.5.11.4. 2.2-ci bənddən (hər iki halda), 2.3.2-ci və 2.3.4-cü yarımbəndlərdən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasının" sözləri çıxarılsın;

1.5.11.5. 2.3.5-ci və 2.3.7-ci yarımbəndlərdən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasına" sözləri çıxarılsın;

1.5.11.6. 2.4-cü bənddən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasından" sözləri çıxarılsın;

1.5.11.7. 3.3-cü və 5.4-cü bəndlərdən "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasını" və "və magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyası" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 dekabr tarixli 489 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 12 (II kitab), maddə 1824 (Cild I) ilə təsdiq edilmiş "Ali və orta ixtisas təhsili müəssisələri tələbələrinin ixtisas üzrə təcrübə keçmə Qaydası"nın 4.5-ci bəndinin üçüncü cümləsindən "və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 375

QƏRAR

Bakı şəhəri, 5 avqust 2024-cü il

## "Taksi sifarişi operatorları tərəfindən malik olduqları informasiya sistemi vasitəsilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin elektron informasiya sisteminə ötürülməli olan aylıq məlumatların siyahısı"nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1033-VIQD nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 dekabr tarixli 2439 nömrəli Fərmanının 2.2.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Taksi sifarişi operatorları tərəfindən malik olduqları informasiya sistemi vasitəsilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin elektron informasiya sisteminə ötürülməli olan aylıq məlumatların siyahısı" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 376

QƏRAR

Bakı şəhəri, 5 avqust 2024-cü il

## Qiymətləndiricinin peşə məsuliyyətinin sığortası üzrə sığorta təminatına və sığorta məbləğinə dair minimum tələblərin müəyyən edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1052-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 dekabr tarixli 2443 nömrəli Fərmanının 2.2.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Qiymətləndirmə fəaliyyəti həyata keçirilərkən qiymətləndiricinin etdiyi səhv və ya yol verdiyi ehtiyatsızlıq, yaxud diqqətsizlik halları əsasında onun fəaliyyəti üzrə "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tələblərin, habelə qiymətləndirmə haqqında müqavilə şərtlərinin pozulması nəticəsində sifarişçiyə və (və ya) üçüncü şəxslərə dəymiş zərərin ödənilməsi qiymətləndiricinin peşə məsuliyyətinin sığortası üzrə sığorta təminatına dair minimum tələbdir.

2. Qiymətləndiricinin peşə məsuliyyətinin sığortası üzrə sığorta məbləğinin minimum həddi 200.000,0 (iki yüz min) manat müəyyən edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Milli Məclisdə İndoneziya parlamentinin nümayəndə heyəti ilə görüş keçirilib

**Avqustun 6-da Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev ölkəmizdə səfərdə olan İndoneziya Respublikası Parlamentinin Nümayəndələr Palatasının İnzibati işlər komitəsinin sədr müavini Nasril Baharın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları Milli Məclisin Sədri Sahibə Qafarovanın adından salamlayan Aparat rəhbəri iki ölkə arasında əlaqələrin tarixi barədə danışıb, münasibətlərin gələcək perspektivlərinə dair fikirlərini səsləndirib.

Görüş zamanı qonaqlara Milli Məclisin və onun Aparatının strukturu, qanunvericilik prosesi, partiyaların təmsilçiliyi, həmçinin parlament diplomatiyasının gücləndirilməsi sahəsində görülən işlər barədə ətraflı məlumat verilib.

Aparat rəhbəri qeyd edib ki, Azərbaycan digər sahələrdə olduğu kimi, İndoneziya ilə parlamentlərarası əlaqələrin inkişaf etdirilməsində də maraqlıdır. İkitərəfli əlaqələrin inkişafında müxtəlif dövrlərdə parlament sədrlərinin, həmçinin işçi qruplarının üzvlərinin qarşılıqlı səfərlərinin, aparılan danışıqların və müntəzəm görüşlərin əhəmiyyəti vurğulanıb, iki ölkənin parlamentlərinin beynəlxalq təşkilatlardakı səmərəli əməkdaşlığından məmnuniyyət ifadə olunub.

Göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirən İndoneziya Respublikası Parlamentinin Nümayəndələr Palatasının İnzibati işlər komitəsinin sədr müavini Nasril Bahar Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edib. Ölkələrimiz arasında dostluq münasibətlərindən danışan qonaq, iki ölkənin qanunverici orqanları arasında əməkdaşlığın vacibliyini vurğulayıb, qarşılıqlı təcrübə mübadiləsinin və mütəmadi səfərlərin əhəmiyyətini qeyd edib.

Söhbət zamanı Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev qonaqları maraqlandıran sualları cavablandırıb, parlamentlərarası əməkdaşlığın müxtəlif istiqamətləri və gələcək inkişafı barədə fikirlərini bölüşüb.

Görüşdə Milli Məclis Aparatı rəhbərinin müavinləri Yaşar Əməşov, Rüstəm Mahmudov, Parlament Aparatının struktur bölmələrinin rəhbərləri və digər rəsmi şəxslər iştirak ediblər.

Görüşdən sonra qonaqlar parlamentin inzibati binasının foyesində yaradılmış "Zəfər guşəsi" ilə tanış olublar. Milli Məclis Aparatı rəhbərinin müavini Rüstəm Mahmudov Azərbaycanın 44 günlük Vətən müharibəsindəki tarixi qələbəsi barədə qonaqlara ətraflı məlumat verib.

Sonra parlamentin plenar iclas zalı ilə tanış olan qonaqlara Milli Məclisin fəaliyyəti, deputatlar üçün plenar iclas zalında yaradılmış iş şəraiti, qanunvericilik prosesinin həyata keçirilməsi prosedurları haqqında geniş məlumat verilib.

Qonaqlar parlamentin inzibati binasının foyesində ucaldılmış müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin abidəsinin və "Zəfər guşəsi"nin önündə xatirə şəkli çəkdiriblər.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Baş prokuror Balakən rayonunda vətəndaşların müraciətlərini dinləyib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həlli üçün müvafiq tədbirlər görülür.**



Baş Prokurorluğun Mətbuat xidmətindən verilən məlumata görə, avqustun 6-da baş prokuror Kamran Əliyev Balakən Rayon Prokurorluğunun inzibati binasında Balakən, Zaqatala, Qax rayonu və digər bölgələrdən olan vətəndaşların müraciətlərini dinləyib.

Qəbuldan əvvəl baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla anıb.

Görüşdə iştirak edən 28 vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb, eləcə də prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair təklifləri dinləyib.

# Goranboyda seçkiqabağı yüksək əhvali-ruhiyyə var

**96 saylı Goranboy-Naftalan seçki dairəsində sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkilərinə yüksək səviyyədə hazırlıq işləri görülür.**



Dairə seçki komissiyasının sədri Arif Abbasovla sönbət zamanı məlum oldu ki, parlament seçkilərinin demokratik, şəffaf və ədalətli keçirilməsi üçün bütün məntəqələrdə lazımi şərait yaradılıb. Məntəqələrin hamısında təmir işləri aparılıb, zəruri metodiki vəsaitlərlə, elektrik generatorları, rabitə avadanlıqları, yanğın təhlükəsizliyi üçün avadanlıqlarla təmin edilib. Seçicilərin öz mövqelərini sərbəst şəkildə ifadə etmələri üçün lazımi sayda kabinələr qoyulub. Məntəqə seçki komissiyalarının sədrləri, katibləri və üzvləri, habelə seçkini izləyəcək müşahidəçilər üçün yerlər ayrılmışdır.

Dairə seçki komissiyasının sədri onu da bildirdi ki, Mərkəzi Seçki Komissiyasının xətti ilə məntəqə seçki komissiyaları üzvlərinin maarifləndirilməsi və seçki biliklərinin artırılması məqsədilə treninq və ixtisaslaşdırılmış kurslar keçirilmişdir. Bundan başqa, seçkiqabağı təşviqatın aparılması üçün müvafiq yerlər ayrılmış, seçki məntəqələrinin ərazisində seçkiqabağı təşviqat materiallarının yerləşdirilməsi üçün lövhələr qoyulmuşdur. Seçkilərdə fəallığın artırılması üçün Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanmış çağırış plakatları əhalinin sıx toplaşdığı yerlərdən asılmışdır.

Seçki dairəsini əhatə edən 59 seçki məntəqəsində 54 min 588 nəfər səs verməlidir. Seçkilərin şəffaf keçirilməsi üçün 10 məntəqədə veb-kamera quraşdırılmışdır. Bundan başqa, seçkiləri müşayiət etməsi üçün 510 nəfər müşahidəçi qeydiyyatdan keçmişdir. Dairəni əhatə edən məntəqələrdə 221 nəfər ilk dəfə səs verənlər və yaşı 100-ü keçmiş 29 nəfər ahıl seçici qeydiyyata alınmışdır.

Dairənin 4 saylı seçki məntəqəsində hazırlığın vəziyyəti ilə tanış olduq. Məntəqə sədri Əhməd Hicran-Əhməd dedi ki, sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkilərində 1376 nəfər səs verməlidir. Seçkilərin şəffaf və demokratik keçirilməsi və seçicilərin istədikləri namizədə sərbəst şəkildə, heç bir təzyiq olmadan səs vermələri üçün hər cür şərait yaradılmış və proses davam etməkdədir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***




❖ Bakı COP29-a hazırlaşır

# Paytaxtın "yaşıl mərkəzi"



1500-dən çox bitki növünün olduğu Mərkəzi Nəbatət Bağı Bakının həm də "hava balonu"dur

**Bu il BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına evsahibliyi edəcək Azərbaycan qlobal istiləşmə fonunda yaranan və yaranacaq fəsadların qarşısını almaq üçün mühüm tədbirlər həyata keçirir.**

COP29-a hazırlıq mərhələsində də bunun canlı şahidi oluruq. Prezident İlham Əliyevin 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etməsi ölkə əhalisinin bu istiqamətdə səylərini birləşdirmək, hər kəsin yaşıl dünya naminə əlindən gələni əsirgəməməsi üçün əla fürsətdir.

Regionlarımızla yanaşı, Abşeron yarımadasında yerləşən paytaxt Bakıda da son illərdə görülən yaşıllaşdırma işləri xüsusilə diqqət çəkir. Təbii landşaft qorunmaqla yeni parklar, meşə massivləri, yaşıllıq zonaları salınır, mövcud olanlar isə əsaslı təmirdən sonra yenidən istifadəyə verilir. Bu istiqamətdə görülən işlər, Bakının yaşıllaşdırılması əhalinin asudə vaxtını səmərəli keçirməsi ilə yanaşı, həm də sağlam gələcəyə mühüm töhfədir.

### Prezidentin nəzarəti ilə...

Yolumuz Bakının yaşıl ünvanlarından olan, Abşeronun, xüsusilə Bakının "hava balonu" adlanan Mərkəzi Nəbatət Bağınadır. Nəbatət bağı Azərbaycan florasında mövcud olan bitki növlərinin və genefondunun qorunması məqsədilə 1934-cü ildə elmi-tədqiqat müəssisəsi olaraq fəaliyyətə başlayıb. Son illərdə baxımsızlıq səbəbindən bu bağdakı bitkilər ciddi ziyan görmüş, həmçinin ərazidə bir çox qanunsuz tikilinin mövcudluğu onu missiyasından xeyli uzaqlaşdırmışdı.

2022-ci il yanvarın 11-də Nazirlər Kabinetinin qərarı ilə Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində "Mərkəzi Nəbatət Bağı" publik hüquqi şəxs yaradıldı. Prezident İlham Əliyevin "Mərkəzi Nəbatət Bağının ərazisində abadlıq, yenidənqurma və tikinti işlərinin həyata keçirilməsi ilə əlaqədar tədbirlər haqqında" 5 may 2022-ci il tarixli sərəncamı ilə isə bağ yeni inkişaf dövrünə qədəm qoydu. Sərəncama uyğun olaraq, Mərkəzi Nəbatət Bağında yerli və xarici mütəxəssislər tərəfindən hazırlanmış yeni, müasir layihəyə əsasən, geniş təmir-yenidənqurma işləri davam edir. 39 hektardan 46 hektara çatdırılan bağın ərazisində yerləşən 30-dan çox müxtəlif təyinatlı qanunsuz tikili söküIüb. Layihəyə əsasən, bağda yeni, müxtəlif cinsli ağacların əkilməsi, müasir dizaynlı guşələrin yaradılması nəzərdə tutulur.

Nəbatət bağında bütün işlər Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın nəzarəti, diqqəti və qayğısı ilə həyata keçirilir. Görülən işlərlə birbaşa yerində tanış olmaq üçün ötən ilin iyul ayında dövlət başçısı və birinci xanımın Nəbatət bağına baş çəkməsi bir daha göstərir ki, Bakının abadlaşdırılması, yaşıllaşdırılması, dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi ölkə rəhbərinin birbaşa diqqət mərkəzindədir.

Prezident İlham Əliyev bu ilin iyun ayında yenidən Mərkəzi Nəbatət Bağında görülən işlərlə tanış olub, həmçinin ərazidə tikilən Elm və Təhsil Nazirliyinin Botanika İnstitutunun yeni binasının açılışında iştirak edib. Yenidənqurma zamanı institutun 1935-1938-ci illərdə inşa edilən inzibati binası qəzalı vəziyyətdə olduğu üçün sökülərək yeni bina tikilib. Beş mərtəbədən ibarət olan binanın ümumi sahəsi 3700 kvadratmetrdir.
















### Mehriban Əliyevanın təşəbbüsü ilə iki ildə 70 min bitki əkilib

Mərkəzi Nəbatət Bağının ərazisini gəzdikcə görülən geniş quruculuq, təmir-bərpa işlərinin şahidi oluruq. Nəbatət bağının 1937-ci ildə tikilmiş və tamamilə yararsız hala düşmüş 900 kvadratmetrlik ayparaşəkilli inzibati binası da əsaslı təmirdən sonra istifadəyə verilib. Eyni zamanda ərazidə müasir tipli oranjereyanın da tikintisi davam edir. 15 metr hündürlüyündə olan oranjereyanın daxilində yerdən 3 metr hündürlüyündə körpü və hər iki qapını birləşdirən piyada yolu var. Körpü bu gözəllikləri bir də daha yüksəkdən izləmək şansı yaradacaq. Verilən məlumatlara görə, oranjereya müasir tipli isitmə, soyutma və nəmləndirmə avadanlıqları ilə təchiz olunacaq. Üzərindəki şüşə sisteminin 40 ədədi avtomatik açılaraq mövsümə uyğun havalandırmanı təmin edəcək.

Parkın ərazisində istirahət və gəzinti guşələri yaradılır, avtodayanacaq, fontan, süni göllər salınır. Valideynlərin uşaqları ilə regionlara getmədən paytaxt Bakıda təbiət qoynunda asudə vaxt keçirə biləcəyi gözəl məkanda piknik üçün də şərait yaradılacaq ki, bu da ziyarətçilərin Mərkəzi Nəbatət Bağında daha rahat və uzun vaxt keçirmələrinə imkan verəcək.

Mərkəzi Nəbatət Bağı ərazisində görülən işlərlə tanış olarkən bizi müşayiət edən MNB-nin sədr müavini Natiq Allahverdiyev bildirir ki, 2022-ci ildən etibarən bağın yeni inkişaf dönəmi başlayıb. Prezidentin sərəncamlarına uyğun olaraq bağda geniş təmir-bərpa işləri davam edir: "Hədəfimiz Mərkəzi Nəbatət Bağını nəinki coğrafiyada, dünyada bitki biomüxtəlifliyinin mərkəzinə çevirməkdir. Mərkəzi Nəbatət Bağı elmi-tədqiqat müəssisəsi kimi inkişaf etməlidir. "Yaşıl dünya naminə həmrəylik ili"nə verilən ən böyük töhfə həmin sərəncamdan irəli gələn işlərdir və biz də buna xidmət edirik. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü və qayğısı bərpa işlərinə böyük təkan verib. Bağda 2022-ci ildən bəri yeni 100 növdən olan 70 min bitki əkilib".

Ərazidə bütün işlərin bitkilərə heç bir zərər yetirmədən həyata keçirildiyini qeyd edən N.Allahverdiyev deyir ki, Mərkəzi Nəbatət Bağındakı bitkilərin sənədləşməsi həyata keçirilib. Bütün bitkilərin bioloji inkişafı yüksək səviyyədədir və onların artırılması istiqamətində də işlər görülür. Bütövlükdə 46 hektarlıq bağda 1500-dən çox bitki növü var.

Nəbatət bağında təmir-bərpa işlərinin yekunlaşmaq üzrə olduğunu bildirən həmsöhbətimiz vurğulayır ki, ərazidə köhnə, yararsız su anbarının yerində 2 min ton həcmə malik yenisi tikilib ki, bu da ağacların suvarılmasında istifadə olunacaq.

### Modern yeniliklər

Müşahidələrimiz zamanı bağda bəzi köhnə tikililərin restavrasiya edilib qaldığının da şahidi olduq. Məlumat verildi ki, həmin tikililər tarixiliyin qorunması baxımından saxlanılıb. Məsələn, ərazidə 1934-cü ildə salınmış hasar restavrasiyadan sonra saxlanılıb. Eyni zamanda hazırda Mərkəzi Nəbatət Bağının yeni, geniş girişi salınsa da, köhnə girişi də bərpa olunaraq qalıb.

Bağdakı bitkilər kolleksiyalar şəklindədir və bu proses bu gün də davam edir. Bu barədə bizə biologiya üzrə fəlsəfə doktoru, Mərkəzi Nəbatət Bağının laboratoriya müdiri Asif Mehralıyev məlumat verir. "Ümumi baxanda əksər bitkiləri bir-birinə bənzətmək olar, amma bağda 1500-dən çox bitki növü var. Növlərin sayının 2000-ə çatdırılması planlaşdırılır. Təsəvvür edin, Abşeron yarımadasında 700 növ bitki var, amma bu, 46 hektarlıq ərazidə 1500-dən yuxarıdır" deyən alim əlavə edir ki, bağdakı bitkilər kolleksiyalar şəklində formalaşıb. Məsələn, dərman və qida əhəmiyyətli, sarmaşan, nadir, nəsli kəsilməkdə olan bitkilər, qızılgül kolleksiyası və s. Bu, bitkilərin inkişafı baxımından önəmli faktordur.

A.Mehralıyev Nəbatət bağında 5 laboratoriyanın - Qida və dərman bitkilərinin biokimyası, Oduncaqlı bitkilər, Tropik və subtropik bitkilər, Dekorativ bitkilərin introduksiyası və seleksiyası və Bitki ekologiyası laboratoriyalarının mövcud olduğunu deyir və onların iş prinsipindən söz açır.

Bağı gəzdikcə bitkilərin tanıdılması məqsədilə onların yanında adları, vətənləri və fotolarının yer aldığı məlumatları da oxuyuruq. N.Allahverdiyev qeyd edir ki, hər hissədə ümumi kolleksiyaya daxil olan bitkilərin adları, onlar haqqında məlumat yer alan lövhələr yerləşdiriləcək ki, ziyarətçilər QR kodu oxudaraq istədikləri informasiyanı ala bilsinlər.

Ərazidə istixanaların salındığını da müşahidə etdik. Bildirildi ki, bu istixanalar yeni növ bitkilərin böyüdülüb əraziyə köçürülməsi məqsədinə xidmət edir. Bağda həmçinin bitkilərin dibinə zərər vermədən 3-4 metr dərinlikdə quyular qazılır ki, bu da torfun toplanması üçündür. Torf orqanik torpaq növü olmaqla yanaşı, yanacaq, gübrə və digər məqsədlərlə istifadə oluna bilir.

Mərkəzi Nəbatət Bağında müşahidə etdiyimiz sürətli təmir-bərpa işləri qısa zamanda bağın tam hazır vəziyyətdə qapılarını ziyarətçilərə açacağından xəbər verir.

Günorta saatları olmasına baxmayaraq, Günəşin yandırıcı şüalarından bizi qoruyan yamyaşıl ağacların kölgəsi adama ayrı bir məmnunluq verir. Təsəvvür edin, sakitlik, şəhərin mərkəzində təbiətlə iç-içə, bol oksigen...

Dünya yaranandan təbiət daim özünü tənzimləyir, bərpa edir, yenilənir. Amma ona vurulan zərbəni də bağışlamır. Beləliklə, artan təbii fəlakətlər, müxtəlif təbiət hadisələri ilə üzüzə qalan bəşər övladı nəticədə böyük zərərlər görür. Elə bu fəsadların qarşısının alınması, iqlim dəyişmələrinin təsirlərini minimuma endirmək üçün, "yaşıl dünya" naminə hər kəs təbiətə özündən bir töhfə verməlidir. Bakını "yaşıl mərkəz"ə çevirmək üçün yeni yaşıllıqlar salınmalı, floramız qorunmalı və genişləndirilməlidir.

Bu baxımdan tarixən Abşeronun yaşıllaşmasında xüsusi rol oynayan, indi isə yenilənən Mərkəzi Nəbatət Bağı da öz əbədi missiyasını davam etdirəcək.

*Əsmər QARDAŞXANOVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*







# Yaşıllıq artırılmalı, abadlıq genişlənməlidir

## Paytaxtda bütün imkanlar buna səfərbər edilib



**Son vaxtlarda paytaxtda sanitar-təmizlik məsələlərinin vəziyyəti ilə bağlı ən problemli ərazilərdən biri Binəqədi rayonudur.**

Rayonda sanitar-təmizlik məsələləri istiqamətində problemlərin aradan qaldırılması və Bakı şəhərində həyata keçirilən bərk məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsi layihəsinə rayonun qoşulması ilə bağlı Binəqədi RİH-də Bakı Şəhər və Binəqədi Rayon İcra hakimiyyətlərinin rəhbərliyi, rayonun kommunal və təsərrüfat xidmətlərinin, bələdiyyələrin rəhbərlərinin iştirakı ilə geniş müşavirə keçirilib.

Müşavirədə çıxış edən Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov paytaxtda 5 il ərzində həyata keçirilən layihə barədə danışaraq bildirib ki, ölkə başçısının diqqət və qayğısı nəticəsində son illərdə kommunal xidmətlərin maddi-texniki bazası möhkəmlənib. Vurğulandı ki, cənab Prezidentin həyata keçirdiyi siyasət sayəsində əhalinin həyat səviyyəsi artıb və bununla əlaqədar insanlar öz şəhərlərinə daha çox qayğı ilə yanaşırlar. Nəticədə bu gün Bakı şəhərinin təmizliyi göz oxşayır.

Qeyd edilib ki, hazırda Binəqədi rayonunda RİH başçısı tərəfindən həyata keçirilən abadlıq və təmizliklə bağlı müsbət işlər, pozitiv dəyişikliklər müşahidə edilsə də, ümumilikdə sanitar-təmizlik məsələləri hələ də aşağı səviyyədə qalmaqdadır. Bununla əlaqədar rayon rəhbərliyi və kommunal xidmətlərin işi ciddi tənqid olunub. Rayonda müşahidə olunan problemləri nəzərə alaraq bərk məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsi layihəsinin Binəqədi rayonu ərazisində keçirilməsi qərara alınıb.

Müşavirədə rayonun qəsəbə və inzibati ərazi dairəsi üzrə nümayəndələrinin hesabatları dinlənilib, onlara ciddi xəbərdarlıq edilib və cavabdeh ərazidə problemlərin aradan qaldırılması ilə bağlı konkret vaxt verilib.

Qeyd edilib ki, son illərdə kommunal sahədə həyata keçirilən tədbirlər nəticəsində paytaxtımız Bakı şəhəri çox təmiz və abad şəhərə çevrilib və bu layihə paytaxtın 8 rayonunda davam etdirilir. Yaxın günlərdə sözügedən layihənin icrasına Binəqədi rayonunda da start veriləcək. Binəqədi rayonunda maarifləndirmə işlərində digər rayonlarda olduğu kimi "Regional İnkişaf" İctimai Birliyinin könüllüləri də iştirak edəcəklər.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*



# İşğaldan azad edilmiş ərazilərdə "Yaşıl Kart" sığorta xidmətindən istifadə mümkün olacaq

**İşğaldan azad edilmiş ərazilərdə beynəlxalq "Yaşıl Kart" sığorta xidmətindən istifadə mümkün olacaq. Bu barədə İcbari Sığorta Bürosundan bildirilib.**

Qeyd edilib ki, 2016-cı ildən etibarən İcbari Sığorta Bürosu "Yaşıl Kart" sisteminin idarəedici təşkilatı olan Beynəlxalq Bürolar Şurasına üzv olub və Azərbaycanda "Yaşıl Kart" sığortası tətbiq edilməyə başlayıb. Üzvlüyün ilk illərində Azərbaycanın işğal edilmiş ərazilərində "Yaşıl Kart" sisteminin tətbiqi mümkün olmadığı üçün "Yaşıl Kart" sığorta təminatı Azərbaycanın digər coğrafi əraziləri ilə məhdudlaşdırılmışdı.

Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bərpa edildikdən sonra İcbari Sığorta Bürosu tərəfindən "Yaşıl Kart" təminatı üzrə Azərbaycana münasibətdə coğrafi ərazi məhdudiyyətinin aradan qaldırılması ilə bağlı Beynəlxalq Bürolar Şurasına müraciətlər ünvanlanıb. Aparılan qarşılıqlı əməkdaşlıq və səylər nəticəsində ölkəmizdə bu xidmətin verilməsi üçün tətbiq edilən ərazi məhdudiyyətinin aradan qaldırılmasına nail olunub.

Belə ki, İngiltərənin London şəhərində keçirilmiş BŞ-nin 58-ci Baş Assambleyasının qərarı ilə "Yaşıl Kart" sisteminin "Coğrafi əhatə dairəsinin siyahısı və avtomobil sığortası direktivi"nin ərazi tətbiqinə dair sənədləri yenilənərək təsdiqlənib. Bununla da Azərbaycanla əlaqəli coğrafi ərazi məhdudiyyəti aradan qaldırılıb və İcbari Sığorta Bürosunun coğrafi səlahiyyəti ölkənin Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınan ərazi bütövlüyü çərçivəsində yenidən müəyyən olunub. Həmçinin 18 iyul 2024-cü il tarixdə Beynəlxalq Bürolar Şurası Katibliyindən bütün üzv bürolara "Yaşıl Kart" modellərində Azərbaycanla bağlı düzəlişlərin edilməsi üçün bildirişlər göndərilib.




# Gənc müəllimlər üçün "COP29 İqlim Dəyişikliyi üzrə Yay Düşərgəsi" layihəsinin açılış mərasimi olub

**Avqustun 6-da ADA Universitetində gənc müəllimlər üçün "COP29 İqlim Dəyişikliyi üzrə Yay Düşərgəsi" layihəsinin açılış mərasimi keçirilib.**



AZƏRTAC xəbər verir ki, ADA Universitetinin prorektoru Fariz İsmayılzadənin moderatorluğu ilə keçirilən tədbirdə COP29-un müəyyən edilmiş prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, COP29-un baş danışıqçısı, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, COP29-un İqlim üzrə yüksək səviyyəli çempionu, VI çağırış Milli Məclisin deputatı Nigar Arpadarai, BMT-nin İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsinin səlahiyyətlərini icra edən Alessandra Rokkasalvo, COP29-un İqlim üzrə gənclər çempionu, Qoşulmama Hərəkatı Gənclər Təşkilatının sədri Leyla Həsənova, UNICEF-in Azərbaycandakı nümayəndəsi Saca Faruq Abdullah, eyni zamanda videoformatda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stil çıxış edib.







Ekologiya və Təbii Sərvətlər, Gənclər və İdman nazirlikləri, BMT İnkişaf Proqramının Azərbaycandakı ofisi, UNICEF-in Azərbaycandakı nümayəndəliyi, ADA Universiteti, Qoşulmama Hərəkatı Gənclər Təşkilatı, UNESCO, IRENA (International Renewable Energy Agency), FEE (Foundation for Environmental Education), OCE (Office for Climate Education), Teach for All (A Global Network) qlobal şəbəkəsinin tərəfdaşlığı və dəstəyi ilə keçirilən beynəlxalq səviyyəli düşərgədə ümumilikdə 75 gənc müəllim iştirak edir ki, onların 54-ü xarici ölkələri, 21-i isə Azərbaycanı təmsil edir. Avqustun 9-dək davam edəcək düşərgədə gənc müəllimlər üçün iqlim dəyişmələri və ümumilikdə COP prosesi haqqında məlumatlılığın artırılması məqsədilə silsilə təlimlər keçiriləcək.

COP29-a gedən yolda müəyyən edilmiş hədəflərə nail olmaq üçün həyata keçirilən təşəbbüslərdən biri də iqlim dəyişmələri üzrə yay düşərgəsi-təlimlərin təşkilidir. Təlimlərin keçirilməsində məqsəd iqlim dəyişmələri ilə bağlı gənc müəllimlərin maarifləndirilməsi və təhsilə inteqrasiya imkanlarının tətbiqi üçün müvafiq bilik və bacarıqlarla təmin olunmasıdır.

Xatırladaq ki, COP29-un İqlim üzrə gənclər çempionunun fəaliyyət prioritetlərindən biri iqlim fəaliyyəti ilə bağlı yerli, regional və qlobal proseslərdə gənclərin iştirakının təmin olunmasına yönəlmiş tədbirlərin həyata keçirilməsidir. İqlim dəyişmələri və bu sahədə göstərilən səylər, COP prosesi haqqında gənclərin maarifləndirilməsi təcrübəsinin genişləndirilməsi də bu fəaliyyətin vacib hissəsidir.

# Diaspor Gənclərinin Yay Düşərgəsində azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işlərindən danışılıb

**"Gənclər Yaşıl Dünya Naminə" Diaspor Gənclərinin V Yay Düşərgəsində növbəti panel müzakirə işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işlərinə həsr olunub.**









Komitədən AZƏRTAC-a bildirilib ki, panel Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Elşad Əliyevin moderatorluğu, Şuşa rayonunda Prezidentin xüsusi nümayəndəsi Aydın Kərimovun, Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyevin və Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin rəsmisi Hüseyn Quliyevin iştirakı ilə keçirilib.

Panelin əsas müzakirə mövzuları "Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında son 4 il ərzində görülmüş işlər" və "İşğal müddətində erməni terroru nəticəsində maddi obyektlərə, tarixi abidələrə dəyən zərərin dünya ictimaiyyətinə çatdırılmasında Azərbaycan diasporunun rolu" olub.

Əvvəlcə düşərgə iştirakçılarına 30 ilə yaxın davam edən işğal müddətində törədilən erməni vandalizmi haqqında məlumat verən çıxışçılar azad olunmuş ərazilərdə reinteqrasiya tədbirləri, tarixi və mədəniyyət abidələrinin bərpası, sosial infrastrukturun tikintisi, həmin ərazilərimizin iqtisadi potensialını gənclərin diqqətinə çatdırıblar. Vurğulanıb ki, işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış prosesi Azərbaycanın 2030-cu ilədək qarşıya qoyulmuş beş Milli Prioritetindən biri kimi müəyyən olunub. Bu Milli Prioritetlərə əsaslanan "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrasını təmin etmək məqsədilə Böyük Qayıdışa dair I Dövlət Proqramı təsdiqlənib. Həmin proqram çərçivəsində hazırda genişmiqyaslı bərpa-quruculuq işləri aparılır, müasir infrastruktur formalaşdırılır, dayanıqlı məskunlaşma və iqtisadi reinteqrasiya üçün zəruri şərait yaradılır.

Həmçinin qeyd olunub ki, Azərbaycan Prezidentinin müvafiq sərəncamı ilə 2020-ci ilin noyabrında Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə Əlaqələndirmə Qərargahı yaradılıb və bu, işlərin daha sürətli şəkildə həyata keçirilməsinə xidmət edir.

Bununla yanaşı, paneldə işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə 2021-ci ilin yanvarında yaradılmış Qarabağ Dirçəliş Fondunun fəaliyyətindən söhbət açılıb.

Panel işğal müddətində erməni terroru nəticəsində maddi obyektlərə, tarixi abidələrə dəyən zərərin dünya ictimaiyyətinə çatdırılmasında Azərbaycan diasporunun rolu və digər mövzularda müzakirələrlə davam edib.

Sonda Qarabağda icrası davam edən bərpa-quruculuq işləri ilə bağlı videoçarx nümayiş olunub.

# Diaspor Gənclərinin V Yay Düşərgəsində Qərbi azərbaycanlılarla görüş

**"Gənclər Yaşıl Dünya Naminə" Diaspor Gənclərinin V Yay Düşərgəsində növbəti görüşün mövzusu Qərbi Azərbaycana həsr olunub.**

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-ın bölgə müxbirinə verilən məlumata görə, görüşdə Qərbi Azərbaycan İcmasının Aparatının rəhbəri Qalib Qasımov, icmanın əməkdaşları Sənan Əhməd və Anar İrzaquliyev, tarix elmləri doktoru, AMEA-nın Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə elmləri doktoru, dosent Əfşan Şəfiyeva iştirak edib. Görüş Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşı Esmira Xəlilovanın moderatorluğu ilə keçirilib.

Tədbirdə "Qərbi Azərbaycana yaxından baxış" adlı sənədli film nümayiş olunub, Qərbi Azərbaycanın tarixi-memarlıq abidələrini, coğrafiyasını, təbii gözəlliklərini əks etdirən fotolar, Qərbi Azərbaycanın tarixi, dəyişdirilmiş toponimləri haqqında təqdimat göstərilib.

Qərbi Azərbaycan İcmasının Aparatının rəhbəri Qalib Qasımov icmanın fəaliyyəti, Qayıdış Konsepsiyası barədə çıxış edib.







Çıxışçılar tarixi Azərbaycan torpağında, indiki Ermənistan ərazisində min illər boyu yaşayan soydaşlarımızın etnik mövcudluğuna son qoyulmasının və onların mədəni irsinin məhv edilməsinin ermənilərin dövlət siyasəti olduğunu bildiriblər. Qeyd olunub ki, 1988-ci ildəki sonuncu etnik təmizləmə nəticəsində azərbaycanlılar dədə-baba yurdlarından tamamilə çıxarılıblar.

Görüşdə xalqımızın Qərbi Azərbaycandakı zəngin tarixi-mədəni irsinin öyrənilməsi, təbliği, indiki Ermənistan ərazisindən kütləvi şəkildə deportasiya olunmuş azərbaycanlıların və onların varislərinin hüquqlarının beynəlxalq müstəvidə bərpası, həmin insanların öz ata-baba yurdlarına qayıdışının təmini və birgəyaşayışa nail olunması məqsədilə Qərbi Azərbaycan İcmasının yaradıldığı qeyd edilib. İştirakçılar ölkə başçısının 2022-ci ilin dekabr ayında icmanın inzibati binasında Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşünü məmnunluqla xatırlayaraq, Qərbi azərbaycanlıların ən qısa müddətdə öz tarixi torpaqlarına qayıdacaqlarına əminliklərini ifadə ediblər.

Tədbirdə Qərbi Azərbaycanın tarixinin, mədəniyyətinin və həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında Azərbaycan diasporunun rolundan bəhs olunub. Gənclərin bu işdə fəal olmasının vacibliyi vurğulanıb, tövsiyələr səsləndirilib.

Diaspor gəncləri onları maraqlandıran sualları ünvanlayıb, yaşadıqları ölkələrdə Qərbi Azərbaycan mövzusunda öz üzərlərinə düşənləri edəcəklərini söyləyiblər.

Sonda ən yaxşı sualların müəlliflərinə kiçik hədiyyələr təqdim olunub.

# Gürcüstan qəzetində Diaspor Gənclərinin V Yay Düşərgəsi barədə məqalə dərc edilib

**Gürcüstanın nüfuzlu "Sakartvelos Respublika" qəzetində Laçında keçirilən Diaspor Gənclərinin V Yay Düşərgəsi barədə məqalə dərc olunub.**



AZƏRTAC xəbər verir ki, "Gənclər yaşıl dünya naminə" sərlövhəli məqalədə düşərgənin Dövlət Komitəsinin "Mədəni irsimizin təbliği" layihəsi çərçivəsində reallaşdığı bildirilib.

Qeyd edilib ki, müxtəlif ölkələrdən olan düşərgə iştirakçıları əvvəlcə Bakıda Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını, həmçinin Birinci və İkinci Şəhidlər xiyabanlarında Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə şəhid olan Vətən övladlarının xatirələrini ehtiramla anıblar.

Məqalədə avqustun 2-də Laçında düşərgənin rəsmi açılış mərasimindən də bəhs olunub.

Həmçinin diqqətə çatdırılıb ki, avqustun 7-dək davam edəcək düşərgəyə 60 ölkədən gələn 18-29 yaş arasında 115 gənc, o cümlədən azərbaycanlılar və ölkəmizə dost münasibət bəsləyən digər xalqların nümayəndələri qatılıblar.

Düşərgə iştirakçılarının bir həftə ərzində Laçının, eləcə də Qarabağın tarixi, mədəni abidələri ilə tanış olacaqları, şəhid ailələrinin üzvləri və qəhrəman qazilərimiz, həmçinin müxtəlif sahələr üzrə ekspertlər ilə görüşəcəkləri, maraqlı panel və seminarlarda, eləcə də əyləncəli və intellektual oyunlarda iştirak etdikləri vurğulanıb.

Qeyd edilib ki, yay düşərgələri xaricdəki gənc azərbaycanlıların ölkəmizlə bağlarının daha da möhkəmləndirilməsi, Azərbaycanı uğurla təmsil etmək bacarıqlarının inkişaf etdirilməsi, şəbəkələşmələri, yeni dostlar qazanmaları üçün gözəl fürsətdir.




# Qazaxıstan Azərbaycanla "yaşıl enerji"nin inkişafı və nəqli sahəsində qlobal layihəni həyata keçirməyə başlayır

**Qazaxıstan Azərbaycan və Özbəkistanla "yaşıl enerji"nin inkişafı və nəqli sahəsində qlobal layihəni həyata keçirməyə başlayır.**



AZƏRTAC xəbər verir ki, bu barədə Astanada Mərkəzi Asiya dövlətləri energetika nazirlərinin birinci görüşündə Qazaxıstan Respublikasının energetika naziri Almasadam Satkaliyev məlumat verib. Nazirin sözlərinə görə, Mərkəzi Asiya ölkələri energetika resurslarının tədarükündə qlobal pozulmalar, neft və qaz qiymətlərində qeyri-sabitlik və başqa amilləri meydana gətirən çağırışlarla üzləşir.

Almasadam Satkaliyev təklif irəli sürüb: "Enerji təchizatının təhlükəsizliyini təmin etmək üçün bu çağırışları qabaqcadan görmək və idarə etmək mexanizmlərini hazırlamaq, habelə ölkələrimiz arasında əməkdaşlığı gücləndirmək lazımdır".

O, həmçinin həmkarlarını enerji resursları üzrə ticarət imkanlarını genişləndirmək yolu ilə əməkdaşlığı gücləndirməyə, karbon neytrallığına nail olmağa və enerjinin mərhələli keçidini, habelə aşağı karbon sektorunun inkişafını təmin etməklə əlaqələri möhkəmləndirməyə çağırıb.

Qazaxıstanlı nazir qeyd edib: "Bundan əlavə, Mərkəzi Asiya ölkələrində müasir enerji infrastrukturunun inkişafını stimullaşdırmaq üçün investisiyaların hərtərəfli cəlb edilməsi və enerji sənayesində birgə iri texnoloji layihələrin həyata keçirilməsi regional əməkdaşlığın inkişafında mühüm amildir".

A.Satkaliyevin sözlərinə görə, qaz sənayesində birgə layihələrin həyata keçirilməsi imkanları da geniş şəkildə araşdırılmalıdır.

Xatırladaq ki, iclasda Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Özbəkistanın energetika nazirləri və Azərbaycanın energetika nazirinin müavini Orxan Zeynalov iştirak ediblər.

# Tərəflər arasında gələcək əməkdaşlıq imkanları müzakirə edilib



**Özbəkistanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Bahrom Aşrafxanov ilə ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev arasında görüş keçirilib.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə noyabrda Azərbaycanda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq tədbirləri ətrafında fikir mübadiləsi aparılıb.

Eyni zamanda iki ölkə arasında ətraf mühitin mühafizəsi sahəsində gələcək əməkdaşlıq imkanları müzakirə edilib.

# *ETSN rəsmisi:* "COP29-da iqlim fəaliyyəti üçün bütün maraqlı tərəfləri tam səfərbər etmək prioritetdir"

**"Bu ilin noyabr ayında Azərbaycanda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iqlim fəaliyyəti üçün bütün maraqlı tərəfləri tam səfərbər etmək də prioritetdir".**




Bunu "Report"a açıqlamasında Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Ekoloji siyasət şöbəsinin müdiri Faiq Mütəllimov deyib.

Onun sözlərinə görə, iqlim dəyişikliyi ilə mübarizədə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin hər birinin özünəməxsus rolu var: "İnkişaf etmiş ölkələr iqtisadi və sənaye baxımdan güclü olduqları üçün tarixi baxımdan daha çox istixana qazı emissiyasına səbəb olublar. Buna görə də onların iqlim dəyişikliyi ilə mübarizədə daha çox məsuliyyəti var və texnoloji yeniliklər, maliyyə dəstəyi, infrastruktur inkişafı ilə liderlik etməlidirlər. Bütün ölkələr Paris Sazişinə və COP28-də qəbul olunmuş Qlobal Baxış sənədinə uyğun olaraq ən yüksək ambisiyaya can atmalıdırlar. İnkişaf etməkdə olan ölkələrə dəstək göstərilməli və iqlim maliyyəsi artırılmalıdır ki, bu ölkələr də öz potensiallarını tam şəkildə həyata keçirə bilsinlər".

F.Mütəllimov bildirib ki, inkişaf etməkdə olan ölkələr isə adətən daha az iqtisadi resurslara malikdirlər və inkişaflarını davam etdirmək üçün enerji və infrastrukturun genişləndirilməsinə ehtiyac duyurlar: "Bu ölkələr iqlim dəyişikliyinə qarşı tədbirlər görmək üçün beynəlxalq maliyyə və texnoloji dəstək tələb edirlər. Həmçinin onların adaptasiya və dayanıqlı inkişaf üçün səyləri də böyük əhəmiyyət daşıyır. İnkişaf etmiş ölkələrin bu dövlətlərə maliyyə və texnoloji köməklik göstərməsi beynəlxalq iqlim dəyişiklikləri siyasətinin vacib bir hissəsidir".

ETSN rəsmisi söyləyib ki, COP29-da ambisiyanın artırılması və fəaliyyətə təkan verilməsi üzərində qurulmuş iki paralel istiqamətə əsaslanan perspektiv baxış təqdim edilib və iqlim maliyyəsinin prioritet olduğu vurğulanıb: "Bu istiqamətlər bir-birini gücləndirir - birindəki irəliləyiş digərinə dəstək olur. Əsas mandatların və iqlim fəaliyyətinin uğurla yerinə yetirilməsi etimad, həmrəylik və inkişaf tempini artırmaq üçün vacibdir. COP29, Paris Sazişi qlobal iqlim tədbirləri və əməkdaşlığı üçün bir sınaq olacaq. Əsas diqqət İqlim maliyyəsi üzrə Yeni Kollektiv Kəmiyyət Hədəfinə yönəldilərək COP29-da bütün əsas və aktual məsələlərin həllinə nail olunması gözlənilir. COP29 lazımi icra və dəstək vasitələrinin təmin edilməsində, eləcə də ümumi, lakin fərqləndirilmiş məsuliyyətlər və müvafiq imkanlar prinsipinin nəzərə alınması ilə hər kəsin mümkün olan ən yüksək ambisiyaya çatmasında mühüm rol oynayacaq. Ambisiyanın artırılması, Paris Sazişinin məqsəd, hədəf və prinsiplərinə uyğun olaraq 1,5°C hədəfinə nail olmaq üçün aydın planların hazırlanmasını tələb edir".

F.Mütəllimov COP29-un Fəaliyyət Gündəliyindəki 14 təşəbbüsdən də danışıb: "İqlim Maliyyəsi üzrə Fəaliyyət Fondu mədən (qazıntı) yanacağı istehsal edən ölkələrin və şirkətlərin könüllü ianələri sayəsində fondun təsis edilməsi ilə fond iqlim dəyişmələrinin təsirinin azaldılması, adaptasiya, eləcə də tədqiqat və inkişaf məsələləri üzrə dövlət və özəl sektorları stimullaşdıracaq. Həmçinin yüksək güzəştli şərtlər və qrantlar əsasında maliyyələşdirməni təmin edəcək. İqlim maliyyəsi, investisiya və ticarət dialoqu üzrə Bakı Təşəbbüsü - "BICFIT Dialoqu" iqlim maliyyəsi, investisiya və ticarət əlaqələrinə diqqəti artırmaqdan ötrü beynəlxalq ictimaiyyət üçün əməkdaşlıq mühitinin və uzunmüddətli dialoq platformasının yaradılmasıdır. Peşə və bacarıqlar üçün "Ədalətli keçid" İnvestisiya Tərəfdaşlığı (JTIP) Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrdə, Milli Adaptasiya Planları, Uzunmüddətli Aşağı Emissiyalı İnkişaf Strategiyalarında bacarıqların inkişafının Çoxtərəfli İnkişaf Banklarının mövcud maliyyə alətləri ilə inteqrasiyası əsasında yaranan maliyyə tələblərini əlaqələndirmək üçün əməkdaşlıq platformasının yaradılması, o cümlədən digər maliyyə mənbələri ilə əlaqələrin və sinerjilərin yaradılması imkanının müəyyən edilməsini nəzərdə tutur. "Yaşıl enerji" üzrə öhdəliklər təşəbbüsü "yaşıl enerji" dəhlizləri, zonalar və şəbəkələrinə dair öhdəliyi ehtiva edir. Həmçinin "yaşıl enerji"nin saxlanılması üzrə öhdəliklər isə 2030-cu ilə qədər 2022-ci ildə olan səviyyəni altı dəfə artırmaq, 2030-cu ilə qədər 1500 qiqavata çatdırmaq üçün qlobal hədəflərlə davamlılığı və səmərəliliyi artırmağı hədəfləyən enerji təchizatını qlobal enerji sistemlərinin təməl daşlarından birinə çevirməkdir".

O qeyd edib ki, təşəbbüslərdən biri də Təmiz Hidrogen Təşəbbüsüdür: "Burada rəhbər prinsiplər və prioritetlərin müəyyən edilməsi və tənzimləyici, texnoloji, maliyyə və standartlaşdırma problemlərinin həlli yolu ilə aşağı emissiyalı hidrogenin qəbulu üzrə qlobal bazar potensialını müəyyən etmək üçün həm dövlət, həm də özəl sektor tərəfindən fəaliyyətin həyata keçirilməsi öhdəliyi və onun icra yolları nəzərdə tutulur. Həmçinin COP Atəşkəs çağırışı iqlim-münaqişələrin qarşılıqlı əlaqəsi istiqamətində, COP29 sülhü, dialoqu və barışığı daha geniş şəkildə təbliğ etmək və iqlimlə bağlı fəaliyyət üçün bütün siyasi diqqəti və diplomatik səyləri səfərbər etmək məqsədi daşıyır. Yaşıl dünya naminə Rəqəmsal Fəaliyyət Yolu rəqəmsallaşma və İKT sektorunda istixana qazları emissiyalarının azaldılması və Nazirlər Bəyannaməsi vasitəsilə "yaşıl keçid"in sürətləndirilməsi, İqlimə Dayanıqlı Gələcək üçün insan kapitalına, sağlamlığa və iş yerlərinə investisiya qoyuluşu isə xüsusilə uşaqlar və gənclər üçün təhsil, peşə, sağlamlıq və rifah sahəsinə investisiyaların qoyulması və bu sahələr üzrə sinerjinin gücləndirilməsi məqsədi daşıyır. İqlim Dayanıqlılığı üçün HARMONİYA: Fermerlərin, kəndlərin və kənd icmalarının gücləndirilməsidir".

ETSN rəsmisi bildirib ki, Su və İqlim üzrə Bakı Dialoqu: İqlim dəyişmələri və su sistemi üzrə fəaliyyətin gücləndirilməsi təşəbbüsü Dialoq Qlobal Adaptasiya Hədəfi əsasında su ilə bağlı iqlim dəyişmələrinə uyğunlaşma istiqamətində birgə işləmək üçün hökumətləri, BMT təşkilatlarını, akademik dairələri və özəl sektoru bir araya gətirəcək: "Davamlı, İqlimə Dayanıqlı və Sağlam Şəhərlər üçün Çoxsahəli Fəaliyyət Tərəfdaşlığı (MAP) şəhərlərdə çoxsahəli milli fəaliyyətlərin gücləndirilməsi və qlobal şəhər iqlimi maliyyəsinin, iqlim və şəhərin inkişafı və dayanıqlılığına dair qlobal uyğunluğun genişləndirilməsi üçün daha güclü tərəfdaşlıqların təbliğ edilməsidir. On üçüncü öhdəlik turizm üzrə Təkmilləşdirilmiş İqlim Fəaliyyəti üçün Qlobal Tərəfdaşlıq (GPECAT) qlobal turizm siyasətinin formalaşmasında paradiqma dəyişikliyini inkişaf etdirməklə turizm vasitəsilə artan qlobal emissiya tendensiyasını azaltmağı hədəfləyir. Üzvi Tullantıların Azaldılması (ROW) üçün Tərəfdaşlıq: Metanın azaldılması və torpağın zənginləşdirilməsi təşəbbüsündə isə tərəfdaşlığın məqsədi tullantı sektorundan metan emissiyalarını azaltmaq, eyni zamanda qida tullantıları, davamlı urbanizasiya, torpağın idarə edilməsi və zənginləşdirilməsi kimi qlobal problemləri həll etməkdir. Tərəfdaşlıq tullantı sektorunda 1,5°C hədəfinə uyğunlaşdırılmış Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr üzrə öhdəlikləri, artan maliyyə və investisiya, fəaliyyət barədə məlumat, innovativ tərəfdaşlıq və maraqlı tərəflərin cəlb edilməsinə çalışılacaq".

Şöbə müdiri vurğulayıb ki, COP29-da inkişaf etməkdə olan ölkələrin ehtiyac və prioritetlərini nəzərə alaraq, ədalətli və ambisiyalı Yeni Kollektiv Kəmiyyət Hədəfinin (NCQG) razılaşdırılması prioritet hesab edilir: "Bu səylər mövcud resursların tam miqyasını və potensialını əhatə etməlidir. Paris Sazişinin karbon ticarəti ilə bağlı 6-cı maddəsinin işə salınması, çoxtərəfli maliyyə institutlarının və iqlim fondlarının gücləndirilməsi beynəlxalq müstəvidə imkan yaradan mühitin yaradılmasına əhəmiyyətli töhfə verəcək. Həmçinin iqlim fəaliyyəti üçün bütün maraqlı tərəflərin tam səfərbər edilməsi də prioritetdir. Hər keçən gün milyonlarla insan üçün ziyan riskini artırır. İtki və zərərə cavab verən fondun fəaliyyətə başlaması da daxil olmaqla, bu istiqamətdə fəaliyyətlərin aktivləşdirilməsi gözlənilir. Beləliklə, maliyyə, texnologiya və bacarıqların artırılması kimi icra vasitələri və dəstək mexanizmləri yaradılacaq".

# *Ceyms ŞARP:* "Azərbaycan Orta dəhlizdə açar rolunu oynayır"

**"Azərbaycan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TBNM və ya Orta dəhliz) üzrə açar rolunu oynayır".**

Bunu Trend-ə eksklüziv müsahibəsində Böyük Britaniyanın Azərbaycan, Qazaxıstan və Qırğızıstandakı keçmiş səfiri Ceyms Şarp deyib.

"Orta dəhlizin modernləşdirilməsini dəstəkləyəcək regional iqtisadi inkişaf sadəcə xammalın ixracının asanlaşdırılması ilə bağlı deyil, daha da vacibi diversifikasiya olunmuş, əlavə dəyər gətirən iqtisadiyyat yaratmaq üçün Orta dəhlizdəki mövqeyindən necə yararlanmaqdır. Burada mərkəzlərin xüsusi üstünlüyü var. Qədim İpək yolunun dərslərindən biri də odur ki, marşrut boyunca yerləşən qovşaqlar mühüm ticarət mərkəzlərinə çevrilib. Məncə, Orta dəhlizin ən bariz qovşağı Ələtdir, Bakı limanıdır. Ələt Orta dəhlizdə əsas qovşaqdır. Bütün marşrutlar oradan keçir və bu, belə unikal mövqedə olan yeganə yerdir. Üstəlik, Rusiya və İran arasında "Şimal-Cənub" dəhlizinin marşrutu üzərində yerləşir. Təbii ki, bu, hələlik sanksiyalarla bağlı suallar doğurur, lakin uzunmüddətli perspektivdə irəliləyiş Ələtdə yerləşən bizneslərin və bununla da bütövlükdə Azərbaycanın geniş bazarlara fantastik çıxışı ola bilər. Azərbaycan yenidən yol kəsişməsi rolunu yenidən yaratmalı olacaq", - o deyib.

Keçmiş səfirin qeyd etdiyi kimi, Qazaxıstan marşrutların əksəriyyətinin keçdiyi başqa bir ölkədir və Almatı yaxınlığında, eləcə də Özbəkistandan gələn marşrutun - və bəlkə daha da cənubdan - Orta dəhlizlə birləşdiyi Çimkənddə qovşaqların inkişafını təsəvvür etmək olar.

### Orta dəhlizin artan əhəmiyyəti

C.Şarp qeyd edib ki, Ukraynada müharibə başlayandan bəri Avropada Rusiya üzərindən yüklərin daşınmasına münasibətdə ciddi dəyişiklik baş verib.

"Bu, Orta dəhlizə, daha dəqiq desək, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutuna marağın yenidən artmasına səbəb olub. Maraqlıdır ki, Orta dəhlizə marağı artıran təkcə Ukraynadakı müharibə deyildi. Husilərin kommersiya gəmilərinə qarşı raket və pilotsuz təyyarələr atdığı Qırmızı dənizdə baş verən hadisələr də hökumətləri və şirkətləri nəqliyyat marşrutlarının şaxələndirilməsi zərurətindən xəbərdar edib. Düşünürəm ki, Asiya ilə Avropanı birləşdirən əlavə yol kimi Orta dəhlizə investisiya qoyuluşunun məntiqli olmasının bir neçə səbəbi var. Təbii ki, Orta dəhliz digər marşrutları əvəz etməyəcək, lakin alternativ marşrut təqdim edəcək. Hələ görüləcək xeyli iş var. Xəzər dənizini keçərkən dəmir yolu və dəniz nəqliyyatı arasında keçid məcburiyyətində olan aşkar "çatışmazlıqdan" başqa, marşrutun bir çox ölkəni keçməsi səbəbindən xeyli iş görülməlidir", - deyə o bildirib.

### Marşrutun inkişafı üçün zəruri tədbirlər

Diplomat hesab edir ki, marşrutun inkişafı üçün həm investisiya, həm də əməkdaşlıq lazımdır.

"Həm "sərt birləşmə", həm də "yumşaq birləşmə" adlandırıla bilən problemlər var. "Hard coupling" dəmir yolu xətlərinin tikintisi və ya modernləşdirilməsi, vaqonların və liman infrastrukturunun satın alınması kimi məsələləri əhatə edir. "Yumşaq ünsiyyət" daha çox gömrük prosedurları ilə bağlıdır. Ümumiyyətlə, deyə bilərik ki, "sərt birləşmə" investisiya tələb edir, "yumşaq birləşmə" isə əməkdaşlıq tələb edir. İnvestisiya baxımından bu, mütləq baş verir. Belə ki, bu ilin əvvəlində Aİ Global Gateway toplantısı keçirib və bu toplantıda təxminən 10 milyard avro vəsaitin ayrıldığını elan edib. Və əməkdaşlıq baxımından biz artıq regional hökumətlərin və təşkilatların Dünya Bankı və AYİB hesabatlarında qaldırılan məsələləri həll etməyə başladığını görürük. Beləliklə, hələ çox uzun bir yol olsa da, böyük irəliləyiş görəcəyimizə ümid edirəm", - o əlavə edib.




Ceyms Şarpın qeyd etdiyi kimi, Orta dəhlizin faydalarının sadəcə Çin və Avropa arasında malların daşınması ilə bağlı olmadığını xatırlamaq lazımdır.

"Region ölkələri regionla Avropa-Çin, eləcə də region ölkələrinin özləri arasında əlaqələrin yaxşılaşdırılmasından daha çox faydalanacaqlar. Təkmilləşdirilmiş dəmir yolu və dəniz əlaqəsi bu ölkələrdən ticarət və ixracı artıracaq. Odur ki, diqqət aşağıdakı sual üzərində olmalıdır: region ölkələri öz iqtisadi inkişaflarını dəstəkləmək üçün Orta dəhlizdən necə istifadə edə bilərlər?", - o deyib.

### Qazaxıstan neftinin Azərbaycan ərazisindən nəqli

Azərbaycan üzərindən neft tədarükündən danışan Ceyms Şarp qeyd edib ki, həqiqət budur ki, Qazaxıstandan Azərbaycana Xəzər dənizi vasitəsilə neft nəqli də Orta dəhliz kimi Rusiyadan tam asılılıq narahatlığına reaksiyadır.

"Qazaxıstandan Novorossiyskə qədər CPC boru kəməri neftin qərbə ixracı üçün ən sərfəli və səmərəli yoldur, lakin son bir neçə ildə baş verən hadisələr onun yaratdığı zəifliklə bağlı açıq narahatlıqlar doğurub. Ona görə də mən başa düşürəm ki, strateji səbəblərdən Qazaxıstan və orada fəaliyyət göstərən neft şirkətləri alternativ ixrac marşrutları hazırlamaq istəyirlər. Ona görə də Orta dəhlizdə olduğu kimi, mən şübhə edirəm ki, Trans-Xəzər marşrutu CPC boru kəmərini əvəz edəcək, əksinə, müxtəlif ixrac marşrutları təmin edəcək. Bu, həmçinin Azərbaycanın neft ixracının azalacağı proqnozlaşdırıldığı bir vaxtda BTC boru kəmərindən daha çox istifadə etməyə kömək edir", - o deyib.

Xəzər dənizinin hər iki sahilində "sərt" kommunikasiyanın təkmilləşdirilməsinə ehtiyac olduğunu qeyd edən diplomat bu marşrutla neft nəqlinin davam etdiriləcəyinə əminliyini ifadə edib.

### Azərbaycan və Qazaxıstanda "yaşıl enerji"nin tendensiyası

"Mən hər iki ölkənin bərpaolunan enerji potensialını artırdığını görməkdən çox məmnunam. Fikrimcə, onların neft və qaz hasilatçıları kimi "yaşıl enerji"yə dəstək vermək üçün xüsusi məsuliyyəti var. Böyük Britaniya səfirliyi tərəfindən maliyyələşdirilən araşdırmadan məlum oldu ki, Azərbaycanın dəniz külək enerjisi üçün böyük potensialı var. Qazaxıstan isə quruda külək və günəş enerjisindən istifadə etmək üçün böyük imkanlar olan nəhəng əraziyə malikdir. Lakin əsas bazarlardan uzaqlaşma və bunun bərpaolunan enerji iqtisadiyyatına necə təsir edəcəyi ilə bağlı açıq şəkildə problemlər var", - o deyib.

Diplomatın sözlərinə görə, ölkələrin Gürcüstan və Aİ ölkələri ilə Avropaya "yaşıl elektrik xətləri"ni müzakirə etməsi sevindirici haldır.

"Qazaxıstan nümunəsində digər iqtisadi problem ucuz kömürün olmasıdır və burada bərpaolunan enerji müqavilələrinin imzalanmasına baxmayaraq, kömürlə işləyən yeni elektrik stansiyaları üçün müqavilələrin imzalanması, xüsusən də Böyük Britaniyanın evsahibliyi etdiyi COP26-dan sonra lazımi nəticəni vermədi. Qlazqoda kömür enerjisinin istifadəsini mərhələli şəkildə dayandırmaq üçün razılaşma əldə edildi. Britaniya şirkətlərinə gəlincə, əsas nümunə BP tərəfindən Azərbaycanın Cəbrayıl rayonunda günəş-elektrik stansiyasının tikintisidir. Bu, BP-nin 2050-ci ilə qədər xalis sıfır emissiyalara nail olmaq üzrə öz öhdəliyinin bir hissəsidir və ümid edirəm ki, həm Azərbaycan, həm də Qazaxıstan bu il COP29-da öhdəliyini götürəcək", - Ceyms Şarp vurğulayıb.

# COP29 Könüllülük Proqramı çərçivəsində təlim mərhələsi başlayıb

**COP29 Könüllülük Proqramı çərçivəsində könüllülərin iqlim dəyişmələri, ətraf mühitin mühafizəsi və COP29 prosesi kimi mühüm mövzulara dair biliklərə yiyələnəcəyi növbəti təlim mərhələsinə başlanılıb.**

Müsahibə mərhələsindən keçən namizədlər sentyabr ayının əvvəlinə qədər davam edəcək bu intensiv təlimlərdə iştirak edəcək.

Təlimləri uğurla başa vurduqdan sonra isə iştirakçılar konkret vəzifə və öhdəliklər mərhələsinə keçid edəcəklər.

Qeyd edək ki, bu ilin noyabrında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak etmək üçün könüllük proqramına 29 may-5 iyun tarixlərdə qeydiyyat elan edilib, 7 000 namizəd müsahibədən uğurla keçib.



# Antiazərbaycançı şəbəkənin məkrli planı iflasa məhkumdur



## Azərbaycanın yaratdığı reallıqlarla hesablaşılmalıdır

**Azərbaycan dövləti İkinci Qarabağ müharibəsində və antiterror əməliyyatlarında qazandığı zəfərlərlə beynəlxalq hüquqla təsbit olunmuş hüquqlarını həyata keçirdi. Vasitəçilərin, beynəlxalq təşkilatların onilliklər ərzində həllinə nail olmaq istəmədikləri problemləri respublikamız güc yolu ilə aradan qaldırdı, Qərbin bəlli siyasi mərkəzlərinin erməni təəssübkeşliyinə xidmət göstərən niyyətlərini puç etdi.**



### Azərbaycana qarşı qərəzli və riyakar münasibətin göstəricisi

Azərbaycan ərazilərinin işğaldan azad edilməsi, Ermənistanın işğalçılıq siyasətinə, erməni separatizminə son qoyulması beynəlxalq hüququn normalarının təmin olunması ilə yanaşı, həm də yeni reallıqların yaranması deməkdir. Amma görünən odur ki, bu reallıqları hələ də dərk etməyənlər, yaxud proseslərə erməni təəssübkeşliyi ilə yanaşanlar var. Bu xüsusda Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın bir neçə gün öncə mətbuata verdiyi müsahibəsində səsləndirdiyi fikirlər Qərbin bəlli siyasi dairələrində Azərbaycanın maraqlarına, Azərbaycan xalqının hüquqlarına qarşı olan qəbuledilməz münasibətin və erməni sevgisinin növbəti göstəricisidir.

Aİ-nın Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Qarabağı könüllü şəkildə tərk etmiş ermənilərin və Ermənistandan qovulmuş azərbaycanlıların qayıdışı ilə bağlı məsələlərdən danışarkən bu hüququ yalnız Qarabağı tərk etmiş ermənilərə şamil etmişdir. T.Klaar tərəfindən Azərbaycanın Qarabağ bölgəsindən könüllü və öz arzuları ilə Ermənistana köç etmiş ermənilərin qayıtması məsələsinin xüsusi hal kimi vurğulanması, Ermənistan ərazisindən zorla qovulmuş azərbaycanlıların qayıdış hüququnun isə fərqləndirilməsi və bu hüququn inkar edilməsi bir daha Azərbaycana qarşı olan qərəzli və riyakar münasibətdən xəbər verir. Bu, hələ Vətən müharibəsinə qədər vasitəçilərin və beynəlxalq təşkilatların Qarabağ problemi ilə bağlı ortaya qoyduqları məkrli mövqenin Aİ rəsmisi tərəfindən başqa bir rakursda davam etdirilməsi deməkdir. Hansı ki, bu problem artıq həllini tapıb.

### Aİ xüsusi nümayəndəsinin nə deməsinin əhəmiyyəti yoxdur

Azərbaycan Xarici İşlər Nazirliyindən bununla bağlı verilən açıqlamada bildirilir ki, T.Klaarın Azərbaycanın Qarabağ bölgəsindən könüllü əsasda Ermənistana və əvvəllər yaşadıqları digər ölkələrə miqrasiya etmiş ermənilərin qayıtması məsələsini xüsusi hal kimi nəzərdən keçirməsi, indiki Ermənistan ərazisindən zorla qovulmuş azərbaycanlıların qayıdış hüququnu şərtləndirməsi qəbuledilməzdir. Açıqlamada qeyd edilir ki, Ermənistandan qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə öz doğma torpaqlarına geri dönməsi üçün müvafiq şərait yaradılması Ermənistanın öhdəliyidir və beynəlxalq ictimaiyyət bu öhdəliyin yerinə yetirilməsini tələb etməlidir.

O cümlədən Qərbi Azərbaycan İcması bəyanat yayaraq Aİ rəsmisinin fikirlərini sərt şəkildə qınayıb. Bəyanatda deyilir: "Cənab Klaarın Ermənistandan zorla qovulmuş azərbaycanlılara münasibətdə sərgilədiyi bu münasibət onun özünün və təmsil etdiyi qurumun etnik və dini əsasda ayrı-seçkiliyinin sübutudur. Aİ rəsmisinin Qarabağ ermənilərinin məsələsini xüsusi vurğulaması isə bu qurumun münaqişənin həll edilməsini və Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsini həzm edə bilməməsinin göstəricisidir. Bütün bunlar, eləcə də Aİ-nin Ermənistana hərbi yardım ayırması, bu ölkənin sanksiya qaçaqmalçılığı yolu ilə külli miqdarda vəsait əldə edib silahlanmaya sərf etməsinə göz yumması və Fransa kimi Aİ-yə üzv ölkələrin Ermənistana böyük miqdarda silah satması regionda gərginlik yaratmağa xidmət edir".

Onu da qeyd edək ki, indiki Ermənistan ərazilərinin yerli sakinləri olan azərbaycanlılar öz dədə-baba torpaqlarından zorla qovulublar. Həmin vaxt ermənilər tərəfindən soydaşlarımıza qarşı çoxsaylı cinayətlər, o cümlədən soyqırımı cinayətləri törədilib. Qarabağdakı ermənilər isə ölkəmizi öz istəkləri ilə tərk ediblər. Azərbaycan tərəfinin çağırışlarına baxmayaraq, onlar geri qayıtmaqdan vaz keçiblər. Bütün bunları T.Klaar da yaxşı bilir. Bu baxımdan onun bu cür fikirlər söyləməsi sadəcə erməni təəssübkeşliyindən və Azərbaycanın haqqını görməzlikdən irəli gəlir.

Əslində, T.Klaar və onun kimilərinin bundan sonra nə deməsinin əhəmiyyəti də yoxdur. Çünki onun kimi düşünənlərin Azərbaycanın yaratdığı reallıqlarla hesablaşmaqdan başqa yolları yoxdur.

*Rəşad CƏFƏRLİ, "Azərbaycan"*

## Ermənistan Qərbin əlində alətə çevrilib

### Bu, onun dövlət müstəqilliyinin itirilməsinə səbəb ola bilər

**Cəmi bir neçə gün əvvəl ABŞ Dövlət Departamentinin mətbuat katibinin müavini Vedant Patel brifinq zamanı "həm Dövlət katibi, həm də Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bono Azərbaycan və Ermənistan arasında sülhə nail olmaq üçün çalışmağa davam edirlər, lakin mənim heç bir konkret xəbərim yoxdur. Biz bu istiqamətdə fəaliyyətimizi davam etdirəcəyik", - deyə bildirib.**



Siyasi aləmdə baş verənlər birmənalı olaraq deməyə əsas verir ki, Avropa İttifaqı (Aİ) və ABŞ Cənubi Qafqazda sülhün bərqərar olunmasından çox mövqelərini möhkəmləndirib Rusiyanı Ermənistandan sıxışdıraraq çıxarmaq istiqamətində fəaliyyət göstərirlər. Hətta münaqişənin yenidən alovlanması üçün bütün imkanlardan istifadə edirlər.

Bu işin əsas "ağırlığ"ı isə Fransanın üzərinə düşür. İllərdir öz maraqları naminə regionda münaqişəni qızışdırmaqla məşğul olan rəsmi Paris indi də yedək təşkilatları koordinasiya edərək maliyyə yardımları ilə Ermənistanı şirnikləndirib, sülh prosesini pozmağa cəhd edir. Cənubi Qafqaz üzərində qurulan məkrli planlar, regiona kobud müdaxilə ssenariləri artıq tam gücü ilə işə düşüb. Avropa Sülh Fondunun Ermənistana 10 milyon avro yardım ayırması barədə qərarından sonra Aİ Ermənistanla viza rejiminin liberallaşdırılması ilə bağlı danışıqlara başlayıb. Heç şübhəsiz ki, burada əsas rolu Fransa oynayır. Nüfuzunu itirmiş bu beynəlxalq təşkilat rəsmi Parisin əlində başqa dövlətlərə təsir etmək üçün bir alətə çevrilib. Ermənistanı öz məkrli planlarına alət edənlər elə zənn edirlər ki, bu yolla Hayastanı Rusiyanın təsirindən çıxarmağa nail olacaqlar. Nəzərə alsaq ki, cəmi bir neçə gün öncə ABŞ Ermənistan ordusu ilə ortaq təlimlər keçirib, eyni zamanda Pentaqon yüksək rütbəli hərbçilərini Ermənistan Müdafiə Nazirliyi ilə birgə fəaliyyət göstərmək üçün İrəvana göndərib, onda belə nəticəyə gəlmək olar ki, bütün bunlar Cənubi Qafqazda sülh prosesinə mane olmaq məqsədi daşıyır.

Yaxın keçmişin hadisələri göstərir ki, Ermənistan öz sonuna doğru sürətlə yaxınlaşmaqdadır. Böyük güclərin Cənubi Qafqaz maraqları, Ermənistanı özlərinə alət etmələri bu dövlətə yaxşı heç nə vəd etmir. Ortalıqda dərs götürmək üçün Rusiya-Ukrayna savaşı var. ABŞ və Qərb Ukraynanı Rusiya ilə qeyri-bərabər müharibəyə sövq etdi... Vəd edilən hərbi yardım Ukraynaya vaxtında çatdırılmadı. Bu azmış kimi, Qərb rəsmi Kiyevə Kreml ilə sülh danışıqlarına başlamağı, ərazilərini Rusiyaya güzəştə getməyi məsləhət görür...

Qərbin qurbanlıq kimi Ermənistanı seçməsi təsadüfi deyil. Ermənistanın daim xəyanətə hazır bir ölkə olduğunu bilənlər onun Rusiya ilə münasibətlərinin daha da gərginləşməsinə çalışırlar. Yaxın perspektivdə qarşıya qoyulan əsas hədəf Rusiya hərbi qüvvələrinin Ermənistandan tamamilə çıxarılmasıdır. Ermənistan isə xislətinə sadiq qalaraq Avropa İttifaqı və ABŞ-dən bəhrələnməklə paralel Rusiya ilə iqtisadi münasibətləri saxlamaqla daha çox maddi və siyasi dividendlər əldə etməyə çalışır. Yaranmış fürsətdən bəhrələnən Ermənistan hücum silahları almaqla sülhdən çox müharibəyə hazırlaşdığını nümayiş etdirir.

Hindistandan öldürücü silahların alınması, Fransanın mütəmadi olaraq bu ölkəni silahlandırması, Aİ-dən və ABŞ-dən olan maddi yardımlar, habelə bu ölkənin İrandan kamikadze-dronlar almağa hazırlaşdığı haqda yayılmış məlumatlar, eləcə də hərbi büdcənin artırılması Ermənistanın sülhdən çox müharibə hazırlığında olduğunu deməyə əsas verir. Aydındır ki, Cənubi Qafqaz nəhəng siyasi iradə mərkəzlərinin maraqlarının kəsişdiyi regiondur. Hadisələrin gedişi bu qüvvələrin heç bir halda öz maraqlarından və mənafelərindən geri çəkilməyəcəyini göstərir. Bu isə o deməkdir ki, Qərbin əlində alət olan Ermənistan nəinki müstəqil siyasət yürütmək iqtidarındadır, hətta tamamilə müstəqilliyini itirə bilər.

*Elşən QƏNİYEV, "Azərbaycan"*

## Ermənistan hökumətinin, eləcə də onun havadarlarının ictimaiyyəti çaşdırmaq cəhdləri uğursuzluğa məhkumdur

**Qərbi Azərbaycan İcması respublikamızın kənd, qəsəbə və şəhərləri ilə yanaşı, xarici ölkələrdə də görüşlər keçirir, dədə-baba yurdlarından didərgin salınmış, qaçqın düşmüş insanların ailə üzvləri ilə yaxından tanış olur, onların pozulmuş hüquqlarını aidiyyəti beynəlxalq insan hüquqları müdafiəsi qurumlarına, habelə dünya ictimaiyyətinə çatdırır.**





Bir ildən artıqdır ki, Qərbi Azərbaycan Televiziyasının gündə iki saat olmaqla Azərbaycan, rus və ingilis dillərində buraxılış və verilişlər yayımlaması məlumatların coğrafiyasını daha da genişləndirir. Soydaşlarımızın sülh yolu ilə, təhlükəsiz və ləyaqətlə geri qayıdışı istiqamətində aparılan işlər o cümlədən maddi - mədəni irsimizin dağıdılmasına diqqət çəkilməsi məsələlərini gündəmdə saxlayır.

Xalqımızın beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində haqlı tələblərini bəzi ermənipərəst qüvvələr həzm edə bilmədiklərindən yalan və şantaja əl atırlar. Qərbi Azərbaycan İcması bir qrup fransız deputatın Azərbaycana qarşı düşmənçiliyə çağıran, beynəlxalq hüquqa həqarət olan qərəzli müraciətini kəskin şəkildə pisləyib və bunu Fransa cəmiyyətində tüğyan edən irqçiliyin, islamofobiyanın və azərbaycanofobiyanın bariz göstəricisi kimi qiymətləndirib.

Qərbi Azərbaycan İcmasından verilən bəyanatda fransız deputatlara xatırladılıb ki, onların iddia etdiyi "etnik təmizləmə" siyasətini öz torpaqlarını Ermənistanın 30 illik işğalından azad edən Azərbaycan deyil, Qərbi azərbaycanlıları Ermənistandan deportasiya etmiş, onilliklər boyu Azərbaycan ərazilərini işğal altında saxlamış Ermənistan törədib.

Fransız deputatların diqqətinə çatdırılıb ki, Avropa İttifaqının Ermənistandakı missiyasının hər gün patrul apardığı ərazilərin əksər hissəsi vaxtilə Qərbi azərbaycanlıların yaşadığı və 30 il öncə deportasiya edildiyi ərazilərdir.

Əgər fransız deputatları həqiqətən də iddia etdikləri "beynəlxalq hüquq", "demokratik dəyərlər" maraqlandırsaydı, onda onlar separatizmi, revanşizmi, cəzasızlığı təşviq edən Ermənistanı və qondarma qurumun qalıqlarını deyil, sülh və birgəyaşayış ideyalarını təşviq edən Qərbi Azərbaycan İcmasını, onun Ermənistanla dialoq təklifini və Qərbi azərbaycanlıların Ermənistanda öz dədə-baba yurdlarına qayıdışını dəstəkləməliydilər.

Qərbi Azərbaycan ərazisinin əzəli və yerli sakinlərinin Azərbaycan türkləri olmasına baxmayaraq, ora köçürülən ermənilər XX əsrin əvvəllərindən başlayaraq azərbaycanlıları öz doğma yurdlarından didərgin salmaq üçün himayədarlarının əli ilə özlərinin məkrli niyyətlərini həyata keçiriblər. Ermənilərin maraqlarına uyğun olaraq Qərbi Azərbaycandan bütün soydaşlarımız öz doğma ata-baba yurdlarından zorla çıxarılmış və onlar qaçqın halında Azərbaycanın bölgələrində məskunlaşmışlar.

Qərbi Azərbaycan İcması fransız deputatlardan Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qarşı qəsddən, bölgədə vəziyyəti gərginləşdirən fəaliyyətdən çəkinməyi və ölkəmizin daxili işlərinə qarışmamağı tələb edib. Həmin deputatlara öz ölkələrində hökm sürən irqçiliyə və islamofobiyaya qarşı mübarizə aparmağı, Korsika dilini qadağan etməməyi və müstəmləkə təfəkküründən əl çəkməyi tövsiyə edib.

Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın Ermənistan mediasına verdiyi müsahibəsində fransız deputatlardan bir az da irəli atılaraq Azərbaycanın suveren ərazilərinə "uzunmüddətli çoxmillətli və ya BMT missiyasının yerləşdirilməsi" kimi qeyri-obyektiv mövqe sərgiləyib. Hətta müsahibəsində erməni sakinlərin Qarabağa qayıtmasının, onların dini, mədəni abidələrinin mühafizəsinin vacibliyini vurğulayıb. T.Klaarın Qərbi azərbaycanlıların Ermənistana qayıdışından, Azərbaycan xalqının Ermənistandakı mədəni irsinin qorunmasından bəhs etməməsi, Xocalı cəlladlarının saxlanılmasından narahat olması riyakarlıqdır. Ermənistandan qovulmuş azərbaycanlılar 30 ildən çoxdur ki, öz vətənlərinə qayıdışı gözləyirlər. Qərbi Azərbaycan İcmasının dəfələrlə etdiyi müraciətlərə baxmayaraq, Avropa İttifaqı indiyədək bu məsələyə dair mövqeyini ictimai şəkildə bəyan etməyib. Toivo Klaarın qərəzli mövqeyini kəskin şəkildə qınayan Qərbi Azərbaycan İcmasının məsələ ilə bağlı yaydığı açıqlamada deyilir: "T.Klaar və digər Avropa İttifaqı rəsmilərindən Azərbaycanın suveren əraziləri ilə bağlı gülünc, düşmən açıqlamalar verməməyi tələb edirik. Azərbaycanın suveren ərazilərinə hansısa missiyanın yerləşdirilməsi T.Klaar və ya digərlərinin səlahiyyətində və həddində deyil. İkili standartların bariz nümunəsi olan Avropa İttifaqının Azərbaycana mühazirə oxumaq üçün mənəvi əsası yoxdur. Qoy T.Klaar Avropa İttifaqının təsisatlarına, etnik azlıqlarla problemlərin yaşandığı Avropa İttifaqı ölkələrinə və monoetnik Ermənistana uzunmüddətli çoxmillətli və ya BMT missiyasının yerləşdirilməsi barədə tövsiyələr versin".

Cari ilin noyabr ayında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ciddi hazırlıq görüldüyü bir vaxtda Ermənistanda bəzi dairələr, erməni diasporu, Qərb ölkələrində Luis Okampo kimi irqçilər "Bakıda saxlanılan ermənilərin azad edilməsi" ilə bağlı hay-küy kampaniyasına başlamışlar.

Qərbi Azərbaycan İcmasının bəyanatında deyildiyi kimi, "Açıq internet resurslarında Ermənistan ordusunun xüsusilə Birinci Qarabağ müharibəsində mülki azərbaycanlılara qarşı törətdikləri vəhşilikləri əks etdirən çoxlu foto və videolar var. Erməni cəmiyyəti ilk növbədə öz hakimiyyətindən, "müstəqil məhkəmə sistemi"ndən həmin hərbçilərin, sahə komandirlərinin cəzalandırılmasını tələb etməliydi". Bütün bunların baş vermədiyi təqdirdə, Bakıda saxlanılan erməni cinayətkarların azad edilməsi çağırışları qeyri-səmimilikdən, COP29 kimi mötəbər bir tədbirə evsahibliyi edəcək Azərbaycana qarşı çirkin təbliğatdan başqa bir şey deyil.

Qeyd edək ki, artıq neçənci dəfədir ki, Ermənistanın XİN başçısı, o cümlədən digər nazirləri Azərbaycanla Ermənistan arasındakı sülh prosesi və münasibətlərin normallaşdırılması ilə bağlı təhrifedici və qəbuledilməz fikirlər səsləndirirlər. Görünən odur ki, Ermənistan hökumətinin, Luis Okampo kimi irqçilərin və Fransız deputatların, eləcə də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın ictimaiyyəti çaşdırmaq cəhdləri uğursuzluğa məhkumdur.

*Rəhman SALMANLI, "Azərbaycan"*

## Fransada "sarı jiletlilər" yenidən fəallaşır

**Fransada "sarı jiletlilər" (Gilets Jaunes) sentyabrın 6-da yenidən etiraz nümayişlərinə başlayacaqlar.**

AZƏRTAC xəbər verir ki, bu barədə "manifestationgiletsjaunesparis" saytı məlumat yayıb. Məlumatda "sarı jiletlilər"in hökumətdən tələbləri göstərilib. Bildirilir ki, "sarı jiletlilər" Vətəndaş Təşəbbüsü Referendumunun (RİC) Konstitusiyaya daxil edilməsi, əsas medialların qərəzsiz olması, ümumi qiymət artımının - elektrik, qaz, ərzaq, benzin kimi gündəlik tələbatların qiymətinin artırılmasının qarşısının alınması, vergilərin azaldılması və digər tələblər irəli sürürlər.

Onların tələbləri arasında həmçinin Fransanın Avropa İttifaqından, eləcə də NATO-dan çıxmaqla bağlı referendumun keçirilməsi yer alır.

"Sarı jiletlilər" bu dəfə inflyasiya nəzərə alınmaqla maaşların və pensiyaların artırılmasını, Ukrayna və Yaxın Şərqdə münaqişəyə son qoyulmasını tələb edərək, Ukraynaya hərbi qüvvələrin göndərilməsinə qarşı olduqlarını bildirirlər.

Sarı Jiletlilər Birliyi bildirib ki, etiraz nümayişləri sentyabrın ilk şənbə günündən yenidən başlayacaq.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## "Cənub qaz dəhlizi"nin ehtiyat mənbəyi



"Şahdəniz" bu missiyanın öhdəsindən uğurla gəlir

**Təşəbbüskarı və aparıcı qüvvəsi Azərbaycan olan, Prezident İlham Əliyevin yaratdığı beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq platforması sayəsində inkişaf edən "Cənub qaz dəhlizi" hazırda Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır. Bu dəhlizlə fasiləsiz nəql edilən mavi yanacaq "Şahdəniz" yatağından hasil olunur.**

Bəs "Şahdəniz"in özündə indi nə var, nə yox?

Xəzərin Azərbaycan sektorundakı bu nəhəng yataqdan hasilat da ahəngdar davam edir. Cari ilin birinci yarısında "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformalarından birlikdə təqribən 14 milyard standart kubmetr qaz və 2 milyon tondan çox (təqribən 18 milyon barel) kondensat əldə olunub. Bu qurğuların ümumi hasilat gücü hazırda gündə təxminən 80,7 milyon (ildə təqribən 29,5 milyard) standart kubmetr təşkil edir. Bu barədə "Şahdəniz" layihəsinin əməliyyatçısı BP məlumat verib.

Xatırladaq ki, "Şahdəniz" son onilliklər dünyada kəşf olunmuş ən böyük və perspektivli karbohidrogen yataqlarından biridir. Yataq 1,2 trilyon kubmetr qaz və 240 milyon ton kondensat ehtiyatlarına malikdir. "Şahdəniz"in nəhəngliyini göstərən faktlardan biri də odur ki, yataq iki fazada işlənib. "Şahdəniz" konsorsiumu layihənin ikinci mərhələsinin işlənməsi üçün yekun investisiya qərarını 2013-cü il dekabrın 17-də elan edib.

"Şahdəniz-2"dən əldə olunan mavi yanacaq 2018-ci ilin ortalarından "Cənub qaz dəhlizi"nə vurulur. "Şahdəniz-1" qazı isə 2006-cı ildən CQBK (Cənubi Qafqaz Boru Kəməri) vasitəsilə Gürcüstana, 2007-ci ildən BTƏ (Bakı-Tbilisi-Ərzurum) kəməri ilə Türkiyəyə nəql edilir. (Gürcüstan-Türkiyə sərhədində CQBK-yə qoşulan əlavə hissə Ərzurumadək uzanır və Səngəçaldan başlanan bu xətt bütövlükdə BTƏ kəməri adlanır).

"Şahdəniz" yatağı Xəzərin dərinsulu şelfində, Bakıdan 70 kilometr cənub-şərqdə, suyun dərinliyinin 50 metrdən 600 metrədək dəyişdiyi ərazidə yerləşir. Bu nəhəng yatağın sahəsi 140 kvadratkilometrdən çoxdur.

"Şahdəniz" 1999-cu ildə kəşf olunub. Yataq üzrə Hasilatın Pay Bölgüsü Sazişi (HPBS) 1996-cı il iyunun 4-də Bakıda SOCAR və xarici şirkətlərin konsorsiumu arasında imzalanıb. HPBS Milli Məclis tərəfindən ratifikasiya edilərək həmin il oktyabrın 17-də qüvvəyə minib.

"Şahdəniz-1"dən qaz "Şahdəniz Alfa", "Şahdəniz-2"dən isə "Şahdəniz Bravo" platformaları vasitəsilə çıxarılır. Təsadüfi deyil ki, bu qurğuları "Şahdəniz"in qoşa qanadı adlandırırlar. Bir sözlə, "Şahdəniz" Azərbaycanı dünyada qaz ixrac edən ölkə kimi tanıdan, "Cənub qaz dəhlizi"nin ehtiyat mənbəyi olan yataqdır.

"Cənub qaz dəhlizi"nin açılış mərasimi 2018-ci il mayın 29-da Bakı yaxınlığındakı Səngəçal terminalında keçirilib. Bu tədbir layihənin ilk iki seqmentinin - "Şahdəniz-2"dən hasilatın alınması və CQBK-nin genişləndirilməsinin başa çatması ilə mümkün olub. "Şahdəniz-2"nin yekun investisiya qərarının verilməsindən ilk hasilatının əldə olunmasınadək 4 ildən bir az çox, "Cənub qaz dəhlizi"nin təməlqoyma mərasimindən açılışınadək 4 ilə yaxın vaxt keçib. Bu da belə nəhəng layihələrin işlənməsi üçün çox qısa vaxt hesab olunur. Bu uğur Azərbaycanın "Şahdəniz"dən əvvəl həyata keçirdiyi qlobal neft-qaz və ixrac layihələrinin təcrübəsinə əsaslanır.

Dəhlizin növbəti hissəsi TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) 2018-ci il iyunun 12-də istismara daxil olub. Sonuncu - dördüncü seqment TAP (Trans-Adriatik Qaz Boru Kəməri) 2020-ci ilin sonuncu günü işə düşüb.

"Şahdəniz" yatağının işlənməsi bir çox sahədə yerli potensialın və texnoloji imkanların artmasına təkan verib. Məsələn, "Şahdəniz-2" platformalarının inşası ilk dəfə tam olaraq Azərbaycanın yerli resurslarından və infrastrukturundan istifadə edilərək həyata keçirilib.

Layihə ölkənin dəniz gəmilərinin imkanlarının genişləndirilməsinə də kömək göstərib. Layihə çərçivəsində istifadəyə verilmiş müasir "Xankəndi" sualtı tikinti gəmisi isə xüsusi olaraq "Şahdəniz"də sualtı tikinti işlərini dəstəkləmək üçün inşa edilib.

"Şahdəniz" işlənməsinin hər iki mərhələsində tikinti və istismar əməliyyatlarında region əhalisinin məşğulluğuna sanballı dəstək verib. "Şahdəniz-1"in işə salınmasında 5000-dən çox insan iştirak edib. "Şahdəniz-2"nin işlənməsinin pik həddində isə Azərbaycan və Gürcüstanda 30 mindən çox iş yeri yaradılıb . Yerli işçi qüvvəsinin bacarıqlarını inkişaf etdirmək üçün hərtərəfli təlim və təhsil proqramları keçirilib. Eləcə də yüzlərlə Azərbaycan şirkətinə öz potensialından istifadə etməyə və neft-qaz sənayesi layihələri üçün təchizatçı olmağa imkan yaranıb.

Hazırda hədəf Azərbaycandan Avropa İttifaqına təchiz edilən qazın həcmini ikiqat artırmaqdır. Qaz ixracının artırılması isə bir sıra şərtlərlə bağlıdır ki, bunların sırasında hasilatın çoxalması önəmli yer tutur. Hələlik bu, "Şahdəniz"in üzərinə düşür və o, vəzifəsinin öhdəsindən uğurla gəlir. Belə ki, bu ilin birinci yarısında "Şahdəniz-2" layihəsi çərçivəsində iki mühüm nailiyyət əldə olunub - şərq-şimal cinahında iki quyudan hasilata başlanıb.

"Xankəndi" sualtı tikinti gəmisi quraşdırma işlərini və istismar sınaqlarını davam etdirməklə yanaşı, yatağın işlənməsi ilə bağlı ümumi işlərə də dəstək verir. Ümumiyyətlə, bundan sonra "Xankəndi" gəmisi dənizdəki bütün tikinti, quraşdırma, müayinə, təmir və texniki xidmət işləri və fövqəladə hallara cavab tədbirləri üçün əsas gəmi kimi istifadə olunacaq. Bu da əməliyyatları daha təhlükəsiz və daha səmərəli edəcək.

Ötən aylar ərzində "İstiqlal" və "Heydər Əliyev" qazma qurğuları "Şahdəniz-2" layihəsi çərçivəsində quyular üzrə işləri davam etdirib. Bu layihə üzrə indiyədək 21 quyu qazılıb. Bunlara yatağın şimal cinahında beş, qərb cinahında dörd, şərq-cənub cinahında dörd, qərb-cənub cinahında beş və şərq-şimal cinahında üç quyu daxildir.

Xatırladaq ki, "Şahdəniz"də iştirak payları belədir: BP (29,99 faiz), "Cənub Qaz Dəhlizi" (21,02 faiz), LUKOYL (19,99 faiz), TPAO (19 faiz), NİKO (10 faiz).

Hazırda "Şahdəniz"dən Azərbaycan ("Azərkontrakt" ASC-yə), Gürcüstan (GOGC şirkətinə), Türkiyə (BOTAŞ şirkətinə) bazarlarına, çoxsaylı obyektlər üçün BTC-yə və Avropadakı alıcılara qaz çatdırılması davam edir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Öz səmtinə dönən Qarabağ suları torpağa "can verir"



**Təxminən üç onillik ərzində Ermənistanın nəzarətində olan ərazilərimizdəki iqtisadi resurslar Vətən müharibəsindəki zəfərdən sonra nəhayət ki, sahibinə qayıtdı. Dərhal Qarabağ və Şərqi Zəngəzurda bərpa-quruculuq işlərinə start verildi. Bu işlərin uğurunu şərtləndirən əsas səbəblərdən biri də regionun su ehtiyatlarının bərpası və maksimum istifadəsi oldu.**

Qarabağın və Şərqi Zəngəzurun su ehtiyatları bu gün Azərbaycanın aqrar sektorunda artıq özünə yer tutub. Bu ərazilərdəki münbit torpaqlar, gözəl iqlim xüsusiyyətləri su təsərrüfatından səmərəli istifadə olunmasını tələb edir. Burada aqrar sektorun inkişaf etdirilməsi birbaşa su təsərrüfatından asılıdır. Demək lazımdır ki, 2023-cü ildə "Su ehtiyatları, su təsərrüfatı və meliorasiya sahələrində idarəetmənin təkmilləşdirilməsi haqqında" fərman imzalayan Prezident İlham Əliyev yeni şəraitdə kənd təsərrüfatının geniş potensialından daha səmərəli istifadə olunması üçün ortaya güclü iradə qoyub. Bu gün Qarabağ və Şərqi Zəngəzurun su ehtiyatları - anbar və gölləri, çayları yetərincə isifadəyə yararlı hala gətirilib. Deməli, sənəddən irəli gələn tələbləri yerinə yetirmək üçün artıq bir maneə də yoxdur. Azad nəfəs alan region susuzluqdan xilas olub.

Rəsmi məlumata görə, işğal dövründə Qarabağda 10-dək su anbarı, 7 sututarı, 6426 kilometr uzunluqda suvarma şəbəkəsi, 2 hidroqovşaq, 330 kilometr uzunluqda kollektor-drenaj şəbəkəsi, 8003 hidrotexniki qurğu, 88 nasos stansiyası, 1429 ədəd subartezian quyusu olub. Ümumilikdə Azərbaycanın 125 800 hektar suvarılan torpaq sahəsi işğal altında qalmışdı. İşğaldan azad olunan ərazilərin çaylar, göllər, o cümlədən yeraltı sulardan ibarət su ehtiyatları təxminən 780 milyon kubmetr hesablanır. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatına görə, burada 14 çay və 9 su anbarı mövcuddur. Araz, Bərgüşad, Tərtər, Həkəri, Oxçu, Lev, Zabux, Tutqun, Turağay, Bəsit, Qarqar, Quru, Xaçın və Köndələn çayları Qarabağ ərazisindədir. Bu çayların bəzilərinin üzərində "Xudafərin", "Sərsəng", "Qız Qalası", "Xaçınçay", "Aşağı Köndələnçay", "Suqovuşan", "Köndələnçay-1", "Köndələnçay-2" və "Ağdamkənd" su anbarları yerləşir.

Ümumiyyətlə, işğaldan azad edilmiş ərazilərimiz Azərbaycanın su ehtiyatları ilə zəngin olan regionudur. Qazanılan şanlı zəfər sayəsində Qarabağ və Şərqi Zəngəzurda bu gün 2 milyard kubmetrdən artıq su ehtiyatından daha səmərəli istifadə etmək imkanı yaranıb. Xatırladaq ki, Ulu Öndər Heydər Əliyev keçmiş SSRİ dönəmində Azərbaycana rəhbərlik edərkən Qarabağdakı zəngin su ehtiyatlarından səmərəli istifadə edilməsi məsələsini həmişə diqqət mərkəzində saxlayıb. Ona görə də burada mükəmməl infrastruktur yaradılmasına nail olub. Ümummilli Liderin səyləri ilə Qarabağda inşa olunan mühüm su infrastrukturundan biri "Sərsəng" su anbarıdır. Strateji əhəmiyyətə malik "Sərsəng" su anbarı məhz Ulu Öndərin təşəbbüsü ilə tikilib. 1976-cı ildə Heydər Əliyev su anbarının açılışında şəxsən iştirak edib.

12 kilometr uzunluğu olan "Sərsəng" su anbarı Tərtər çayı üzərində 726 metr hündürlükdə inşa edilib və tutumu 565 milyon kubmetrdir. Anbarın bəndinin hündürlüyü isə 125 metrdir. Onu da deyək ki, "Sərsəng" öz bəndinin hündürlüyünə görə Azərbaycanda ən yüksək su anbarıdır. Meliorasiya və Su Təsərrüfatı ASC-nin məlumatına görə, "Sərsəng"dən götürülən su ilə Ağdərədə 14 min hektar, Tərtərdə 24 min hektar, Ağdamda 29 min hektar, Yevlaxda 6 min hektar, Goranboyda 7 min hektar, Ağcabədi rayonunda 2 min hektar torpağı suvarmaq imkanı var.

"Suqovuşan" su anbarı və magistral kanallar da Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə - 1976-cı ildə istismara verilib. Su anbarının ümumi su tutumu 5,86 milyon kubmetrdir. Bəndin üstdən uzunluğu 630 metr, hündürlüyü 28 metr, eni isə 10 metrdir. Su anbarının yerləşdiyi ərazi 28 il işğal altında olduğundan Tərtər rayonunda 24,5 min, Ağdərə ərazisində 14,4 min, Goranboy rayonunda 7 min, Yevlax rayonunda 5,9 min, Bərdə rayonunda 12,6 min, Ağdam rayonunda 30 min, Ağcabədi rayonunda 2 min hektar olmaqla, ümumilikdə 96 min hektardan çox torpaq sahəsinin su təminatında ciddi çətinliklər yaranmışdı.

Bütün dünyanın gözü qabağında Ermənistan işğal dövründə Azərbaycana qarşı ekoloji terror törədib və bundan həzz alıb. Torpaqları dədələrindən qalmış kimi özününküləşdirməyə çalışıb. "Sərsəng" və "Suqovuşan" su anbarlarından Azərbaycanın digər ərazilərinə su buraxmamaqla yanaşı, kiçik çayların axarlarını dəyişməkdən belə çəkinməyib. Bu, azmış kimi ermənilər Qırmızı Bazardan Füzuliyə tərəf gedən ərazidə çayın üstündə 3 su anbarı tikiblər. Qış aylarında gələn su axınlarını da kiçik kanallarla öz nəzarətlərində olan ərazilərə buraxıb, Füzulinin kəndlərinə tərəf gəlməsinə imkan verməyiblər. Prezident İlham Əliyevin qələbədən sonra Qarabağa ilk səfərlərindəki istiqamətlərdən biri də bölgədəki su ehtiyatları ilə bağlı görülən işlərlə tanışlıq idi. Su anbarlarının yenidən istismarı, hidroqovşaqların bərpası Böyük qayıdışın tərkib hissəsi olduğu üçün regionda su ehtiyatlarından təyinatı üzrə istifadə etmək zamanın tələbi idi. Odur ki, anbarların təmir-bərpa işlərindən sonra suların anbarlarda toplanması və qənaətlə istifadə edilməsi bu gün əsas hədəflərdəndir.

İşğal zamanı ermənilər içməli suların da qarşısını kəsmişdilər ki, bu da yaxın dağətəyi rayonlarda su qıtlığına səbəb olmuşdu. Azərbaycan əsgəri 44 gün ərzində bu probleme də son qoydu. "Yolunu azmış" Qarabağ suları öz səmtini dəyişib doğru tərəfə istiqamət götürdülər. Artıq doğma yurdlarına köç etmiş insanlar Qarabağ və Şərqi Zəngəzurun çaylarından, buz kimi bulaqlarından, artezian quyularından genbol istifadə edirlər. Mütəxəssislərin fikri belədir ki, Qarabağ çatlı vulkanik süxurların geniş yayıldığı ərazi olduğuna görə yeraltı sularla daha zəngindir və onlar nisbətən dağətəyi ərazilərdə səthə çıxaraq bulaq şəklində çayları qidalandırır. Hidrokimyəvi xüsusiyyətləri - kalsium hidrokarbonatlılığına görə onların ümumi codluğu nisbətən aşağıdır və bu çayların suları Azərbaycanda demək olar ki, ən keyfiyyətli sular hesab olunur. Xüsusilə də yuxarı hissələrində meyillilik və sululuq çox, axın sürəti böyük olduğundan bu çaylar hidroenerji ehtiyatları ilə də zəngindir. Onların Azərbaycanın digər sahələrindəki suvarma sistemlərinə daxil olması, eyni zamanda ərazidəki "Sərsəng", "Suqovuşan", "Ağdamkənd", "Xaçınçay" su anbarları ekoloji bərpa prosesinin sürətlənməsinə təkan verir.

Müharibədən sonra su anbarlarında aparılan təmir-bərpa işləri bu regionun torpağına "can verdi". Ötən ilin oktyabrında "Suqovuşan" su anbarı Prezident İlham Əliyevin iştirakı ilə işə salındı. Qarabağ və Şərqi Zəngəzurun bir sıra su anbarlarında bərpa işləri davam edir. Şübhəsiz ki, bərpadan sonra anbarlara toplanan sulardan səmərəli və qənaətlə istifadə edilməsi əsas hədəflərdən biri olacaq.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

## SOCAR "Neft Qaz Metan Tərəfdaşlığı"na qoşulub

**Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) qlobal miqyasda metan emissiyalarının azaldılması sahəsində ciddi niyyətini və bu istiqamətdə elan etdiyi dekarbonizasiya hədəflərinə sadiqliyini nümayiş etdirərək, "Neft Qaz Metan Tərəfdaşlığı"na (OGMP 2.0) qoşulub.**

SOCAR-dan AZƏRTAC-a verilən məlumata görə, bu tərəfdaşlığa qoşulmaqla SOCAR qlobal enerji sektorunda ətraf mühitin qorunması istiqamətində ən yaxşı təcrübələrin qazanılması, tətbiq olunması, habelə metan emissiyalarına dair daha ətraflı və beynəlxalq standartların tələblərinə uyğun hesabatvermə imkanı əldə edib.

"Neft Qaz Metan Tərəfdaşlığı"na qoşulma SOCAR-ın qlobal iqlim dəyişikliklərinə qarşı mübarizəyə verdiyi töhfənin bir hissəsi olmaqla, şirkətin uzunmüddətli dayanıqlı inkişaf strategiyasının məqsədlərinə xidmət edir.

OGMP 2.0 2014-cü ildə BMT-nin Ətraf Mühit Proqramı ("United Nations Environment Programme" - UNEP) tərəfindən təsis edilib. Proqram neft-qaz sənayesində metan emissiyalarına dair əhatəli ölçmə, emissiyaların azaldılması və hesabatlılığı özündə əks etdirən beynəlxalq platformadır.

"Neft Qaz Metan Tərəfdaşlığı"nın məqsədi metan emissiyaları haqqında dolğun məlumatların əldə edilməsi, emissiyaların azaldılması fəaliyyətinin təşviq olunması və ən yaxşı təcrübələrin tətbiqi ilə şəffaf hesabatlılığın aparılmasıdır.

## Qazaxıstan Orta dəhlizin inkişafı üçün kompleks tədbirlər görür

**Kurık limanının sularında naviqasiya təhlükəsizliyini təmin etmək üçün dərinləşdirmə işləri aparılır. Bu işlər Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (TITR) inkişafı çərçivəsində həyata keçirilən kompleks tədbirlərin tərkib hissəsidir və bu marşrut üzrə yüklərin daşınmasına artan tələbatın təmin edilməsinə imkan verəcək.**



AZƏRTAC Qazaxıstanın Nəqliyyat Nazirliyinə istinadla xəbər verir ki, prosesdə Avropanın iri "Jan de Nul" şirkətinin ixtisaslaşmış dərin qazma avadanlığından istifadə olunur. Belə ki, həmin şirkətlə EPC müqaviləsi imzalanıb və bu sənəd layihələndirmə mərhələsindən tutmuş dərinləşdirmə işlərinə qədər bütün prosesləri ehtiva edir.

Dərinləşdirmə işləri terminalın imkanlarının daha da genişləndirilməsinə şərait yaradacaq.

Bu gün Kurık limanının ötürücülük imkanı 6 milyon tondur (dəmir yolu terminalı - 4 milyon, avtomobil terminalı - 2 milyon). Liman eyni zamanda 250 yük maşını saxlamaq imkanına da malikdir. Analoji işlər Aktau limanında da aparılacaq.

Nazirlikdən verilən məlumata görə, cari ilin 7 ayı ərzində TITR vasitəsilə yükdaşımaların həcmi 62 faiz artaraq 2,5 milyon ton təşkil edib. 2023-cü ilin eyni dövründə bu göstərici 1,6 milyon ton olub.

Orta dəhliz kimi də tanınan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə vasitəsilə Çin və Avropa ölkələrini birləşdirir.

## "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında yeni rezident

**"Xanbulaq" MMC-yə "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının rezidenti statusu verilib, bununla da Sənaye Parkının rezidentlərinin sayı 12-yə çatıb.**

Şirkət tərəfindən Sənaye Parkının 2,5 hektar ərazisində 40 otaqlı hotelin və 100 nəfərlik restoranın tikintisi nəzərdə tutulur. İnvestisiya dəyəri 7 milyon manat olan layihə çərçivəsində 60 nəfərin işlə təmin edilməsi planlaşdırılır.

## Daha 600 şəxs üçün peşə kursları təşkil edilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən daha 600 şəxs peşə hazırlıq kurslarına cəlb edib.**

Onlardan 300-dək şəxs üçün agentliyin Bakı, Gəncə, Göyçay və Qarabağ Peşə Hazırlığı mərkəzlərində, qalanları üçün özəl tədris müəssisələrində peşə kursları təşkil edilib.

İşəgötürənlərlə əməkdaşlıq çərçivəsində təşkil olunan kurslarda ərzaq və qeyri-ərzaq mallarının satıcısı, mühasib, sosial media mütəxəssisi, tikiş avadanlıqlarının operatoru, tikişçi, aşpaz, dərzi, elektrik qaz qaynaqçısı və s. peşələr üzrə nəzəri biliklər tədris edilməklə yanaşı, müəssisələrdə təcrübə keçmək imkanı da yaradılıb.

Kursların sonunda məzunlara sertifikatlar təqdim ediləcək və onların işlə təmin olunmalarına dəstək göstəriləcək.






# Gənclik






**Gələcəyə dəstək**



## Azərbaycan gəncliyi könüllülük hərəkatına böyük töhfələr verib

**Ömrün gənclik çağları sağlamlıq, fiziki və zehni güc-qüvvət, cəsarət, qorxmazlıq, dözümlülük, vətənpərvərlik kimi ali dəyərlər, hisslər, xarakterik cizgilərlə mətinləşir.**

Lakin Azərbaycan müstəqillik qazandıqdan sonra yeniyetmə və gənclərimizdə daha bir xüsusiyyət - könüllülük nəzərəçarpacaq şəkildə özünü göstərməyə başladı. Fərdi və kollektiv fəaliyyətdə, mülki və hərbi sahələrdə, fövqəladə vəziyyətlərdə, ictimai-siyasi, mədəni-kütləvi tədbirlərin, idman yarışlarının təşkilində, ümumxalq bayramları və digər əlamətdar günlərdə könüllülər daim öndə oldu.

Könüllülük - öz iradəsi və sərbəst seçimi əsasında cəmiyyətin rifahının daha da yaxşılaşdırılmasını qarşıya məqsəd qoyan sosial fəaliyyət istiqamətidir. Müasir Azərbaycanda bu sahədə real inkişaf Ulu Öndərin hakimiyyətə qayıdışından sonra başlayıb. 1998-ci ildə ölkədə Gənclər, İdman və Turizm Nazirliyi, BMT-nin İnkişaf Proqramı və Könüllülər Proqramının birgə layihəsi fəaliyyətə başladı. 1998-2000-ci illərdə bu proqramın nəticəsi olaraq ölkədə güclü könüllü komandası yaradıldı və könüllülük prinsiplərinin geniş auditoriyaya təbliğinə start verildi.

XXI əsrin əvvəllərindən respublikamızda yüksək neft gəlirləri ilə müşayiət olunan yeni dövrdə Prezident İlham Əliyevin reallaşdırdığı siyasətin əsas məqsədlərindən biri neft kapitalının insan kapitalına çevrilməsi idi. Qarşıya qoyulan məqsədləri gerçəkləşdirmək üçün innovativ və geniş kütlənin maraqlarına cavab verən yeni addımlara ehtiyac vardı və əlbəttə, bu sahədə könüllülüyün önəmi danılmaz idi. 2009-cu il iyunun 9-da "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanunu imzalandı. Bu qanun hüquqi və fiziki şəxslərin əvəzi ödənilməyən ictimai faydalı fəaliyyəti sahəsində münasibətlərini tənzimlədi. 2013-cü il fevralın 22-də "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edildi. Burada məsələyə hüquqi münasibət bir qədər də təkmilləşdirildi.

Prezident İlham Əliyevin 2017-ci il 15 sentyabr tarixli sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə Dövlət Proqramı"nda və 2019-cu il fevralın 1-də Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısındakı çıxışında dövlət orqanlarına gənclərin potensialından daha səmərəli istifadə etmək, cəmiyyətin bütün sahələrində onların fəal iştirakına şərait yaratmaq, peşə vərdişlərini aşılamaq və təcrübi biliklərini artırmaq, yaradıcı və innovativ bacarıqlarının üzə çıxarılmasını dəstəkləmək və eyni zamanda könüllülük hərəkatının inkişafı vəzifəsi qoyulmuşdur. Könüllü kimi 2 ay müddətində işləyib müqavilə öhdəliklərini uğurla başa vuran gənclərin hər birinə xüsusi sertifikatlar verilir ki, bu da onların növbəti iş həyatına uğurlu bir keçid fürsətidir.

Ölkəmizin güclü bir dövlətə çevrilməsində, insanların rifahının getdikcə yaxşılaşmasında könüllülər də mühüm rol oynayırlar. Xüsusilə son illərdə könüllülük hərəkatı respublikamızın davamlı inkişafının təmin olunmasında daha çox diqqət çəkir. 2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ("ASAN xidmət") yanında aktiv və konstant könüllü təşkilat olan ASAN Könüllüləri Təşkilatı (AKT) yaradıldı. 1 saylı "ASAN kommunal" mərkəzinin açılışında Prezident İlham Əliyev könüllülərin rolunu yüksək qiymətləndirdi: "Əlbəttə ki, biz "ASAN xidmət"i könüllülər hərəkatından ayıra bilmərik. Bu da bir yenilikdir. "ASAN" yaranana qədər Azərbaycanda könüllülər hərəkatı olmamışdır. Biz könüllülər haqqında eşitmişdik. Ancaq "könüllülər hərəkatı nədir?" - onu bilmirdik. Bu gün artıq bu hərəkat Azərbaycanda yaşayır. Mənə verilən məlumata görə, 10 min gənc artıq könüllü kimi "ASAN xidmət" mərkəzlərində işləyib və bu insanların bir çoxu bu gün müxtəlif vəzifələrdə, müxtəlif işlərdə ölkəmizin gələcək inkişafı üçün çalışırlar. Hazırda bütün bu mərkəzlərdə 700-dən çox könüllü fəaliyyət göstərir".

Müxtəlif vaxtlarda evsahibliyi etdiyimiz "Avroviziya-2012" Mahnı Müsabiqəsi, 2015-ci ildə I Avropa Oyunları, 2017-ci il IV İslam Həmrəyliyi Oyunları, "Formula -1" və digər mötəbər, irimiqyaslı tədbirlərə on minlərlə könüllü cəlb olundu. Bu tədbirlərin keçirilməsi nəticəsində ölkəmizdə beynəlxalq miqyasa çıxarılacaq böyük potensiala malik, eyni zamanda təcrübəli könüllü bazası formalaşdı. Qazanılmış uğurlarda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rolu danılmazdır. Məhz Mehriban xanım Əliyevanın əzmkar fəaliyyəti nəticəsində yuxarıda qeyd edilən mötəbər tədbirlərdə on minlərlə könüllünün fəaliyyəti yüksək və professional səviyyədə təşkil edildi.

Əlbəttə, nailiyyətlərimiz və könüllülük hərəkatı barədə danışarkən biz heç zaman işğaldakı torpaqlarımızın azadlığı və suverenliyimizin tam bərpası uğrunda mücadilələri, gənclərimizin ölüm-dirim savaşlarındakı şücaətlərini unuda bilmərik. Bu gün isə könüllü gənclərimiz bütün Azərbaycan kimi qarşıdakı BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlaşırlar və bu məsul vəzifənin öhdəsindən də yüksək səviyyədə gələcəklərinə heç bir şübhə yoxdur.

***Qurban MƏMMƏDOV,***
***"Azərbaycan"***

**Ölməzliyə qovuşanlar**

## On səkkiz yaşlı qəhrəman



**Ailəsinin tək oğlu idi. Doğmaları hələ boyuna doyunca baxıb sevinməmişdilər. Şəhid olanda on səkkiz yaşı vardı. Bu qısa ömrünü əbədiyyətə qovuşduracaq qədər dolğun, mənalı ömür yaşadı Xaləddin Cəlilov...**

O, əslən Ağstafa rayonundan idi. 2002-ci il aprelin 13-də Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində dünyaya göz açmışdı. 2003-cü ilin noyabrında ailəsi ilə birlikdə Azərbaycana, Ağstafaya gəlmişdi. Ağstafa rayonundakı A.Abdullayev adına 2 saylı tam orta məktəbdə oxumuşdu.

Xaləddin kiçik yaşlarından idmanı çox sevirdi. Onun idmançı olmaq istəyini ailə üzvləri də dəstəklədi. İdmanla məşğul olmağa başlayan Xaləddin Cəlilov çox keçmədi ki, onları öz uğurları ilə sevindirdi. O, məktəb illərində dəfələrlə iştirak etdiyi idman yarışlarında diplom və medallara layiq görüldü.

Xaləddin Cəlilov üçün 2019-cu il çox uğurlu oldu. Həmin ilin iyulunda Türkiyənin Antalya şəhərində keçirilən dünya çempionatında iştirak etdi. Öz çəkisi üzrə bütün rəqiblərinə qalib gələrək, çempion adını qazandı. 2019-cu il oktyabrın 18-də Ağstafa Rayon İcra Hakimiyyəti tərəfindən "İlin idmançısı" adına layiq görüldü, fəxri fərmanla təltif edildi.

2019-cu ildə Cəlilabad rayonunda keçirilən Mübariz İbrahimovun timsalında bütün şəhidlərin anım gününə həsr olunmuş yarışın qalibi olmasının anlamı isə Xaləddin üçün xüsusilə böyük idi. Xaləddin Cəlilov da Azərbaycanın bir çox gənci kimi Milli Qəhrəman Mübariz İbrahimovun igidliyinə, rəşadətinə, vətənsevərliyinə heyran idi. O, Mübariz İbrahimov kimi qəhrəman olacağını söyləyirdi.

Həmin ilin Xaləddinin həyatına gətirdiyi uğurlar bununla da bitmədi. 2019-cu ildə o, məzun oldu. Növbəti hədəfinə çatmaq üçün Bakı şəhərinə üz tutdu. Həmin il Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına daxil oldu. Bu akademiyada təhsil almaq Xaləddinin çatmaq istədiyi ən böyük arzularından biri idi. Ancaq Vətən sevgisi bütün arzularının zirvəsində dayanmışdı. Xaləddin Cəlilov 2020-ci ildə təhsilinə ara verərək hərbi xidmətə yollandı. Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə başladı. Xaləddin Cəlilabad rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət edirdi. O, ilk günlərdən özünü nümunəvi əsgər kimi göstərdi. Cəsarətli, qorxmaz, çevik, ayıq-sayıq olan Azərbaycan Ordusunun əsgəri Xaləddin Cəlilov kəşfiyyat qrupuna seçildi.

2020-ci il sentyabrın 27-də İkinci Qarabağ müharibəsi başlayanda Xaləddin Cəlilov da işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı döyüşə yollandı. O, Xüsusi Təyinatlı Qüvvələrin sıralarında döyüşçü yoldaşları ilə birlikdə düşmənə ağır zərbələr endirirdi.

Şiddətli döyüşlər gedirdi. Qəhrəman oğullarımız Azərbaycanın əzəli ərazilərindən olan Qarabağda və Şərqi Zəngəzurda Ermənistanın otuz ilə yaxın davam etdirdiyi işğala son qoymaq, torpaqlarımızı geri qaytarmaq naminə misilsiz hünər, hərbi məharət göstərirdilər. Xaləddin Cəlilovun daxil olduğu kəşfiyyat qrupu 17 post alaraq, yüzlərlə erməni əsgərini məhv etdi.

Xaləddin Murovdağ istiqamətində gedən döyüşlər zamanı ağır yaralandı. Azərbaycan Ordusunun əsgəri Xaləddin Cəlilov sentyabrın 30-da Murovdağ döyüşləri zamanı tapşırığı yerinə yetirərkən şəhid oldu. Ağstafa rayonunda dəfn edildi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında qəhrəmanlıq göstərən igid döyüşçü Xaləddin Cəlilov ölümündən sonra Prezident İlham Əliyevin sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü" medalları, "Azərbaycan Bayrağı" ordeni ilə təltif edildi.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## "Gələcək üçün bacarıqlar" layihəsinin veb-saytı istifadəyə verilib

**Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "İnnovasiyalar Mərkəzi" tərəfindən həyata keçirilən "Gələcək üçün bacarıqlar" layihəsinin veb-saytı istifadəyə verilib.**




Agentliyin İctimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, sayt inkubasiya proqramlarında iştirak edən startap layihələrinin tanıdılması, təşəbbüslərinin dəstəklənməsi, inkişaf etdirilməsi və investisiya imkanlarının genişləndirilməsi məqsədilə yaradılıb. Platforma sektorlar üzrə maraqlı investorları bir araya gətirərək startap layihələrinin inkişafına təkan verir.

Saytda layihənin "Tusi (2C) inkubasiya proqramı"nda iştirak etmiş komandalarının startap ideyaları haqqında ASAN TV vasitəsilə hazırlanan videolar yerləşdirilib. Videoda startaplarla ətraflı tanış olan və layihəyə investisiya etmək istəyən investorlar "İnvestisiya et" düyməsinə klikləməklə müraciət edirlər. Müraciətdən sonra tərəflərin görüşü təşkil olunur ki, bu da investorların asan və sürətli şəkildə layihələrə dəstək verməsinə imkan yaradır.

Saytda həmçinin "İnkubasiya proqramı"na qoşulmaq və ya ideyalarını göndərmək istəyən tələbə və gənclər üçün qeydiyyat formaları mövcuddur. Bu formaları doldurduqdan sonra uyğun startaplar və ya gənclər proqrama qoşula bilərlər. Beləliklə, sayt tələbələr və gənc təşəbbüskarlara ideyalarını həyata keçirmək, inkişaf etdirmək və sektorda öz yerlərini tapmaq üçün böyük bir imkan yaradır.

Layihə universitetlərdə müəllimlərin mentor kimi hazırlanması üzrə "Mentorluq proqramı"nı və mentorların iştirakı ilə tələbələrin öz ideyalarından startaplar formalaşdırmaları üzrə iki "İnkubasiya proqramı"nı əhatə edib.

Ümumilikdə layihəyə 2 mindən çox tələbənin 181 startap ideyası təqdim olunub. Bu çərçivədə universitetlərdə mentor kimi hazırlanmış 130-dan çox müəllimin dəstəyi ilə 98 startap komandası formalaşdırılıb. Layihənin rəsmi bağlanış tədbirində ümumi inkubasiya proqramlarının yekunu olaraq formalaşdırılan 19 startap komandası layihələrini təqdim edib və münsiflər heyəti tərəfindən qiymətləndirilən 3 komanda mükafatlandırılıb.

**Uğura imza atanlar**

## Şahmatçımızın beynəlxalq səviyyəli uğurları qürurvericidir

**Məhəmməd Muradlının adı idman ictimaiyyətimizə çoxdan tanış olsa da, o, son illərdəki uğurları ilə yenidən diqqət mərkəzindədir. Belə ki, nüfuzlu yarışlarda iştirakı, əldə etdiyi qələbələrlə öz aktivini zənginləşdirərək reytinq cədvəlində irəliləməsi nəzərdən qaçmır. O, ölkəmizin, xalqımızın, şahmatımızın adının nüfuzlu turnirlərdə çəkilməsinə, beynəlxalq aləmdə ünvanımıza xoş sözlər söylənilməsinə səbəb olur.**



Azərbaycan şahmatçısı cari ilin may ayında Avstriyada keçirilən "Grand Prix Plus City" turnirinin blits mərhələsində 13 turdan sonra 11 xal toplayaraq birinci yeri tutub. İyunda isə Birləşmiş Ərəb Əmirliklərində təşkil edilən "Dubai Open 2024" beynəlxalq turnirinin qalibi adını qazanıb. Son tura lider kimi başlayan təmsilçimiz çinli Dai Çanqrenlə heç-heçə oynayaraq xalları yarı bölüb. 9 turda ümumilikdə 7 xal toplayaraq yarışmanı qələbə ilə başa vurub.

Gənc şahmatçımız uğurlarını öz zəhməti, valideynlərinin dəstəyi, Şahmat Federasiyasının təşkilatçılığı ilə bərabər, ölkəmizdə idmana, idmançılara dövlət qayğısı ilə izah edir: "Cənab Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın gəncliyə, idmana, təhsilə qayğısı biz gəncləri daim Vətənimizin layiqli vətəndaşı olmağa, eləcə də yeni qələbələrə səsləyir. Çalışacağam ki, bundan sonra da uğurlarımla ailəmin, xalqımın, dövlətimin başını uca edim, üçrəngli bayrağımız dünyanın məşhur arenalarında ən mötəbər yarışlarda dalğalansın. Qələbələrimin böyük bir qismini şəhidlərimizin uca ruhuna ithaf edirəm!"

Ötən il də idmançımız üçün uğurlu olub. Məhəmməd Muradlı İtaliyanın Sardiniya adasında keçirilən 20 yaşa qədər qız və oğlan idmançılar arasında blits üzrə dünya çempionu olub. O, 11 oyundan 9,5 xal toplayaraq qızıl medal qazanıb. 2022-ci ili isə M.Muradlı müstəqil Azərbaycan tarixinin 27-ci qrossmeysteri kimi yekunlaşdırıb. Beynəlxalq Şahmat Federasiyası (FIDE) idmançımızı beynəlxalq qrossmeyster kimi siyahıya daxil edib.

O, hələ 2016-cı ildə Bakıda təşkil olunan 42-ci Ümumdünya Şahmat Olimpiadasında da kişilərdən ibarət üçüncü komanda heyətində mübarizə aparmışdı.

2019-cu il noyabrın 5-də daha bir şad xəbər idman ictimaiyyətimizdən başqa, xalqımızı da sevindirib. Türkiyənin Çorum şəhərində keçirilən 16 yaşadək şahmatçılar arasında Dünya Şahmat Olimpiadasında Azərbaycan yığma komandası son turda olduqca gərgin qarşılaşmada güclü Çin yığmasını 2.5:1.5 hesabı ilə məğlub edərək tarixində ilk dəfə Olimpiya çempionu məqamına yüksəlib. Çempion adı qazanmış komandanın heyətində Məhəmməd Muradlı, Vüqar Manafov, Aydın Süleymanlı, Əhməd Əhmədzadə və Gövhər Beydullayeva təmsil olunublar.

Məhəmməddə hələ uşaqlıqdan ağqara fiqurlara böyük maraq, həvəs və sevgi yaranıb. 8 yaşında ikən oğlanlar arasında Azərbaycan çempionatının qalibi olub. 2012-ci ildə Çexiyanın Praqa şəhərində 10 yaşlılar arasında Avropa çempionatında 5-ci yer tutaraq ELO əmsalını 117 xal artırıb. Həmin ildə İranın Rəşt şəhərində keçirilmiş "Xəzər kuboku"nda 10 yaşlı şahmatçılar arasında 3-cü pillədə qərarlaşıb. Bir il sonra 10 yaşlıların Bakı və Azərbaycan çempionu titulunu qazanıb. Rusiya paytaxtındakı "Moskva Open" turnirində 10 yaşı olmasına baxmayaraq, 11 yaşlılar arasında 9 mümkün xaldan 8.5 toplayıb və turnirin qalibi seçilib. 2014-cü ildə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş ümumtəhsil məktəbləri şagirdlərinin Respublika şahmat festivalında 12 yaşlılar arasında birinci yeri tutub. Yunanıstanın Kavala şəhərində məktəblilər arasında şahmat üzrə Avropa çempionatında yaşı 11-dək olan şahmatçılara qalib gəlib. 2015-ci ilin mart ayında 12 yaşadək oğlanlar arasında şahmat üzrə Bakı şəhər birinciliyində qızıl medal qazanıb. Yenə də Yunanıstanın Halkidiki yarımadasında keçirilmiş 12 yaşadək şahmatçılar arasında dünya çempionatında 11 oyundan 9 xal toplayaraq birinci olub. Bu qələbəsi ilə öz reytinq əmsalını 121 xal artıraraq FİDE ustası titulunu qazanıb.

Bir neçə gün öncə gənc və perspektivli şahmatçımızın 21 yaşı tamam oldu.

***Q.MƏMMƏDOV,***
***"Azərbaycan"***

## Növbəti "Ehtiyat zabit hazırlığı" kursu başa çatıb

**Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində növbəti "Ehtiyat zabit hazırlığı" kursunun başa çatması münasibətilə mərasim keçirilib.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən verilən məlumata görə, mərasimdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, ölkəmizin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Məzunlara Müdafiə Nazirliyi rəhbərliyinin təbrikləri çatdırılıb, onlara gələcək xidmətlərində uğurlar arzulanıb.

## Misirdə Azərbaycan dilini öyrənən tələbələrə diplomlar təqdim edilib

**Misir-Azərbaycan Dostluq Cəmiyyətində Azərbaycan dilini öyrənən tələbələrə diplomlar təqdim edilib.**



Misir-Azərbaycan Dostluq Cəmiyyətindən bildirilib ki, buradakı kurslarda müxtəlif fənlər üzrə ödənişsiz əsasda təhsil alan tələbələrə diplomların təqdimatı mərasimi keçirilib.

Mərasimdə müxtəlif ölkələrdən olan tələbələrə 85 diplom və sertifikat, o cümlədən Azərbaycan dilini öyrənən tələbələrə 18 diplom təqdim olunub.

Tədbirdə çıxış edən Misir-Azərbaycan Dostluq Cəmiyyətinin sədri, tədqiqatçı-alim Seymur Nəsirov Azərbaycanın Misir və digər ərəb ölkələri ilə əlaqələrinin tarixindən və hazırkı yüksək səviyyəsindən bəhs edib. O qeyd edib ki, 2014-cü ildən fəaliyyət göstərən cəmiyyətdə indiyədək 57 ölkədən 2500-ə yaxın tələbə təhsil alıb və hazırda 57 ölkədən olan 600-dən çox gənc ödənişsiz əsasda təhsilini davam etdirir.

«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 31 mart (Bazar ertəsi günü) tarixli 147-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Bazar ertəsi, 28 cəmadiyəlaxir sənə 1337.
31 mart sənə 1919.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 80 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## ELAN

Azərbaycan Məclisi-Məbusanının 31 marta təyin edilmiş növbəti iclası, Bakı facieyi-əziməsinin səneyi-dövriyyəsi [böyük Bakı faciəsinin ildönümü] gününə təsadüf etdiyindən, həman gündə minlərcə şəhid olan məsum və məzlumların ehtirami-ruhları üçün təxir və Məclisi-Məbusan idarəsi tətil edəcəyi elan olunur.

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Əliheydər Qasımov və Kərbəlayı Məhəmmədəli bəy Xanlarov, əvvəlincinin atası və ikincinin dayısı Hacı Məhəmmədtağı Qasımovun vəfat etdiyini kamali-hüzn və təhəssürlə [böyük bir kədər və həsrətlə] öz qövm-əqrəbalarına və dostaşnalarına xəbər verirlər. Mərhumun təşyiyi-cənazəsi [cənazəsinin yola salınması] bu gün mart ayının 31-ində saat 10-da İçəri şəhərdə Sabornı küçədə 7 nömrəli evdən Şah məscidinə aparılacaqdır.

5775

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Əbülqasım Hüseynzadə Hacı Məhəmmədtağı Qasımovun vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövməqrə balarına və dostaşnalarına xəbər verir. Mərhumun təşyiyi-cənazəsi bu gün mart 31-ində saat 10-da İçəri şəhərdə Sabornı küçədə 7 nömrəli evdən Şah məscidinə aparılacaqdır.

5776

## UNUDULMAZ FACİƏ!

Martın 31-i bizə Azərbaycan tarixi-siyasətində unudulmaz üç günü xatırladır.

Günlər var ki, sevincinin böyüklüyü ilə, günlər də var ki, fəlakət və qüssəsinin əzəməti ilə unudulmaz.

31 Mart ikinci günlərdən idi. Bu gün tarixin qeyd edə bildiyi "aşura", "bartelemey" (varfalameyevski noç) kimi xainanə bir surətdə hazırlanmış siyasi faciə lərdən birisi idi.

Bizə deyə bilərlər ki, Hərbi-ümumi səfəhatı [Dünya müharibəsinin səhifələri] arasında Mart hadiseyi-əliməsini dəfələrlə ötən əsəfli [təəssüflü] hadisələr vaqe olmuşdur. Bunun üçün dəxi Mart gün lərində Bakı soqaqlarında [küçələrində] icra olunan məzalim və qitalı [zülüm və qırğını] Ərəbistanın qızğın çöllərində və yaxud Firəngistanın inqilabla qaynar şəhərlərində hadis olan [baş verən] uzaq misallarla müqayisə etməyə nə hacət!

Əvət, doğrudur. Doğrudur ki, Belçikada, Serbiyada, Türkiyədə, Acarıstanda, nəhayət Qars, Muş, Van və sair yerlərdə, hətta Hərbi-ümumidən rəsmən xaricdə qalan İranda, Urmu, Salmas və Xoyda, şəklən Bakı hadisəsinə bənzər və bəlkə də bundan daha fəci hadisələr vaqe olmuşdur.

Bunlar doğrudur.

Biz Bakıdakı Mart hadisələrini yada salarkən şübhəsiz ki, o günlərdə icra olunan vəhşətə, zülümə, yaxılan xanimanlara, parçalanıb da divarlara mıxlanan yav rulara, hətk olunan [tapdalanan; yırtılan] irz və namuslara dəxi ətfi-nəzər edir [nəzər salır] – insanın bir anda dönüb canavardan da betər hala düşmək ləyaqətində dəxi olduğunu böyük bir hissi-infial və şərməndəliklə [həyəcan və xəcalət hissi ilə] görürüz.

Fəqət Mart günlərinin əsl faciəsi bu cəhətdən də deyildir.

Martda söylədiklərimizdən və söyləyəmmədiklərimizdən daha böyük, daha şəni [biabırçı], daha mərdud [alçaqca], daha iyrənc bir hadisə vaqe olmuşdu.

İctimai bir inqilab nam və pərdəsilə ortaya çıxıb, milli bir ədavət icra edilmişdi.

Burjuaziyə elani-hərb edilib, əmələ və kəsəbə [fəhlələr və proletariat] qırılmışdı.

"Müsavat"a xitabən elani-hərb edilib, nəticədə sosialist, bolşevik və "Müsavat", heç birisinə fərq qoyulmadan kəsilmək və atılmaq üçün müsəlman olmaq kafi gəlmişdi.

Bu nöqteyi-nəzərdən şaumyanların Bakıda çıxardıqları hadisə, leninlərin Petroqrad və Moskvadakı hərəkətlərinə qətiyyən bənzəməzdi. Orada sinfi bir hərb, burada isə sinif hərbi namı altında milli bir qital [qırğın], bir qitaliamm [kütləvi qırğın] icra olunurdu.

Daşnaklar intiqam alırdı.

Bu intiqam hər növ qonşuluq, inqilabdaşlıq, vətəndaşlıq hissini korladır, yan-yana sülh və müsalimətlə [əmin-amanlıqla] yaşayan millətləri sənələrlə biri-birindən ayırırdı.

* * *

Bolşeviklər "Sizə muxtariyyət deyil, xərabələr verəcəyiz" deyirlərdi. Müttəfiqləri daşnaklar da indi izah edirlər ki, Bakını sahiblərinin əlindən çıxarmaları ilə onlar erməniliyi mühafizə edirlərmiş.

Həqiqətdir ki, martın 18-indən 21-inə qədər Bakı türk demokratiyasının qafasında patladılan toplar, müsəlmanlar haqqında rəva görülən məzalim, Azərbaycan fikrini daşıyan, muxtariyyət və istiqlal əqidəsi ilə pərvərdə olan [bəslənən; yetişən] vücudları məhv etmək üçün idi.

Fikir öldürülmək istənilirdi. Millət kəsilirdi.

Fəqət kəndiləri inqılabçı ikən, inqilabın böyük düsturunu unudurlardı:

– Məş'əli-əfkari-əhraranə sönməz xun ilə!

Martda tökülən qanlar türklərdəki milliyyət və hürriyyət fikrini, Azərbaycan atəşi-müqəddəsini söndürəmmədi!

Bakı küçələrində tökülən nahaq qanlar bir "piysuz" [şam; çıraq], yaxılan İsmailiyyə isə bir "iplik" işini görərək ürək lərdə söndürülmək istənilən hürriyyət məşəlini daha ziyadə tutuşdurdu.

Qanlar içində boğdurulmak istənilən Azərbaycan fikri, bu kərə müstəqil bir hökumət şəkili ilə təcəlli etdi [meydana çıxdı]!

Bakı bir qan, bir fitnə ocağı deyil, paytaxtımız oldu!

* * *

Bu gün Mart hadisələri kimi böyük bir riyazət [çətinlik] nəticəsində kəndi haqqını istirdad etmiş [geri almış] olan paytaxtımızda 31 Mart şühədasının [şəhidlərinin] ruhi-məzlumuna [məzlum ruhuna] fatihələr oxurkən, bir şeyi xatırlatmaq istərəm.

Mart hadisəsindəki müvəffəqiyyətsizliyin ən böyük səbəbi, bunu artıq hər kəs təsdiq edir ki, camaatımızın başsızlığı, o vaxta qədər bildiyi camaat xadimlərinə və siyasi firqə rəislərinə deyil, qeyri-məsul adamlara, ağlından ziyadə hissiyyatına tabe şəxslərə uyduğu olmuşdur.

Ləhülhəmd [Allaha şükür olsun], bu gün o vəziyyətdə deyiliz. Millətin müqəddəratından məsul hökumətə və bu hökuməti doğmuş Parlamana malikiz.

Hökumət və Parlamanımızın, bütün nöqsanı ilə bərabər bir məziyyəti var ki, böhranlı və məsuliyyətli dəqiqələrdə millətə başçılıq edir, onu hər hissiyyata qapılmış yol ötən "mücahid"lərin şərindən saxlaya bilir.

Bunun üçün lazımdır ki, biz bütün hərəkatımızda etidaldan [təmkindən; soyuqqanlılıqdan] uzaqlaşmayıb, sükun və intizamı pozmayalım.

Tətil heyəti bizi bu gün matəmə dəvət edir. Bu dəvətə icabət edərək [razılıq verərək; tabe olaraq], bütün həyatı durduraraq Mart şühədasının ruhi-məzlumu qarşısında diz çökəlim. Çökəlim də deyəlim ki:

Siz məzlum oldunuz. Biz sizin bu məzlumiyyətinizi təlafi etdirmək [əvəzini çıxmaq] üçün qanınız bahasına aldığımız hürriyyət və istiqlalı bərk saxlayacağız!

*M. Ə. Rəsulzadə*

## 31 MART

*Şanidəm qusfəndi ra bozorgi*
*Rəhanid əz dəhan o dəst e qorgi*
*Şəbangəh kard bər holgəş bemalid*
*Rəvan e qusfənd əz vey benalid*
*Ke əz çənqal e qorgəm dər robudi*
*Çe didəm aqibət qorgəm to budi*

Rus mütləqiyyət istibdadını kökündən yıxmış olan rus inqilabi-kəbiri [Böyük Rus inqilabı], mütləqiyyətin zənciri-əsarətinə giriftar olmuş olan millətləri azad etdi. Əsrlərcə zəncirbənd qalmış olan zavallı millətlər, uyuşmuş bədənlərinə bir hərəkət verib qolqanadını açmaq istəyirdi ki, mütləqiyyət istibdadı əvəzinə Rusiyada bolşevizm istibdadı caygir olub [yerləşib], bədbəxt millətləri təkrar əsarət zəncirinə vurmaq əməlinə girişdi.

Bolşevizm amalına qarşı müqavimət göstərmək istəyənlərlə "qrajdan" müharibəsi açan və istiqlal üzrə yaşamaq istəyən və böylə yaşamaya haqqı olanlarla dəxi milli cəngə girişən rus bolşevizmi, "azad millətlər" şüarını həqarətlə tapdalayıb, bu millətlər füqərayi-kasibəsinin [proletariatının] və demokratiyasının [xalqının] canını və malını dəmir və atəşə tutmaqdan çəkinmədilər.

O idi ki, rus bolşevizmi araya bir "qrajdanski" və bir də milli olmaq üzrə iki rəngli müharibə salıb çaylarca qanlar axıtdı, milyonlarca bəşər övladını tələf etdi, yüz minlərcə evlər viranə qoydu və bu qanlı vəq'ədən [hadisədən] hasil olan təəssürat, təbii, böylə bir əqidə törətməsinə səbəb oldu ki, rus inqilabı yalnız bir rusluğa müxtəss [xas, məxsus] olub, çarizm istibdadını qaldırmaqla, deyil, ümum millətləri, bəlkə rus xalqını bu istibdad təhtindən [altından] qurtarıb, digər millətləri təkrar əsarət altında baqi [daimi, qalıcı] saxladı. Yalnız bir fərq bu oldu ki, bu əsirlərin keşikçiləri əvvəl rus çarizmi idi, bu səfər isə rus bolşevizmi oldu. Hər halda əsirlik aradan götürülmədi. Qurd əlindən qurtarılmış quzu, qurtaranın yemi olmaq məcburiyyətində qaldı...

Bir əsr bundan əvvəl müstəqil yaşamaqda olan azəri türkləri, rus istibdadının yıxıldığını görüb təkrar müstəqil yaşamaq ümidi-fərəhbəxşilə [fərəhləndirən ümidi ilə] şad olub, istiqlala hazırlaşmaq üçün tədarükatda bulunmağa başladılar. Lakin yeni hakimlərimiz bu fikrimizi duyub, həman dəm əks tədarükat görməyə iqdam edib [başlayıb], "Biz sizə istiqlal əvəzində xarabazarlar verərik, toprağınızda daşı-daş üstə qoymarıq" deyə, barmaq işarəsilə hədələdilər.

İstiqlalımıza qarşı ittixaz edilmiş [həyata keçirilmiş] olan suiqəsdlərində özlərini "inqilabçılıq" nöqteyi-nəzərindən haqlı göstərmək niyyətilə, adımızı "kontrre-volyusaner" [əksinqilabçı] qoyub, hücuma hazırlandılar. Hazırlanıb da başımıza Mart fəlakətini gətirib, hədələrinə müvafiq olaraq, paytaxtımızı xarabazara döndərdilər.

Çarizm zənciri-əsarətindən yenicə qurtulmuş olan azəri türkləri bir əsr müddətində əsarətin ağırlıqlarından o qədər zəif düşmüşdü ki, istiqlalını müdafiə etməyə və istiqlal düşmənlərinə qalib gəlməyə qüdrəti yox idi. Bu zəiflik, deyil yalnız maddi və cismani qüvvətimizi, bəlkə bütün mənəvi və ruhani qüvvələrimizi də şamil olub [əhatə edib], bədənimizin bütün qüvayi-ruhaniyyə və cismaniyyəsini [mənəvi və fiziki qüvvətlərini] atil [fəaliyyətsiz] qoymuşdu və bu ətalət o də rəcə idi ki, özümüzü müdafiə vəziyyətinə salmağa dəxi qüdrətimiz olmayıb, düşmənin hücum və təərrüzləri [təcavüzləri] qarşısında üryan bir bədənlə əli-qolu bağlı yıxılıb, "ölüm-dirim" məsələmizin o tövr və ya bu tövr həlli düşmənin rəhminə və ya rəhmsizliyinə bağlı idi.

Bundan fəna bir hal olmaz ki, sənə qarşı təcavüz edilə və sənin də bu təcavüzü dəf etməyə heç bir vəsilən [vasitən, vəsaitin] olmaya!

Bakı müsəlmanları Mart günlərində bu halda idilər!

Və əgər türklər, Osmanlı türk qəhrəmanları vaxtlı-vaxtında gəlməsə idilər azəri türkləri Bakı həzimətindən [məğlubiyyətindən] sonra özlərini yığışdırıb müdafiəyə hazır olmağa fürsət tapınca, deyil bir Bakıda, Şamaxıda, bəlkə ümum Azərbaycanda daş-daş üstə qalmazdı...

Keçən keçdi və olan oldu. Mart hadisatı Azərbaycan tarixində mühüm bir səhifə işğal edib, azəri türklərinin istiqlal yolunda can verib qan tökdüklərini gələcək nəslə oxutduracaqdır. Bugünkü vəzifəmiz isə o qara günləri yaddan çıxartmamaq və buna görə də həmişə və hər an hazır olmaqdır. Böylə hazırlıq ki, bu hadisələr bir də təkrar edərsə, müdafiəsinə qadir olalım. Bunun üçün həm hökumətimizin və həm də millətimizin çalışması lazımdır. Bu gün istiqlal ilə yaşayıb da bu neməti-üzmadan [böyük nemətdən] istifadə ediriksə də, özümüzü xaricən əmin və amanlıqda bilmək və istiqlalımızın ibqasını [əbədiliyini] təmin etmək üçün müdafiəyə hər an hazır və amadə [hazır, müntəzir] olmalıyıq. Biz indi öz müqəddəratımızı öz əlimizə aldıq. Borcumuz, bu müqəddəratı gələcəkdə zühuru möhtəməl olan hər növ təcavüzatdan qorumaq və məmləkətimizi şərəflə yaşatmağa çalışmaqdır.

*Hacıbəyli Üzeyir*

## 18-31 MART

Bu gün 18-31 Mart hadiseyi-əliməsi səneyi-dövriyyəsi münasəbətilə Azərbaycan türk-islamları milli matəm elan edirlər.

Bu gün bütün hökumət və camaat idarələri, məktəblər, qəzetələr, bazar, dükan, emalatxana və sair müəssisələr tətil edirlər. Şəhərdə həyat dayandırılır. Zira:

Bu gün; gözəl ideya, böyük şüar altında qara fikir yürüdən bir taqım alçaq qaragüruhun əlində məqtul düşənlərin [qətl edilənlərin] illiyidir. Bu matəmdə azərbaycanlılar məscidlərə yığılaraq günahsız ölənləri, irz və namusuna toxunulmuş məzlumları, canilər əlində tələf olmuş məsum çocuqları yad edəcək, Quran oxuyacaq, məzlumlara rəhmət, zalımlara lənətxan olacaqlardır.

**1918-ci il 18-31 Mart hadisatına dair**



Yanğından sonra "İsmailiyyə" imarəti, "Açıq söz" və "Kaspi" qəzetələrinin mənzərələri

Şamaxı faciələri



Şamaxıda kain tarixi məscidi-camenin yanğından sonra daxili mənaziri

Təzəpir məscidində – həman keçən il bu günlərdə düşmən mərmiləri dəydikcə, yaralanan pəhlivan gibi nərə çəkərək guya zəbani-hal ilə [hal dili ilə] "Ey Türk milləti! Namusun qəbul etməsin! Allah, götürmə bu zülümü!" deyə fəryad edən bu böyük məscidin həyətində cəmmi-kəsirin [böyük qələbəliyin] iştirakilə ictima [yığıncaq] tərtib verəcəklərdir.

Fəqət Azərbaycan türkləri bu matəmdə yadlarından çıxarmamalıdırlar ki, keçən il ibtida [əvvəla] Bakıda və Şirvanda, daha sonra da Qubada və sair yerlərdə bizim başımıza gələn müsibətlərin təqsirinin çoxu özümüzdədir. Həm də nə o mənaya ki, camaatımızın bir qismi maska geymiş canilərə inanaraq onlarla sosialist kimi rəftarda bulunmaqla özlərini aldatmış oldu, nə o mənaya ki, camaatımızın bir qismi məhz firqəbazlıq xatirinə özünü üzə çıxarmaq və tərəfimüqa bili [qarşı tərəfi, rəqibi] nəzərdən salmaq niyyətilə xalqı yoldan çıxardı, heç bir fitnə və fəsaddan çəkinmədi.

Doğrudur, həyatımızda bu müəssif [təəssüf verici] amillər böyük rollar oynadılar. Doğrudur, on minlərcə günahsız olan vətən övladı bu hərəkətlərin qurbanı oldu!

Lakin bir şeyi xatirdə tutmalıdır, bizim zəifliyimiz və düşmənin güclülüyü, bizim aramızda firqənin təfriqə [ayrılıq, ikitirəlik] kimi tələqqisi [qəbul edilməsi], dillərdə əzbər olan ittihadsızlığımız [bir ola bilməmək, birgə hərəkət edə bilməmək] və sairə həp iki şeydən nəşət etmişdir [irəli gəlmişdir]:

İdrak və etirafi-milliyyə [milli şüur və özünüdərk] yoxluğu;

Və sadəlövh, safdərunluğumuz [təmizürəkliliyimiz].

Həyat bir məktəb və tarix bir ayineyi-ibrətdir. Yaşayışın acı həqiqətlərinə açıq göz ilə baxalım da, işləmiş olduğumuz xətaları islah edəlim. Əks surətdə böylə faciələr həyatımızda təkrar-təkrar oynana bilər.

Keçən il həmin bugünkü gün müsəlman-türk firqələri, camaatı sakit etmək qəsdilə buraxmış olduqları bir intibahnamədə [vərəqədə] "Erməni qonşularımız dəxi bu məsələdə bizimlə bərabərdirlər" yazmışdılar.

Halbuki dörd saat sonra başlanmış davanı milli qitala [qırğına] döndərən yenə həman "bizimlə bərabər olan qonşularımız" oldular.

Yalnız o gün deyil, həmişə bu surətlə aldanmışız. Bu da hər şeydən ziyadə siyasi xamlığımızdandır. Siyasətdə millət, dövlət və firqə mənafeyi hər şeydən uca tutulduğundan, şübhəsizdir ki hər dövlət, hər millət və hər firqə ancaq mənafeyi özüylə bir və bərabər olanlara inana bilərlər.

Digər tərəfdən yenə həman keçən il Mart hadiseyi-əliməsindən bir az qabaq, faciənin oynanacağını qabaqcadan görmüş olanların "Açıq söz" qəzetəsində yazmış olduqları "Birlik gərək", "Birlik tələb olunur" və sair bu kimi bir çox məqalələrin və bu yolda icra olunan təbliğat və təşviqatın nəticəsiz qalması həp camaatımızın milli mənafeyi dərk etməmiş olmasındandır.

Ona görədir ki, cənnətasa [cənnətə bənzəyən] vətəninin xarabazara döndərilməsi səneyi-dövriyyəsini matəm saxlayan Azərbaycan türkləri, əski Roma imperiyası lejyonlarının ayaqları altında əzilmiş millətini və dağılmış vətənini görən Hannibalın müqəddəs atəşkədə və qoca atası hüzurunda etdiyi kimi, bu gün düşmən qumbarasıyla minarəsi dağılmış müqəddəs Təzəpir məscidi qabağında əllərini döşlərinə qoyaraq, başlarını aşağı dikərək qəsəm yad etməlidirlər [and içməlidirlər] ki, gözəl Azərbaycan və nəcib türk millətini hər cəhətdən sahili-nicat və səadətə [qurtuluş və səadət sahilinə] çıxaranadək başlarını yuxarı qaldırmayacaq və Azərbaycan istiqlalı, türk azadlığı, millət səadəti yolunda son qətrə qanına və son nəfəsinədək heç bir fədakarlıqdan geri durmayacaqlardır!

Ölənlərə rəhmət!

Qalanlara ibrət!

*Xəlil İbrahim*

## XƏYALAT

*"Kəs nəyayəd be zir e sayeye bum*
*Vər homay əz cəhan şəvəd mə'dum"*
*Sədi*

O viranələr aşiqi, məxrubiyyət [xaraba qalma], fəlakət düşkünü, kəndi sövti-bədtinət və kədər-nisarı [bəd yaradılışlı və kədər yayan səsi] ilə məni daima narahat edir. Qəlbimi dağdar, fikrimi son dərəcə vəlvələdar edir. Onun hər bir ququltusu mənə riqqət verir, ağlımı, zehnimi cərihədar edir [yaralayır]!

Könlüm, meylim ona yaxlaşmayır. Kəndisini ona yağı hiss edir də, təbii olaraq xarabalıqlara qoşmayır. Onun sövtündə [səsində, sədasında], onun sayəsində [kölgəsində] səadət yoxdur, nəğməsi fərəh-əfza [fərəhləndirən, fərəh verən] deyil. Zira o, səadəti-eşq və məhəbbət nə olduğunu düşünəmməz. Bəlkə düşünər də, o vaxt o, xarabazar sevir, mən isə sevməm. Onun nəğməsi mənə yabançıdır. Sövtündə bətalət [süstlük; fəaliyyətsizlik], əsarət görürəm. Hiss edirəm ki, o, kəndi sövti-bədfitrəti [bəd təbiətli səsi] ilə bir çox parlaq və məsud xanimanların pamali-vəhişiyyət olmasına [yırtıcılığın ayaqları altında tapdalanmasına] ruyi-riza göstərmişdir [razılıq vermişdir]. Keçən sənə üzərinə qonmuş olduğu xanəni, mən bu gün xarabazar halında, məmur [abad] deyil, viranə şəklində buldum. Kəndi xanəm, o məmureyi-eşqim [eşqimin abad evi] olan bamın [damın] üzərinə bir daha qonmasına razı olammam. Onun sövtündən pərişan-xatir olmaq və dolayısıyla xaraba zarlar görmək istəməm. Çıx, rədd ol!

* * *

Çox zaman hicrində ah-nalə və suz-[ü]-güdaz etdiyim [yanıb-yaxıldığım] o məhbubə, o dilbəri-hürriyyət, ol hümayi-xoştinəti [xoş təbiətli hüma quşunu] istədim. O mənim mövcudiyyətim, həya tımdır! Daima vüsalı uğrunda çarpışdığım o mürği-dilim [könül quşum], kəndi sövti-pürsüruru [sevinc dolu səsi] ilə yenidən mənə ruh verdi. Vüsalına yetişdim. Onu dərağuş edərək [qucaqlayaraq] yanıq qəlbimdə, düşkün xəyalımda yeni bir həvəs ehsas etdim [duydum]. Onu bir daha qeyb edəmməm. Zira o, mədum [yox olan] deyildir! Xəyalımın, mövcudiyyətimin əbədi bir ruhu, qəvi [güclü, qüvvətli] bir əzəmətidir. Onu bir daha buraxammam.

İştə, o mənim istiqlaliyyətimdir!

*Piri [Mürsəlzadə]*

## EL YASI

– İslam qardaş! İslam qardaş! Mənə müavinət [kömək] ediniz!

İşbu iltica edici [yalvarıcı], ürək yandırıcı, qəlb patladıcı sözləri, üzü, sinəsi məxruş [cırmaqlanmış, cızılmış] gənc bir islam qadını:

– Mənə, beş nəfər məqtul əhbabını [qətl edilmiş beş nəfər istəkli adamını], bir nəfər sirdaşını, ələm, qəm, hüzün, şadlıq müxatəbini [həmsöhbətini] "Nərədəsiniz?" deyə axtaran boynu qaralı, qəlbi yaralı bədbəxtə, – deyə xitab edirdi.

Dəniz kənarındakı gömrükxana həyətində, pambıq tayları miyanında [arasında] sıra ilə yan-yana düzülmüş müsəlman və müslimə [müsəlman kişi və qadın] meyitləri ətrafında müsəlman qadınları "oğul vay", "ata vay", "qardaş vay" deyə dolaşaraq mühiti məmat [ölüm] musiqisinə məxsus "vay" zəngüləsilə zingiltdikləri halda, işbu qadının "müavinət" diləməsi şimşək kimi əsabımı [əsəblərimi] vurdu, qəlbimi yaraladı da, ona tərəf yönəlmək məcburiyyətində buraxdı.

– Həmşirəm [bacım]!

– Qardaş! Mən yeddi nəfər əqvamını [qohumunu, yaxınını] məqtul [qətl edilmiş], qarşısında uzanmış, bütün ümidini dünya və mafihadan [dünyadan və yer üzündəki hər şeydən] kəsmiş, evi talan edilmiş, əsasınadək [bünövrəsinə qədər] yandırılmış səfiləyə müavinət ediniz!

– Həmşirəm!

– Mənim meyitlərimi arabaya qoyunuz da qəbiristana aparayım!

Daha artıq danışmaq yeri qalmamışdı. Ətrafı dolaşdıqdan sonra iki dənə şəhər zibil arabalarından almağa müvəffəq olduq.

– Həmşirəm, nərədəsiniz?

– Burada!

Qadın yeddi nəfər meyiti bir tərəfə çəkib, lalə butaları kimi düzərək miyanlarında lalə qönçəsi kimi oturub, çənəsini ovcuna almışdı. Ağ saqqallı, ağ zülfləri qırmızı qana bulaşmış, şəmsin parlaq şüası altında tələlö edən [parıldayan] iki ixtiyar [qoca], yanlarında birər sarı arizli [bənizli], biləklərində incə mərcan qolbağlı, dodaqlarında səbavətə [uşaqlığa] məxsus zərif məsumanə təbəssüm qızcağızlar, birər geniş alınlı, yüksək kökslü, şümşad qollu gənclər, bunların miyanında üzü, gözü xain əllər tərəfindən vəhşiyanə bir surətdə süngülənmiş başqa bir gənc yatırdı.

Məqtul, təravətini qeyb etmiş butalar miyanındakı diri qönçə, dodaqlarını təprədirdi.

Yaxın yürüdüm.

– Soldunmu?.. Mən qaldım! Bəs vəzifəm nədir? Ağlamaqmı?

– Xayır!

Bir səs eşidildi. Qadın ayağa qalxaraq ətrafa baxmağa başladı.

Möhtərəm qare [oxucu]! Qadının o vəziyyətini təsvir etməkdən qələm acizdir! Qadına baxan, şimdi uçacaq, həman sədanı asimanlarda belə olsa bulacaq, qəlbi yarıb ürəyi sandıqçasına alacağını hiss edirdi.

– Qardaşım, buldunuzmu? – deyə, gənc qadın mənə müraciət etdi.

– Buldum! – dedimsə də, davam edəmmədim. Oturdum, biixtiyar göz yaşlarım axmağa başladı. "İntihar et!" qulaqlarım pərdələrində xüsusi bir caduedici mahnı kimi tərənnüm edirdi.

– Qardaşım! – deyə qadın oturdu.

Mən yenidən göz yaşları billurlarından onu tamaşa edirdim: Təbarəkallah! Qadının məxruş üzündəki hüsnü [gözəlliyi], əzəməti, parlaq gözlərindəki üluhiyyəti [ilahiliyi], ürəyimə soxulub "Məbəd dir! Kəbədir!" deyə, "Təzim et!" kimi təlqinatda bulunurdu [təlqin edirdi]. Əllərimi köksümə qoyaraq başımı aşağı saldım.

– Qardaşım! Mənə yazığın gəlir, deyilmi? Əvət! Mən yazığam, zira bütün əqvamım məqtuldur, istinadgahım yox, məl cəm [pənahım] yox, ümid qapılarım bağlanmış, deyilmi?

Mən yenə başımı qaldırıb qadına baxdım.

– Qardaşım! Xayır, öylə deyil, hamısı məqtul, mən də, sən də, o da, o birisi də məqtul. Fəqət el məqtul olmadı, el yaşayır, yaşayacaq, el hər il mart ayından başlayaraq...

Qadın sözünü itmama yetirmədən həyətdə oxşamaq, ağlamaq sədası ucaldı. Qadın ayağa qalxıb:

– Qardaşım, meyitlərimi arabaya qoyalım!

Mən məbudəyə səmiən və taətən [eşidirəm və itaət edirəm] deyən kimi qadınla bərabər meyitləri arabalara qoyduq.

Arabalar yola düşdü də, qadın bir kəlmə söz demədən onların ardınca getdi. Əllərim köksümdə olduğu halda məbudəni mümkün qədər müşayiət etdim.

O vaxtdan sonra bir daha qadını görməmişdim.

* * *

Bağ vaxtı idi. Qəhrəman Türk ordusu çəlik kökslü igidlərini Anadolu ovalarından, Azərbaycan bucaqlarından hilal-ulduzlu bayrağı altına cəm edib "azadlığa" doğru yürüyürdü. Bakı ətrafında top gumburtuları, bomba patıltıları, mitralyoz şaqırtılarına qarışaraq "hürrrrrrrriyyət"... deyə bağırırdılar.

Əsəbiliyim həddən aşmışdı. Gecə yarısı işbu bağırtı altında bir küncdə əlbisəyə bürünüb mürgülədim. Nərədən isə həman qadının "el hər il mart ayından başlayaraq..." yarımçıq buraxdığı cümləsi qulaqlarıma doldu. Cümlə ilə mübarizəyə başlayaraq, arxasını bulmaq istədim. Gözlərim qarardı, ətrafım zülmətə büründü, heç şey görməz oldum, çırpındım, gözlərimi bərəltdim. Qarşımda münəvvər [işıqlı] bir nöqtə peyda olub get-gedə qara əlbisəli, al örtüklü bir qadın həyulasına [siluetinə] mübəddəl oldu [çevrildi]. Üzünə baxdım, dırnaq yerlərini müşahidə ilə həman qadını tanıdım. Əllərimi köksümə qoyaraq, dizlərim üstə çöküb məbudəmə təzim etdim.

– El hər sənə mart ayından başlayaraq... sentyabr ayınadək matəm saxlar, – deyə məbudəm həyulası nitqə gəldi.

Üzünə baxdım, üzündəki o hüsn, o əzəmət, gözlərindəki o üluhiyyət baqi olmaqla [qalmaqla], xüsusi bir təravət, xüsusi bir ülviliyi də havi idi [ehtiva edirdi].

*Ayn. Rüfət*

## KEÇMİŞ MART GÜNLƏRİ

Rusiya istibdadının mütəmadi təzyiqatı altında əzilməkdə olan Qafqaziya millətləri arasında ən böyük zərbə türk və müsəlman əhalisinə endirilməkdə idi. Şimaldan gələn qara qüvvələr güruhuna həpsindən əvvəl olduğu kimi, həpsindən fəzlə də məruz qalan Şamilin qəhrəman nəsli, o cəsur dağ qartalları olmuşdur.

Bütün bu təzyiqat işbu müharibə ibtidasilə [müharibənin başlaması ilə], xüsusilə Rusiya ixtilali-kəbirinin zühurilə [Bö yük Rusiya inqilabının meydana gəlməsi ilə] türk və müsəlman ünsürləri üçün daha kəskin bir dövrəyə girmişdir ki, hər tərəfdə türk və müsəlmanların canı, irzi təcavüzlərə məruz qalırdı. Bu hadisat əsnasında türkləri qətl və qarət etməklə iştirakda ən böyük rol və birinci dərəcədə fəaliyyət göstərənlər ermənilər olmuşdur. Bunlar bizimlə yan-yana yaşaya gəlmiş olduqlarına və bundan böylə də yaşamağa məcbur olmalarına rəğmən, fəlakət və müsibət günlərimizdə, qonşuluq xatirəsi üçün olaraq bizə həpsindən ziyadə dəsti-müavinəti [yardım əlini] uzatmaları lazım gəlir ikən, biləks [əksinə], onlar bizə həpsindən ziyadə irasi-zərər edə gəlmişlər [ziyan vurmağa davam etmişlər] və hələ də etməkdədirlər.

Rusiya əsakiri [əsgərləri] tərəfindən işğal edilmiş Türkiyə ərazisi daxilində və Qafqaziyada, xüsusilə Bakıda 1918 sənəsi martının 31-ində bolşevik kisvəsinə [donuna] bürünərək ancaq türk və müsəlman əhalisinə iras etdikləri təxribat və vəhşət, şübhəsiz bir türkün, bir müsəlmanın xatirəsində ilələbəd unudulmayacaq pək müəllim [ələmli], pək xunin [qanlı] bir xatirə həkk etmişdir. Bunlar təəssübləri saiqəsilə [ucbatından] türklük və müsəlmanlığa qarşı ağlın və məntiqin qəbul edəmməyəcəyi bir dərəcədə qudurmuşcasına bir düşmənlik ibraz etdilər [nümayiş etdirdilər].

Bakının soqaqları içərisində, keçmişdə olduğundan min kərə daha fəzlə olaraq, təkrar ehtirasati-insaniyyənin [bəşər ehtiraslarının] ən çirkin, ən mərdud [iyrənc] şəkilləri kəndisini göstərdi. Yenə bir çox əziz və məsum canlar heysiyyətini çiynəmiş [tapdalamış], insanlığını unutmuş bir sürü yırtıcı heyvanların qurbanı oldu və bir çox türk və müsəlman qadınları zalım, qəddar əllərdə günlərcə inlədi, məhv oldu. Nazlı gəlinlər, qızlar soqaqlarda sürükləndilər, təhqir olundular. Fədakar analar, nazənin bacılar oğullarının, qardaşlarının ölüləri üstündə baş açdılar, ağladılar.

İştə, bütün bu ürək dağlayan vəq'ələr [hadisələr], sənələrdən bəri əsarətə qarşı bəslənməkdə olan kin və qərəz atəşlərinin iştialına [şölələnməsinə] bir səbəb təşkil etdi.

Tam bir əsr vaxt bundan əvvəl pək ağır bir təzyiq altında sükun-pəzir olmağa [səssizləşməyə, sönməyə] məcbur edilmiş həyati-milliyyə, qeyri-müsavi bir qüvvət altında əzilmiş qalmış, get-gedə bu qüvveyi-təzyiqiyyə kəsbi-şiddət etdikcə [şiddətləndikcə], qüvveyi-müqabilə də o nisbətdə təzayüd etməkdə [artmaqda] bulunurdu.

Fəqət Cahan müharibəsində bu qüvayi-təzyiqiyyə [təzyiq qüvvətləri] tənaqüs edər-etməz [azalan kimi], xarici qüvvəyə qarşı olan hissiyyati-xüsumətkaranə [düşməncə hislər] fəvərani-vulkaniyyə [vulkan püskürməsi] kimi tüğyan edərək, qarşısına durmaq istəyən bütün maneələri qırdı, yıxdı, təbiətin kəndisinə cızmış olduğu xətt üzrə cərəyan etməyə [axmağa] başladı.

Əvət, şimdi istiqlali-milliyə doğru pək böyük bir addım atmış bulunuruz.

Türk milləti keçən sənəki Mart hadisatını, türklük payidar olduqca [qaldıqca, mövcud olduqca] heç bir zaman xatirindən çıxarammaz və çıxarammayacaqdır. Bu gün bütün əfradi-millət [millətin bütün fərdləri] bu yolda vermiş olduqları qurbanları xatırlayaraq, kəndilərinə matəm tutur, ağlayır və bunlara səbəb olanlara qarşı qəlbində kin, qeyzi-intiqam hissləri tüğyan edərək, onların namlarını lənətlərlə, nifrətlərlə yad edir.

Əvət, keçən sənə martında məsum türk qanını axıdan o vəhşi, mənfur çöhrələr qəhr olsunlar, gəbərsinlər...

Əmin olunuz ki, bu gün o əziz və müqəddəs qurbanların pak və müqəddəs olan ruhları əfradi-millətin haqlarında göstərmiş olduğu bu haqşünaslıqdan məmnun olur və ulu Tanrıdan kəndi millətinin səadətini diləyir, istirham [xahiş] edirlər.

Bu gün hər bir türkün, müsəlmanın yapacağı kimi mən də Mart vəq'eyi-əliməsinin birilliyi münasibətilə matəmi-milliyə iştirak etməyi kəndimə bir vəzifeyi-milliyyə və insaniyyəədd [hesab] edir və o qurbanların böyük ruhları qarşısında təzimat və ehtiramatımı ibraz edirəm.

*Abidin*

## ŞÜHƏDAYİ-HÜRRİYYƏTİMİZİN ƏRVAHINA İTHAF

*Sizin məzarınız iştə qülubi-millətdir!*
*Bu sözlərim ürəyimdən qopan həqiqətdir.*
*Sizi unutmayacaq şanlı millətim əsla,*
*Əmin olun buna, ey zinəti-cahani-fəna!*
*Sizinlə buldu bu millət şərəfli istiqlal,*
*Sizinlə buldu bu millət həyati-püriqbal.*
*Bu gündə etmədə əhli-vətən sizi dəryad,*
*Salamlayır sizi iştə bu milləti-azad.*
*Müəbbədən diridir namınız bu dünyada,*
*Sizin də ruhunuz uçsun behişti-ə'lada.*
*Bizi xilas edərək pənceyi-əsarətdən*
*Nicat-bəxş olaraq dəsti-əhli-vəhşətdən*
*Çəkildiniz əbədi xüldzari-rəhmana,*
*Behişti-rəhmətə, yəni diyari-rəxşana.*
*O xununuzla açıldı bahari-hürriyyət,*
*Sizin də yurdunuz olsun behişti-ülviyyət.*

*Bakı, 31 mart 1919*
*Əbdülsəlimzadə Məhəmməd Hadi*

XXXIII Paris Yay Olimpiya Oyunları

# Parisə fərəhlə, Bakıya zəfərlə

## Bürünc şansı



**Dünən "Paris-2024"də yunan-Roma güləşində daha iki çəkidə mübarizəyə start verilib.77 kq çəkidə yarışan Sənan Süleymanov mübarizəyə 1/8 finaldan başlayıb.**

Pəhləvanımız dünya çempionatlarının ikiqat gümüş mükafatçısı Aik Mnatsakanyanla (Bolqarıstan) güləşdən qalib ayrılıb - 2:0. S.Süleymanov 1/4 finalda macarıstanlı Zoltan Levai ilə qüvvəsini sınayıb. Sənan bu dueli də aktivinə yazıb. Qarşılaşma 1:1 hesabı ilə yekunlaşsa da, güləşçimiz sonuncu xal prinsipinə əsasən adını yarımfinala yazdırıb. O, finala gedən yolda qazaxıstanlı Demeu Jadrayevlə münasibətinə aydınlıq gətirib. Görüş rəqibin 6:1 hesablı üstünlüyü ilə bitib. Güləşçimiz bu gün 3-cü yer uğrunda gücünü yoxlayacaq.

Avqustun 6-da eyni zamanda qadın güləşində bir kateqoriyada ilk qarşılaşmalar keçirilib. Azərbaycanın bu növdəki yeganə təmsilçisi Mariya Stadnik özünün 5-ci Olimpiadasında qızıl medal hədəfi ilə döşəyə çıxıb.

50 kq çəkidə yarışan Olimpiya Oyunlarının ikiqat gümüş və ikiqat bürünc mükafatçısı Mariya Stadnik mübarizəyə 1/8 finaldan başlayıb. Onun ilk rəqibi Anastasiya Blavyas (Almaniya) olub. Millimizin lideri görüşü inamlı qələbə ilə bitirib. Stadnik alman güləşçini 6:2 hesabı ilə məğlub edərək 1/4 finala vəsiqə qazanıb. Təmsilçimiz ikinci qarşılaşmasında Otqonjarqal Dolqorjavla (Monqolustan) güləşib. Gərgin keçən görüş 4:4 hesabı ilə başa çatıb və xalların keyfiyyətinə görə rəqib mərhələ adlayıb.



## Güləşçimiz 5-ci yeri tutdu

**Fransada təşkil olunan XXXIII Yay Olimpiya Oyunlarında medal gözlənilən idman növlərindən biri də güləşdir. Düzdür, hələ ki güləşçilərimiz medal qazana bilməyiblər, amma qarşıdakı günlərdə tilsimin qırılacağını gözləyirik. Dünən Sabah Şəriətinin ölkəmizin aktivinə bürünc medal yazdırmaq imkanı vardı.**



Belə ki, 130 kq çəkidə yarışan Sabah Şəriəti mübarizəyə 1/8 finaldan başlayıb. Pəhləvanımız estoniyalı Heiki Nabi ilə üz-üzə gəlib. Görüş 1:1 hesabı ilə yekunlaşsa da, Şəriəti sonuncu xal prinsipinə əsasən mərhələ adlayıb. O, 1/4 finalda Alımxan Sızdıkovla (Qazaxıstan) güləşib. Pəhləvanımız bu dueldən də qalib ayrılıb - 4:0. O, finala gedən yolda Mixain Lopeslə (Kuba) güləşib. Titullu rəqibinə 1:4 hesabı ilə uduzan Sabah bürünc mükafat üçün dünən döşəyə çıxıb. Rəqib iranlı Amin Mirzəzadə idi. Yekunda 0:4 hesabı ilə uduzan təmsilçimiz Olimpiadanı 5-ci yerdə başa vurub.

## Şam yeməyinə qatıldı, yarışa gecikdi

**"Paris-2024"də qeyri-adi hadisə baş verib. İsrailli üzgüçü Anastasiya Qorbenko Beynəlxalq Olimpiya Komitəsinin təşkil etdiyi şam yeməyində olduğu üçün final mərhələsinə gecikib. O, 200 metr məsafəyə qarışıq üzgüçülükdə həlledici mərhələyə çıxa bilməyib. Lakin nəticələrə əsasən ehtiyat idmançı olub.**




Avstraliyalı Ella Ramsi xəstəliyi səbəbindən start xəttinə çıxa bilmədiyindən Qorbenko onu əvəzləməli idi. Lakin idmançı yarışdan 25 dəqiqə əvvəl xəbər tutub. Daha əvvəl isə o, avadanlıqlarını arenanın gözləmə zalında qoyub-qoymayacağını soruşub, lakin cavabdehlər onu əmin ediblər ki, iştirakına ehtiyac olmayacaq. Nəticədə final mərhələsi 6 idmançının iştirakı ilə keçirilib.

Qeyd edək ki, bu növdə qalib kanadalı Summer Makintoş olub. Amerikalı Keyt Duqlas gümüş, avstraliyalı Keyli Makkiun isə bürünc medal qazanıblar.

## Futbolda finalçılar məlum oldu

**"Paris-2024"də kişilər arasında futbol yarışında finalçılar müəyyənləşib. İlk yarımfinal matçında Mərakeş və İspaniya milliləri üz-üzə gəliblər. Afrikalılar Soufiane Rahiminin penalti qolu ilə 37-ci dəqiqədə hesabda önə keçsələr də, ikinci hissədə qələbəni əldən veriblər. Fermin Lopez (66-cı dəqiqədə) və Juanlu Sançezin (85) qolları ilə əzmkar qələbə (2:1) qazanan İspaniya yığması Olimpiadada ilk finalçı olub.**

Digər yarımfinal cütündə isə meydan sahibləri Misirlə üz-üzə gəlib. Bu matçda isə Fransa əzmkar qələbəyə sevinib. Mahmoud Saber 62-ci dəqiqədə Afrika təmsilçisini hesabda önə keçirsə də, Jean-Philippe Mateta 83-cü dəqiqədə hesabı bərabərləşdirib. Əlavə vaxtın əvvəlində Omar Fayed qırmızı vərəqə aldığından Misir millisi azlıqda qalıb. Say üstünlüyündən istifadə edən Fransa millisi Matetanın və Olisenin qolları ilə əlavə vaxtda istəyinə çatıb. Beləliklə, 3:1 hesablı qələbəyə sevinən Fransa finalda İspaniyaya rəqib olub.

Final avqustun 9-da keçiriləcək. Bir gün əvvəl isə Misir - Mərakeş matçında bürünc medalın sahibi müəyyənləşəcək.



## İkiqat Olimpiya çempionu ilə bağlı qərar

**Paris Yay Olimpiya Oyunlarının mükafatçıları ilə bağlı dəyişiklik olub. İdman.biz xəbər verir ki, bu, atletika yarışlarında baş verib.**




Qadınların 5000 metr məsafəyə qaçışında gümüş və bürünc mükafatın sahibi ilə bağlı yeni qərar verilib. Məsələ ondadır ki, ikiqat olimpiya və dördqat dünya çempionu Keniya təmsilçisi Fait Çepnqetiç Kipyeqonun diskvalifikasiyası ləğv edilib.

O, "Paris-2024"də ikinci yeri tutsa da, finişə iki dövrə qalmış efiopiyalı Qufaf Seqayın əlindən tutduğu üçün yarış bitən kimi nəticələri ləğv olunub. Bu üzdən gümüşü Sifan Hassana (Niderland), bürüncü Nadia Battoklettiyə (İtaliya) veriblər.

Sonradan Keniya idmançısının qələbəsinin ləğvi məqsədəuyğun sayılıb. Nəticədə Kipyeqon gümüş, Hassan bürüncə sahib çıxıb. Battokletti isə medalsız qalıb.

Qeyd edək ki, bu proqramda digər keniyalı Beatris Çebet çempion titulunu qazanıb.

## Gimnastlarımız "Paris-2024"ə hazırdırlar

**Bədii gimnastika üzrə Azərbaycan yığması "Paris-2024" Yay Olimpiya Oyunlarına yollanıb. Bu növdə yarışlar avqustun 8-10-da "Port-de-la-Şapel"də baş tutacaq.**




Zöhrə Ağamirova fərdi, Zeynəb Hümmətova, Ləman Əlimuradova, Darya Sorokina, Güllü Ağalarzadə və Yelizaveta Luzandan ibarət yığmamız qrup hərəkətlərində mübarizə aparacaq.

Rəsmi podium məşqi avqustun 7-də baş tutacaq.



## Ukraynalı atıcı qidadan zəhərlənib

**Ukraynalı Pavel Korostılyev Olimpiadanın finalında kiçik çaplı tapançadan 25 metr məsafəyə atıcılıq üzrə yarışıb. Uğursuz olan idmançı yarış zamanı özünü pis hiss edib. O, qidadan zəhərləndiyini bildirib.**

"Emosiyalar? Nə deyəcəyimi bilmirəm. Dünən kənddə qidadan zəhərləndim. Özümü hələ də pis hiss edirəm. Əvvəlkilərlə müqayisədə bu Olimpiada ilə bağlı təəssüratlarım necədir? Çox pis. Hər şey pisdir: təşkilatçılıqdan tutmuş qidalanmaya qədər. Burada hətta Olimpiya kəndində yemək yeyərkən qabları götürəndə görürsən ki, yuyulmayıb" - Korostılyev bildirib.

## Qaşımın rəqibi irlandiyalı olacaq

**Paris Yay Olimpiya Oyunlarında iştirak edəcək Azərbaycan taekvondoçusu Qaşım Maqomedovun ilk rəqibi bəlli olub.**

58 kq çəkidə mübarizə aparacaq idmançımız 1/8 finaldan yarışa qoşulacaq. O, İrlandiya təmsilçisi Cek Uolleylə üz-üzə gələcək. Görüş bu gün Bakı vaxtı ilə saat 13:48-də başlayacaq.



Qeyd edək ki, 58 kq çəkidə mübarizəyə bu gün yekun vurulacaq.

## Daha bir problem

**"Paris-2024"də növbəti xoşagəlməz hadisə yaşanıb. Açıq havada üzgüçülük yarışlarında iştirak edəcək idmançıların Senadakı dünənki məşqi çaydakı suyun çirkli olması səbəbindən ləğv edilib.**

Bu, Fransa paytaxtında yaşanan 5-ci belə haldır. Daha öncə eyni səbəbdən triatlonçuların 4 məşqi ləğv edilib.

Qeyd edək ki, açıq suda üzgüçülük yarışının avqustun 8-9-da keçirilməsi planlaşdırılır.



# Ağdam və Zəngilan məscidlərinə din xadimləri təyin olunub

İşğaldan azad olunmuş ərazilərdə Prezident İlham Əliyevin xüsusi diqqəti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən tarixi və dini-mədəni abidələrin bərpası proqramı çərçivəsində istifadəyə verilmiş Ağdam və Zəngilan məscidlərinə ilk dəfə din xadimləri təyin olunub.

Avqustun 6-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov Ağdam şəhər Cümə məscidi və Zəngilan məscidinə imam vəzifəsinə təyin olunmuş Mehman Nəsirov və Müşfiq Fərzəliyevlə görüşüb.



Komitədən AZƏRTAC-a bildiriblər ki, görüşdə R.Məmmədov Qarabağ və Şərqi Zəngəzurda tikilən məscidlərə imamların təyin edilməsinin 30 ilə yaxın düşmən işğalında qalan torpaqlara yenidən həyatın qayıtdığını göstərən növbəti fakt olduğunu vurğulayıb. O qeyd edib ki, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı Qələbədən sonra Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə dini abidələrimizin, məscidlərimizin bərpası istiqamətində həyata keçirilən tədbirlər Azərbaycan dövlətinin və xalqının öz dini və tarixi-mədəni irsinə nə qədər bağlı olduğunu sübut edir.

Komitə sədri islam dininin əsaslarının olduğu kimi insanlara çatdırılmasında, dini və ideoloji sahədə aparılan maarifləndirmə işlərində din xadimlərinin üzərinə mühüm vəzifələr düşdüyünü deyib. Diqqətə çatdırıb ki, azərbaycançılıq ideyalarının təbliği, milli-mənəvi dəyərlərin, tarixi-dini ənənələrin qorunması din xadimlərinin fəaliyyətinin əsas istiqamətlərini təşkil etməlidir.

Din xadimləri işğaldan azad olunmuş ərazilərdə tikilən məscidlərə təyin olunmalarından qürur duyduqlarını vurğulayıb, dövlət tərəfindən dinə və din xadimlərinə göstərilən qayğını yüksək dəyərləndirdiklərini vurğulayıb, məscidlər və dini icmaların fəaliyyəti ilə bağlı təkliflərini diqqətə çatdırıblar.


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*


# Uzun, yoxsa sağlam ömür?

## Yaşlanın, amma qocalmayın

**"İllər su kimi keçir" ifadəsi heç də əbəs deyil. Zaman keçir insan yaşa dolur. Yaşlandıqca insan həyatı qocalığa doğru addımlayır. Bu hal, əlbəttə ki, insanı təəssüflərə sövq etsə də, reallığı qəbul edib həyatımızı ən yaxşı şəkildə davam etdirməyə çalışmalıyıq. "Niyə qocalırıq?" deyə düşünmək əvəzinə, özümüzü ictimai yük yox, müdriklik və təcrübə mənbəyi kimi görsək, bunun bitiş nöqtəsi deyil, kulminasiya nöqtəsi olduğunu anlamalıyıq.**



Bəzən deyirlər, "Həyat çatlamış stəkandakı suya bənzər, içsən də bitəcək, içməsən də". Ən əsası, hər gələn ili sağlam düşüncə ilə qəbul edib, birindən digərinə keçid etməkdir.

Uzunömürlülükdə əsas hədəf təkcə ömrü uzatmaq deyil. Bu zaman yalnız kəmiyyət yox, keyfiyyət də önəmlidir. Hədəf ömrün illəri ilə sağlamlıq müddətini bərabərləşdirməkdir. Uzunömürlülük ilə məşğul olan mütəxəssislər bildirirlər ki, insanların həyatı ağrı, xəstəlik, zəiflik və məhdud hərəkətlilik ilə müəyyən edildikdən sonra onilliklər ərzində yaşatmaq nailiyyət deyil. Yalnız yaşamaq yox, necə yaşamaq da önəmlidir. Bədənlə ruh, insanla ətraf mühit, digər insanlarla münasibətlər harmoniyada olduqdan sonra yaş, sadəcə, bir rəqəm kimi görünəcək.

### Ölkəmizdə 80 yaşdan yuxarı 126,900 nəfər yaşayır

Bəşər tarixi boyunca ömrü uzatmaq üçün minlərlə üsuldan istifadə edilib. Genetik olaraq insan 120 il yaşamalı olsa da, buna əksəriyyət nail ola bilmir.

Azərbaycanda 90 yaşına çatmış insan uzunömürlü hesab edilsə də, dünya üzrə bu yaş həddi 100-dür. Orta ömür uzunluğuna görə ilk yerdə Yaponiya qərarlaşıb. Ölkənin cənubunda yerləşən Okinava adaları "ölümsüzlər yurdu" adlandırılır. Ada sakinləri sağlamlıqlarına görə tofu pendirinə, şirin kartof və az miqdarda balıqdan ibarət yerli pəhrizə borclu olduqlarını bildirirlər.

Azərbaycan da əhalinin uzunömürlülüyünə görə fərqlənən ölkələrdəndir. Ölkəmizdə uzunömürlü insanlara, əsasən, dağlıq və dağətəyi rayonlarda rast gəlinir. Bunun səbəbi həmin bölgələrdə olan təmiz dağ havası və orqanik məhsullardır. Məlumatlara görə, Azərbaycanda uzunömürlü insanların üstünlük təşkil etdiyi cənub bölgəsi, İsmayıllı, Gədəbəy, Tovuz, Quba rayonlarıdır.

Son illərdə əhalinin siyahıyaalınmasında 90 yaşdan yuxarı insanların ötən əsrlə müqayisədə azaldığı, eyni zamanda 85 yaşdan yuxarı yaşlarda ölüm hallarının çoxaldığı müşahidə olunur. Dövlət Statistika Komitəsindən bildirilib ki, 2024-cü ilin əvvəlinə olan statistikaya əsasən, Azərbaycanda 429400 nəfər 65-69 yaş arasında, 258600 nəfər 70-74 yaş arasında, 115400 nəfər 75-79 yaş arasında, 126900 nəfər isə 80 və yuxarı yaş qrupunda olan şəxslərdir.

### Qocalıq xəstəlik deyil

Doğuşdan etibarən DNT daim xarici və daxili hücuma məruz qalır. Uşaqlıq və yeniyetməlik dövrlərində bu hücumları asanlıqla dəf etmək olur. Ancaq zamanın və ətraf mühitin zərərli təsirləri hüceyrələrdəki təmir mexanizmlərini zəiflətdiyi üçün xüsusilə 50-dən sonra bu pozulmaları düzəltmə şansı getdikcə azalır. Bununla belə, genetik kodları hüceyrələrdə saxlayan 46 xromosomun hər birində hər gün ən azı 2 trilyondan çox qırılma, pozulma baş verir. Üstəlik, bunlar yalnız hüceyrələrin təbii çoxalması zamanı baş verən qırıqlardır. Yaşlandıqca fərqli qırılma səbəbləri meydana çıxır və problemi daha da artırır. Qəbul edilən qida, tənəffüs edilən hava və ya dəri vasitəsilə bədənə daxil olan kimyəvi toksinlər, təbii şüalanma, kompüter tomoqrafiyası, hətta hava limanlarında təhlükəsizlik dəhlizlərindən keçərkən məruz qalınan rentgen şüaları DNT-ni zədələyir. Digər tərəfdən, təəssüf ki, yaşlandıqca DNT-dəki bu aşınmaları təmir edəcək ferment sistemləri də insanla birlikdə qocalır, yorulur və azalır.

Çoxlu elmi araşdırma qocalığın xəstəlik olmadığını sübut edib. 100 ildən çox yaşayan insanlar qocalığa deyil, tutulduqları xəstəliklərə təslim olublar. Demək olar ki, bütün yaşlı insanlar qocaldıqları üçün deyil, infarkt, insult, pnevmoniya və buna bənzər infeksiyalardan, habelə xroniki xəstəliklərdən vəfat edirlər. Bu gün 60 yaşı tamam olanların ən azı 20 faizində 1, 80 yaşı tamam olanların isə ən azı 40 faizində 2 xroniki xəstəlik var. Buna görə də mütəxəssislər insan ömrünü xəstəliyə qədərki və sonrakı dövr olmaqla iki yerə ayırırlar. Məsələn, orta ömür 76-77 ildirsə, onun ən yaxşı halda 64-65 ili sağlam olur.

Türkiyəli professor Osman Müftüoğlu bildirib ki, əgər xroniki xəstəliklərlə düzgün və daha diqqətli mübarizə aparılsa, həyatımıza ən azı 10-20 il əlavə oluna bilər. Hətta bu müddətin 50 ilə qədər uzana biləcəyini də deyənlər var. Bu düşüncəyə səbəb regenerativ təbabət, kökhüceyrə sahəsi, biotexnologiya elmləri və nanotexnologiya tədqiqatlarında əldə edilən nəticələrdir. Bunlara son illərdə əlavə edilən süni intellektin verdiyi yeni üstünlüklər də əlavə olunarsa, o zaman 80 yaş 60 yaş kimi, 100 yaş isə 70 yaş kimi olacaq.

### Hüceyrələri ölməkdən xilas edə bilərikmi?

Xoşbəxtlikdən, son 30-40 ildə qocalığa baxışımızda inqilabi dəyişiklik baş verib. Artıq qocalıq "həkim, xəstəxana qapısında sağlamlıq problemlərinə çarə axtarma" dövrü olmaqdan "hüzur, hikmət və bənzərsiz yaxşılıq dövrü" kimi qəbul olunmağa çevrilib. Bu prosesdə uzunömürlülərin və "qocalıq elmi" ilə məşğul olan mütəxəssislərin böyük rolu var. Onların sayəsində insanlar genlərin köləsi olmaq əvəzinə, onları idarə etməyi öyrənir. Doğru addımlar ataraq yaxşı genləri (sirtuins, AMPK) aktivləşdirmək və pis genləri (mTOR) susdurmaq üçün müvafiq addımlar atılır. Uzunömürlülük və senolitik təbabət sahəsindəki kəşflər sayəsində qocalar orta yaşlarında olduğu kimi gümrah, şən, fiziki və mənəvi cəhətdən güclü ola bilərlər.

Bəs, senolotik təbabət nədir? Yaş artdıqca orqan və toxumalarımızda olan hüceyrələr təbii bioloji pozulmalar nəticəsində qabiliyyətlərini və güclərini itirirlər. Nəticədə hüceyrələr yenilənmir və daha da əhəmiyyətlisi, bu köhnə və tükənmiş hüceyrələr ətrafdakı gənc hüceyrələrə iltihabı tətikləyən zərərli kimyəvi maddələr yayaraq onların funksiyalarının pozulmasına səbəb olurlar. Üstəlik, bu hüceyrələrdən bəziləri "zombi hüceyrə"lərə çevrilərək, "ölməkdən imtina edir" və canlı-ölü hüceyrələrə çevrilərək yaşlanma prosesini sürətləndirir. Senolitik təbabətin əsas məqsədlərindən biri bu hüceyrələrə qarşı mübarizə aparmaqdır. Məsələn, soğanda quercetin, çiyələkdə fisetin, sarımsaqda allisin, sarıkök kurkumin kimi təbii molekullardan istifadə edərək əhəmiyyətli irəliləyiş əldə etmək mümkündür.

### Daha yaxşı yaşlanma daha yaxşı yaşamaqla mümkündür

Yaşlanma haqqında danışarkən hamımızın ağlına eyni şeylər gəlir: eşitmənin azalması, görmənin zəifləməsi, yuxunun qısalması, ağrıların kəskinləşməsi, yorğunluğun artması. Yaş artdıqca bədənimizdə, ruhumuzda çox şey dəyişir. Müasir dünyada fiziki və zehni qocalma proseslərini yavaşlatmağa və qocaldıqca həyat keyfiyyətini daha da yaxşılaşdırmağa yönəlmiş üsullar, məhsullar, texnologiyalar və müalicələr var. Yaşlanmağa səbəb olan hüceyrə proseslərini dəyişdirməkdən tutmuş yeni və daha təsirli dərmanların kəşfinə qədər elm adamları biotexnologiya və regenerativ tibb sahəsində böyük irəliləyişlər əldə etməyə çalışırlar. Lakin bunların böyük bir qismi insanı yalnız xaricdən cavan saxlaya bilər. Üstəlik, onların heç də hamısı hər kəs üçün əlçatan deyil. Amma əldə edə bilmədiklərimizə köklənmək əvəzinə, həyatımızda bəsit bir neçə dəyişiklik edərək sağlam yaşlanmağa nail ola bilərik.



Məqsəd yalnız ömrü uzatmaq deyil, sağlam və məhsuldar ömrü uzatmaqdır. İnsanların həyat keyfiyyətini yaxşılaşdırmadan, yaddaşını, beynini, ürəyini, damarlarını, əzələlərini və sümüklərini güclü etmədən insan ömrünü uzatmaq mümkünsüzdür. Osman Müftüoğlu insanları "qızıl dördlük" adlandırdığı qaydalara əməl etməyə çağırır: müntəzəm məşq, balanslı qidalanma, keyfiyyətli yuxu və az stres. Mütəxəssis qeyd edib ki, bu qaydalara riayət edilsə, xroniki xəstəliklərə qarşı genetik meyil olsa belə, onlara tutulma şansı əhəmiyyətli dərəcədə azalacaq.

Dərin yuxu fazalarının müntəzəmliyi və intensivliyi, yuxunun müddəti və quruluşu olduqca vacib amildir. Bütün yaşlarda, lakin xüsusilə 60 yaşdan sonra sağlam insanların bioloji ritmə diqqət yetirərək keyfiyyətli yuxuya gündə ən azı 6, ən çoxu 9 saat vaxt sərf etməsi tövsiyə edilir.

60 yaşı adlamış insanlar hər gün ağır hərəkətlər etmədən bədən tərbiyəsi ilə məşğul olmalı, yürüyüş etməlidirlər. Hətta cəmi 20-30 dəqiqəlik sürətli gəzintilər belə DNT-nin uclarında qoruyucu telomerləri daha gənc saxlayaraq hüceyrə aşınmasını yavaşladır.

Balanslı qidalanma olduqca vacib amildir. Yeməklər arasında fasilələri uzatmaqla 16 və hətta 18 saatlıq oruc tutmaq insanı daha sağlam edir. Qidalanma zamanı immunitetin zəifləməməsi üçün vitamin qəbulu önəmlidir. Omeqa-3, C, D, B12, K1, K2, maqnezium, sink və fol turşusu əskikliyi orqanizmin müqavimətini zəiflədir. Bu vitaminlərsiz sağlamlığımızı qorumaq və ya yaxşılaşdırmaq mümkün deyil.

### Bədənimiz beynimizi izləyir

Sağlam yaşanan günlərin sayı nə qədər uzun olsa, həyatı da bir o qədər mənalı və xoşbəxt olar. Xoşbəxt qocalıq üçün yalnız bədən sağlamlığı kifayət deyil, ruhumuz da sağlam olmalıdır. İlk öncə hər bir insanın yaşaması üçün motivasiyası olmalıdır, olmadıqda isə onu yaratmaq öz əlindədir.

Yaşından asılı olmayaraq, hər kəs yeniliyə açıq olmalı, yaşın artdığını bəhanə gətirərək kənara, küncə çəkilməməlidir. Mütəxəssislər bildirirlər ki, güclü sosial əlaqələri olan insanlar tənha yaşayanlardan 20 faiz daha uzunömürlü olurlar. Yeni insanlarla, xüsusilə gənclərlə tanış olmaq yaşamaq üçün stimul verir. Keçmişi keçmişdə buraxmaq, gələcəklə daha çox məşğul olmaq lazımdır. Buna nail olmağın yolu əvvəlcə "şüurlu şüur" məsələsini anlamaqdan keçir. Şüurlu şüurumuz yaxşılaşdıqca, həyatdan daha çox həzz almağa başlayacağıq.

Uzunömürlülük üçün inanc, mənəvi zənginlik önəmlidir. Elmi araşdırmalar göstərir ki, iman zənginliyi və güclü mənəviyyat həyatın müddətini və keyfiyyətini artırır. Elmi araşdırmalar sübut edir ki, müntəzəm dua xəstəliklərin nisbətini azaldır.

Daim öyrənmək və yaddaşı yeniləmək mühüm məqamlardandır. Epigenetik saatla bağlı tədqiqatlar müntəzəm öyrənmə səyləri göstərən yaşlı insanların yaddaş itkisinə daha davamlı ola biləcəyini göstərib. Bunun üçün yeni hobbilər axtarın, yeni dil öyrənməyə, musiqi alətində çalmağa başlayın. Fürsət tapdıqca görmədiyiniz yerlərə səyahətə çıxın, ictimai fəaliyyətlərə qoşulun. İstənilən yaşda tənbəllik həm ruha, həm də bədənə xəyanətdir.

Bir sözlə, zamanında mütəxəssislərin dediklərinə əməl edərək yol xəritəsi hazırlamadan, səbir və səy göstərmədən uzun və keyfiyyətli ömür sürmək mümkün deyil. Unutmamalıyıq ki, dünyaya bir dəfə gəlirik və həyat bizə yalnız bir dəfə verilir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Şərq və Qərbin mədəni inkişaf xüsusiyyətlərinə dair tədqiqat aparılıb

**AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun Şərqşünaslığın tarixi və nəzəriyyəsi şöbəsinin əməkdaşı Aynurə Məmmədovanın "Şərq və Qərbin mədəni inkişaf xüsusiyyətləri" adlı məqaləsi Türkiyədə "Milli Kültür Araşdırmaları Dərgisi"ndə çap olunub.**

İnstitutdan AZƏRTAC-a bildirilib ki, məqalədə XX əsrin 30-cu illərindən etibarən Şərqlə Qərb arasında mövcud olan fərqli və oxşar cəhətlər müəyyənləşdirilir. Bildirilir ki, oxşar cəhətlər antik dövr, yunan elminin dirçəlişi, mədəniyyətin və cəmiyyətin sosial-iqtisadi inkişafı ilə müəyyən edilir. Oxşarlıq və fərqləri görmək üçün əvvəlcə Şərqlə Qərbin tarixi proseslərinin mahiyyətini aydınlaşdırmaq lazımdır. Bu mövzuda aktual amillərdən biri Qərblə Şərq arasında paralellərin çəkilməsi, eləcə də ayrı-ayrı düşüncə tərzinin inkişaf qanunauyğunluqlarına əməl edilməsi və regionlara münasibətdə bu inkişafın xüsusiyyətlərini öyrənməkdir.




Qeyd olunub ki, Şərq və Qərb təfəkkürünün ümumi xüsusiyyətlərini və onların meydana çıxma səbəblərini şərh edə bilmək üçün Şərq və Qərb düşüncə yolları arasındakı oxşarlıq və fərqliliklərin, ədəbi-bədii əlaqələrin araşdırılması zəruridir.

# İki il əvvəl itkin düşmüş iki hərbçimizin meyitlərinin qalıqları aşkarlanaraq götürülüb

Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında təmsil olunan aidiyyəti dövlət qurumları tərəfindən aparılmış axtarış-araşdırma işləri nəticəsində iyulun 3-də Kəlbəcər rayonunun İstisu qəsəbəsindəki Yüzbulaq yaylağının ərazisində Azərbaycan Ordusunun iki hərbçisinə aid olduğu ehtimal edilən meyit qalıqları aşkarlanaraq götürülüb.

Bu barədə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin, Azərbaycan Respublikasının Baş Prokurorluğunun və Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının AZƏRTAC-a daxil olmuş birgə məlumatında bildirilib.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi və Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Hərbi-tibb baş idarəsinin Genetik Araşdırmalar Mərkəzində həyata keçirilmiş ekspertizalar nəticəsində qalıqların 2022-ci il martın 3-də Laçın rayonunda yüksək dağlıq və çətin relyefli ərazidə hava şəraitinin qəfil dəyişməsi və çovğun səbəbindən istiqaməti itirərək itkin düşmüş Azərbaycan Ordusunun əsgərləri - 23.05.2003-cü il təvəllüdlü Fərid Əjdər oğlu Məmmədova və 09.02.2003-cü il təvəllüdlü Firdovsi Mais oğlu Abdullayevə aid olduğu müəyyən edilib.

Həyata keçirilmiş kompleks istintaq tədbirləri, məhkəmə-tibb və kriminalistik tədqiqatlarla müəyyən edilmişdir ki, həmin əsgərlər 2022-ci il martın 3-də Laçın rayonunda yüksək dağlıq və çətin relyefli ərazidə hava şəraitinin qəfil dəyişməsi və çovğun olmasından istiqaməti itirərək itkin düşmüşlər, uzun müddət soyuq temperaturda qalmaqla donvurma səbəbindən ölüblər.

Əsgərlərin nəşlərinin tapılması 2024-cü il avqustun 5-də Dövlət Komissiyasında keçirilmiş görüşdə itkin hərbçilərin ailələrinə elan edilib.

Hazırda aidiyyəti dövlət qurumları ilə birlikdə əsgər Fərid Məmmədov və əsgər Firdovsi Abdullayevin dəfni ilə bağlı zəruri tədbirlər həyata keçirilir. Dəfn mərasimlərinin vaxtı və yeri barədə ictimaiyyətə əlavə məlumat veriləcək.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3818
Sifariş 1757

Qiyməti 60 qəpik